# BAYRAMIMIZ MÜBARƏK!

Bu bir xalq qəzetidi
ƏDALƏT

## "Zəfərin qazanıldığı torpaqlara gedəcəyik"



**Türkiyə-Azərbaycan qardaşlığı bölgədə sülhün, rifahın və sabitliyin qarantıdır"**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Brüsselə səfərindən öncə keçirilən mətbuat konfransında deyib. "Azərbaycan Qarabağda tarixi qələbəyə imza ataraq 30 illik işğala son verdi. Bu qələbə bölgədə davamlı sülh və sabitliyin qapısını açdı. Ötən ilin dekabr ayının 10-da Bakıda keçirilən Zəfər paradını izlədik, Azərbaycanın haqlı qürurunu paylaşdıq. Növbəti səfərimizdə isə Zəfərin qazanıldığı torpaqlara, Şuşaya gedəcəyik", - deyə Ərdoğan qeyd edib.

Aqil ABBAS

## UCA ADAM: RƏCƏB TAYYİB ƏRDOĞAN

Bax:səh-3

## AMEA-nın vəzifəli şəxsi barədə cinayət işi başlanıb

**Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşının barəsində olan cinayət işinin istintaqı yekunlaşıb.**

Adalet.az-ın məlumatına görə, AMEA-nın Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının aparıcı elmi işçisi, fəlsəfə doktoru Ədalət Ətayi xüsusi ittiham qaydasında böhtan atmaqda təqsirləndirilir. Fəlsəfə doktoru barəsində Cinayət Məcəlləsinin 147.2-ci (Ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma) maddəsilə ittiham olunur. Cinayət işi üzrə ibtidai istintaq başa çatıb və iş baxılması üçün Şamaxı rayon Məhkəməsinə göndərilib. Cinayət işi hakim Etibar Hümbətovun icratına verilib. Yaxın vaxtlarda məhkəmənin hazırlıq iclası keçiriləcək.

## Təhsil naziri "Son zəng"i Tapqaraqoyunluda qeyd etdi

**"Son zəng"i Goranboy rayonu Tapqaraqoyunlu kənd tam orta məktəbində qarşılayırıq.**

Adalet.az xəbər verir ki, bunu təhsil naziri Emin Əmrullayev "Facebook" səhifəsində yazıb.

Nazir bildirib ki, 1993-cü ildən Azərbaycanın Milli Qəhrəmanı, məktəbin məzunu, şəhid Niyazi Aslanovun adını daşıyan məktəb hər iki Qarabağ müharibəsi zamanı daim atəşə məruz qalıb.

"Neçə-neçə uğurlu vətəndaşlar yetişdirən məktəbdən bu gün 21 şagirdimiz məzun olur, "Son zəng"i Qələbə sevinci ilə yola salırlar", - E.Əmrullayev qeyd edib.

*İmamverdi İSMAYILOV,*
*Milli Məclisin deputatı,*
*yazıçı-publisist*

## ŞUŞANIN GÜNƏŞİ

Bax:səh-5

## Aygün Attarın yeni kitabı




**Bu günlərdə Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Komitəsinin üzvü, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin rəhbəri, professor Aygün Attarın yeni kitabı işıq üzü görüb. Böyük oxucu auditoriyası üçün yazılmış bu dəyərli kitab "Qarabağ zəfəri 44 günün pərdəarxası" adlanır. Kitaba Azərbaycan və Türkiyə Prezidentləri öz fikirləri ilə uğur diləyiblər.**

Kitab barəsində informasiya verən Kənan Arif xatırladıb ki, "Əminəm ki, bu 44 günün pərdəarxası yazılacaq". Həqiqətən bu sözləri Türkiyə Prezidenti R. T. Ərdoğan Zəfər paradında iştirak edib Azərbaycandan səfərdən qayıdarkən jurnalistlərin suallarını cavablandırarkən demişdir.

Bəli, "Qarabağ zəfəri 44 günün pərdəarxası" kitabı artıq yazıldı.

**Kitabda 44 gündə baş verənlər - həm cəbhədə, həm də pərdəarxası olaylar bir səlnamə kimi öz əksini tapıb. Uğurlar, Aygün Attar!**

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 62 (5894) 15 iyun 2021-ci il | Qiyməti 30 qəpik

## TRABZON ŞUŞA İLƏ QARDAŞLAŞMAQ İSTƏYİR



***Trabzon Ortahisar bələdiyyə başqanı Ahmet Metin Genç qəzetimizə belə bir müraciət ünvanlayıb ki, biz Şuşa şəhəri ilə qardaşlaşmaq istəyirik və buna görə də bizdən yardım istəyir.***

***Qardaş, onsuz da biz qardaşıq. Sizin müraciətinizi Şuşa Şəhər İcra Hakimiyyətinə yönləndirəcəyik və yəqin ki, arzunuz baş tutacaq. Və bu təkcə sizin arzunuz deyil, həm də şuşalıların arzusudu.***

# QARDAŞLIQ DARDA BİLİNƏR

*Ayın 15-də, özü də belə bir əziz gündə - Qurtuluş günündə hansı ki, həmin gün Ulu Öndər Heydər Əliyevin yenidən Bakıya gəldiyi və Azərbaycanı xilas etdiyi gündür. Sayın Rəcəb Tayyib Ərdoğanın Azərbaycana gəlməsi, özü də ailəsi ilə birlikdə, həm də Şuşaya getməsi çox rəmzi bir məna daşıyır. Düzdür, Türkiyə ilə Azərbaycanın ürəyi həmişə birgə döyünüb, lakin bu çox vaxt sözdə olub. Amma sayın Ərdoğanın hakimiyyətə gəlişindən bir qədər sonra biz gördük ki, bu sözdə deyil, həm də əməldədir.*



*44 günlük müharibədə bunun bir daha şahidi olduq. Mən sayın Ərdoğanın ad günü ilə bağlı bir köşə yazmışdım. Onu bu gün saytımızda və qəzetimizdə təkrar dərc edirəm. Bu yazıda başqa bir məsələyə toxunmaq istəyirəm.*

*30 ildir ürəyimiz partlaya-partlaya Qarabağ ətrafında baş verən hadisələrlə bağlı nə varsa hamısını diqqətlə izləyirik. Həmişə də məni ağrıdan bir məsələ vardı.*

Bax: səh.2

## *Hikmət Hacıyev:* "Buradan "ağıllı" Ağdama qayıtmaq arzusu ilə ayrılırıq"



**Ağdama 120-dən çox diplomatla etdiyimiz səfər ailə fotosunun çəkdirilməsi ilə başa çatdı.**

Adalet.az xəbər verir ki, bu sözləri Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev "Tvitter" hesabında yazıb.

Hikmət Hacıyev qeyd edib ki, xarici diplomatlarla buradan bir neçə ildən sonra müasir, "ağıllı" Ağdam şəhərinə qayıtmaq arzusu ilə ayrılırlar: "Arxamızdakı kran Ermənistanın 30 illik işğalı dövründə çevirdiyi xarabalığın, urbisidin və yara izlərinin aradan qaldırılmağa başlanılmasının əlamətidir".

## BU GƏNCLƏRƏ NİYƏ İŞGƏNCƏ VERİRSİNİZ?

**Dünən qonaqlarım vardı və bir restorana getmişdim. Adını yazmıram ki, ora hücum etməsinlər. Açıq havada bir məclis idi, hiss elədim toy var. Mən toya dəvət olunmamışdım, sadəcə olaraq həmin restoranda çörək yeməyə getmişdim.**

İraq olsun, elə bil toy deyildi, yasıydı. Yəni oynamaq yox, deyib-gülmək yox, şadlanmaq yox. Toya gələnlər də bizim kimi məsafə ilə əyləşib ürəklərində bayram edirdilər. Bəy-gəlin də adi geyimdə, özü də bir süfrə arxasında yox, ayrı-ayrı oturmuşdular.



Ürəyim ağrıdı. Ay Operativ Qərargahsan-nəsən, niyə bu gənclərə işgəncə verirsən?

Bir Mustafa Çeçeli gəlir, afişaları vurulur, konsert keçirir, sonra deyirlər ki, xəbərimiz yox idi, amma restoranın müdirini 4 min manat cərimə edirlər və sair və ilaxır.

Necə olur ki, bu boyda hadisəni görmürsünüz, amma iki gəncin 50-60 nəfərlə keçirdiyi bir məclisə basqın edirsiz, cərimə boş şeydi, həmin gəncləri ən xoş günlərində polisə aparırsız və sair və ilaxır. Deməli, restoranda 100 nəfər yeyib-içə bilər, onlara virus yoluxmaz, amma toy edən iki gənc gələndə özləri ilə virus gətirərlər?!

Ayıbdı vallah, ayıb. Bu millətlə niyə məzələnirsiz, niyə gəncləri təhqir edirsiz?

Operativ Qərargah, dədəm-nənəm saa qurban, ya da sizin dədəniz-nənəniz maa qurban, bu gənclərə belə işgəncə verməyin. Axı, sizin də övladlarınız var.

## Qurban Qurbanov Şenol Güneşlə görüşdü



**"Qarabağ" klubunun baş məşqçisi Qurban Qurbanov AVRO-2020-nin seçmə mərhələsi çərçivəsində Bakıda keçirəcəyi qarşılaşmalar üçün paytaxtımıza gələn Türkiyə millisini hoteldə ziyarət edib.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyə Futbol Federasiyası məlumat yayıb. Görüş zamanı Qurban Qurbanov Türkiyə millisinə uğurlar arzu edib və Azərbaycan xalqının dəstəyini ifadə edib. Türkiyə millisinin baş məşqçisi Şenol Güneş isə azərbaycanlı həmkarına imzalı forma hədiyyə edib.

## ELƏ BİL BORDAĞA BAĞLAYIBLAR

**Deyəsən, bunlara səhər xaş, axşam bozbaş, gunorta aş yedizdiriblər. Təbi ki, yanında tut arağı.**



## *Şəhid hərbi qulluqçuların yeni siyahısı açıqlanıb - 2904 şəhid, 10 itkin*

**Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların yeni siyahısı açıqlanıb.**

**Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, siyahıda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçularından iyunun 14-dək dəfn edilən 2904 nəfərin, eləcə də itkin düşmüş hesab olunan 10 nəfərin foto şəkilləri, adları, soyadları, hərbi rütbəsi və doğum tarixi haqqında məlumat təqdim olunur.**

**Qeyd edək ki, itkin düşmüş hesab olunan hərbi qulluqçuların tapılması və identifikasiyası üzrə işlər davam etdirilir.**

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

**Şəhidlərimizin ruhu qarşısında baş əyirik!**

## *Əhməd İsmayılov yeni qanun layihəsinin əsas məqsədini açıqladı*



**İyunun 14-də Medianın İnkişafı Agentliyinin və ADA Universitetinin İxtisasartırma Proqramlarının birgə təşkilatçılığı ilə "Mediada islahatlara doğru" mövzusunda silsilə seminarlara başlanılıb. Adalet.az-ın məlumatına görə, birgə seminarın təşkil olunmasında məqsəd media nümayəndələri arasında təcrübə mübadiləsinin aparılmasıdır.**

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov "Media haqqında" qanun layihəsi barədə məlumat verib. O bildirib ki, qanun layihəsi media sahəsində ictimai münasibətlər sistemini tənzimləyən yeni normativ hüquqi aktın hazırlanmasını nəzərdə tutur. "Qanun layihəsinin əsas məqsədi bütün media subyektlərinin, o cümlədən yeni yaranmış onlayn media subyektlərinin də fəaliyyətinin və hüquqlarının müəyyən olunmasıdır", - deyə o bildirib.

Qeyd edək ki, iyunun 14-dən iyulun 10-dək davam edəcək seminarlarda 75 media nümayəndəsinin iştirakı nəzərdə tutulub. Onlar hər qrup üzrə 25 nəfər olmaqla 3 qrupa bölünərək, həm yerli, həm də xarici mütəxəssislərlə təcrübə mübadiləsi aparacaqlar. Qonaqlar arasında "Əl-Cəzirə" və "Haber Global"ın mütəxəssisləri də var.

## BNA və yol polisi AVRO-2020 ilə bağlı vətəndaşlara müraciət etdi

Bax:səh-2

İradə TUNCAY
iradetuncay@rambler.ru

## SEÇİLMİŞ



**Əslində bizim hamımızın dəqiq bildiyimiz bir həqiqət var ki, nə qədər öyrənməyə çalışsaq da, elmi ixtiralardan bəhrələnsək də, Aya uçsaq da, okeanların dibinə enməyə cəhd eləsək də, biz həyatın yaranması, insan övladının bu günə qədər keçdiyi yol, dünyanın sirləri haqqında dəqiq heç nə bilmirik. Nə qədər oxusaq da, axtardığımız çox suallara cavab tapa bilmirik. Din kitabları bir söz deyir, elm kitabları başqa söz, nəyə inanacağımızı müəyyən eləmək çətindir. Elmi nəzəriyyələrəmi, dini ehkamlaramı? Öz adımdan danışım - yaşım artdıqca cavab tapa bilmədiyim sualların sayı artır. Amma din kitablarında inandığım bir fikir var - "Elə hikmətlər var ki, onların dalınca getməyin, çünki sirri Xudadır".**

Bax:səh-3

## NATO-nun 5-ci maddəsi müqəddəs öhdəlikdir



*NATO nizamnaməsinin kollektiv müdafiə barədə beşinci maddəsi müqəddəs öhdəlikdir. Bunu ABŞ Prezidenti Co Bayden deyib. "Bütün kariyeram boyunca demişəm: Biz beşinci maddəyə müqəddəs öhdəlik kimi baxırıq", - deyə o bildirib.*

## GÜNÜN LƏTİFƏSİ

Bir gün Aqil Abbas işə gəlib Orxan Saffari yə deyir:

**- Dünən səni şəhərdə gördüm!**

Orxan ehtiyatla cavab verir:

**- Harada?**

**- Sən 28 Maydaydın, mən Nərimanovda.**

# Prezident şəhid jurnalistləri təltif etdi



**İyunun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "İşğaldan azad olunan ərazilərdə vəzifə borcunu yerinə yetirmiş bir qrup şəxsin 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında" Sərəncam imzalayıb.**

Adalet.az xəbər verir ki, Sərəncama əsasən, Azərbaycan Respublikasının işğaldan azad olunan ərazilərində vəzifə borcunu ləyaqətlə yerinə yetirərkən həlak olmuş Abışov Sirac Abış oğlu, Əliyev Arif Ağalar oğlu və İbrahimov Məhərrəm Əli oğlu 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Xatırladaq ki, işğaldan azad olunmuş ərazilərin çəkilişini həyata keçirən jurnalistləri aparan nəqliyyat vasitəsi iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində tank əleyhinə minaya düşüb. Nəticədə AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov, AZTV-nin operatoru Sirac Abışov və Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati dairəsi üzrə nümayəndəsinin müavini Əliyev Arif Ağalar oğlu həlak olub, dörd nəfər yaralanıb.

# İlham Əliyev və Mehriban Əliyeva Füzuliyə rayonuna səfər ediblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 14-də Füzuli rayonuna səfər ediblər.**

Dövlət başçısı və birinci xanım Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar.

Prezident İlham Əliyevə hava limanında görülən işlər barədə məlumat verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 14-də Füzuli rayonundakı Aşağı Köndələnçay su anbarında olublar.

Dövlətimizin başçısına su anbarının texniki göstəriciləri barədə məlumat verildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmçinin iyunun 14-də Zəfər yolu üzərində inşa edilən körpüdə görülən işlərlə tanış olub.

**Adalet.az xəbər verir ki, dövlətimizin başçısına körpünün texniki göstəriciləri barədə məlumat verilib.**

## *Ombudsmandan Paşinyanla bağlı beynəlxalq təşkilatlara müraciət*

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)Səbinə Əliyeva Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Ermənistan tərəfindən basdırılmış minaların xəritələrinin verilməsi barədə bəyanat yayıb.**

Adalet.az xəbər verir ki, bəyanatda deyilir:

"Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) olaraq, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində insanların həyatı, sağlamlığı və təhlükəsizliyinə təhdid olan minalı ərazilərlə bağlı narahatlığımı bir daha ifadə edirəm.

Ermənistan və Azərbaycan arasında 44 gün davam etmiş müharibə 10 noyabr 2020-ci il tarixində Ermənistan, Azərbaycan və Rusiya arasında imzalanmış üçtərəfli bəyanata əsasən başa çatmış və Azərbaycanın 30 ilə yaxın işğal altında qalmış əraziləri azad edilmişdir. Azad olunmuş ərazilərdə şəhərlər, qəsəbələr, kəndlər, demək olar ki, Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə dağıdılmış, həmin ərazilərdə yüz minlərlə mina basdırılmışdır. Minalar isə onilliklər boyu aktiv qala və ciddi risk daşıya bilər. Onların mövcudluğu insanların yaşamaq hüququna təhdid olmaqla yanaşı, məcburi köçkünlərin həmin ərazilərə geri qayıtmasına maneə törədir, ümumilikdə bərpa və inkişaf prosesini əhəmiyyətli dərəcədə ləngidir. Müharibənin başa çatmasından sonra hərbi qulluqçular və mülki şəxslərin minaya düşərək həlak olduğu və ya yaralandığı onlarla hal baş vermişdir. Belə ki, münaqişə bitdikdən sonra müxtəlif növ minalar və digər partlayıcı qurğuların mövcudluğu səbəbindən 140-dan çox insan minaya düşmüş, 27 şəxs mina partlaması nəticəsində həlak olmuşdur.

Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində basdırdığı minaların xəritələrinin verilməsindən imtina etməsi ilə bağlı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili olaraq tərəfimdən dəfələrlə beynəlxalq insan hüquqları təşkilatları qarşısında məsələ qaldırılmış, bununla bağlı beynəlxalq təşkilatlara öz narahatlığımı bildirmişəm.

Ermənistan isə hər dəfə onlarda bu xəritələrin olmaması və digər bəhanələrlə mina xəritələrini verməkdən imtina etmiş, beynəlxalq hüquq və humanitar hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq onlarla günahsız insanların həlak olmasına və ya sağlamlıqlarını itirməsinə səbəb olmuşdur.

Məlum olduğu kimi, 2021-ci il iyunun 12-də Ermənistanın Ağdam rayonu üzrə 97 min tank və piyada əleyhinə minanı özündə əks etdirən xəritələri Azərbaycan tərəfinə təqdim etməsi müqabilində Azərbaycanda saxlanılan 15 nəfər erməni hərbi qulluqçunun Ermənistana təhvil verilməsi ilə bağlı humanitar aksiya həyata keçirilmişdir. Azərbaycanın işğaıldan azad edilmiş yalnız bir rayonunda 100 minə yaxın müxtəlif növ minanın basdırılması faktı, Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyanın Yeğvard şəhərində seçkiqabağı təbliğat kampaniyası çərçivəsində öz seçiciləri ilə görüşdə Azərbaycana təqdim olunmuş mina xəritəsinin əllərində olan xəritələrin kiçik bir hissəsi olduğunu rəsmi olaraq bəyan etməsi bizim davamlı olaraq beynəlxalq təşkilatlara ifadə etdiyimiz narahatlığın nə dərəcədə əsaslı olduğunu bir daha göstərmiş oldu. Ermənistan işğaldan azad olunmuş ərazilərdə piyada əleyhinə minalar basdırmaqla və minalanmış ərazilərin xəritələrini verməkdən boyun qaçırmaqla beynəlxalq humanitar hüququn fərq qoymadan hücum etmənin qadağan olunması prinsipini, 1949-cu il tarixli Cenevrə Konvensiyasının I saylı Əlavə Protokolunun tələblərini pozur və bunu rəsmi şəkildə bəyan etməklə beynəlxalq ictimaiyyətə açıq hörmətsizlik nümayiş etdirir.

Günahsız insanların həyat və sağlamlığını qorumaq və insan hüquqlarının pozulmasına son qoymaq naminə qətiyyətlə işğaldan azad edilmiş digər rayonların da mina xəritələrinin verilməsini tələb edir, bütün müvafiq beynəlxalq təşkilatları mandatları çərçivəsində təcili tədbirlər görməyə çağırıram".

# Azərbaycanın diplomatik uğuru: Ağdamın mina xəritəsi ölkəmizə verildi

**Əldə edilmiş razılığa əsasən, 2021-ci il iyunun 12-də Ermənistanın Ağdam rayonu üzrə 97 min tank və piyada əleyhinə minanı özündə əks etdirən xəritələri Azərbaycan tərəfinə təqdim etməsi müqabilində, saxlanılan 15 nəfər erməni Azərbaycan-Gürcüstan sərhədində Gürcüstan nümayəndələrinin iştirakı ilə Ermənistana təhvil verilib.**

Bu barədə Adalet.az -a Azərbaycan Xarici İşlər Nazirliyindən (XİN) məlumat verilib.

"Bu humanitar aksiyanın həyata keçirilməsində Gürcüstanın baş naziri İrakli Qaribaşvili başda olmaqla, Gürcüstan hökumətinin dəstəyini təqdir edirik. Eyni zamanda, prosesə verdikləri töhfəyə görə, ABŞ dövlət katibi Antoni Blinken başda olmaqla, dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Filip Rikerin, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və ATƏT-in İsveç sədrliyinin vasitəçilik rolunu xüsusilə qeyd edirik.

Mina xəritələrinin əldə edilməsi on minlərlə vətəndaşımızın, o cümlədən minatəmizləyənlərin həyatını və sağlamlığını təhlükədən xilas edəcək və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Ağdamda əsası qoyulan yenidənqurma layihələrini və məcburi köçkünlərin qayıdışı prosesini sürətləndirəcək", - deyə XİN-in yaydığı məlumatda qeyd olunub.

*Aygün Attar*

# Toprağına yüzüme sürmeye geliyorum...



**Ruhun şad olsun , Dedem**

**Sn.Cumhurbaşkanımız Erdoğan 'ın Azerbaycan ziyaretinde resm? heyetin bir üyesi olarak torunun Can Azerbaycan 'a , senin ebedi ziyaretgahın ın bulunduğu Şuşa'ya geliyor .**

**Toprağına yüzüme sürmeye geliyorum Vatan ..**

**Kahraman şehitlerimizin kan dökerek işgalden azad ettikleri yerleri öpmeye koklamaya , onların aziz ruhları karşısında eğilmeye geliyorum.**

**Muzaffer Ali Baş Komandan ve yiğit Azerbaycan halkına binlerce kes helal olsun, yüzümüz ak başımız dik geliyoruz ..**

**Göz bebeğimiz Türkiye 'ye ve özellikle savaşın başından sonuna dim dik yanımızda duran Sayın Erdoğan 'a binlerce kes teşekkürler**

**Gözümüz aydın olsun!**

**Türkiye Azerbaycan birlikteliği ebed müddet var olsun.**

**Mir Şahin**

# Nikolun ABŞ-dan xahişi və Bakının qələbəsi



**Bu, İlham Əliyevin qeydşərtsiz qələbəsidir. Xüsusi qabardılası fakt budur ki, mina xəritələrinin Azərbaycana verilməsi Birləşmiş Ştatların Dövlət Departamenti və Avropa İttifaqının vasitəçilik missiyası nəticəsində baş tutub.**

Əliyev dürstlüyünün həm daxilə, həm daxili səmimiyyətinin faydasını gördüyü kimi, Paşinyan da səriştəsizliyinin, vecsizliyinin, amma daha çox satqınlığının altını çəkir.

Bir müddət əvvəl Rusiya Prezidentinin hüzurunda Baş nazir kimi gah əlini, gah çantasını unudan Paşinyan Baş nazir əvəzi kimi bu dəfə lap özünü unudub. Məsələn, Vaşinqton və Brüsseldən xahiş edib ki, əsirlərin qaytarılması üçün Bakı-İrəvan danışıqlarında vasitəçi olsunlar.

Haqqın.az yazır ki, Paşinyanın xahişini Azərbaycanın siyasi rəhbərliyinə məhz Birləşmiş Ştatların Dövlət Departamentinin nümayəndəsi çatdırıb. Redaksiyada əmin idilər ki, Bakıda erməni hakimiyyətinin bu metamorfozasından əlbəttə təəccüblənirlər, amma Paşinyanın Amerika Birləşmiş Ştatları vasitəsilə elan etdiyi "mina xəritələrini təqdim etmək" arzusuna da qarşı çıxmırlar.

Ağdamı əhatə edən mina xəritəsi əldə edilir. 15 dənə ermənini qaytarmaqla gələcəyin onminlərlə insanı xilas edilir. Xilas-təmizləmə missiyası davam etməkdədir. Deməli Ağdamın başına ürəklə, lap elə Mina dağı kimi dolana biləcəyik, mina dağı kimi yox.

Mina xəritələrinin davamı da olmalıdır. Biz Paşinyanın Rusiyanı satmasının nəticələrindən maksimum bəhrələnməliyik. Onu da qeyd edim ki, Paşinyanın Bakıya ABŞ vasitəsilə iltimasda bulunması versiyası əvvəl yalnız Haqqın.az-ın fərziyyəsi idi.

Amma az sonra Paşinyan mitinqdə çıxışı zamanı şəxsən təsdiq etdi ki, həqiqətən də Amerika Birləşmiş Ştatları Dövlət katibinin köməkçisi Filip Riker əsirlər məsələsində irəliləyişə nail olmaq barədə Entoni Blinkenin tapşırığını çatdırıb.

Məntiqlə də hər şey yerinə oturur: Hələ buna qədər də bir neçə dəfə Ermənistan Baş naziri regiona Qərb dövlətlərinin dəvət olunmasını, müharibə sonrası proseslərdə bu qütbün fəal iştirakını rica etmişdi. Paşinyan əl üstə kimin əli oyununun qaydalarını bilməmiş deyildi və onun hesabıyla burda ən son əl Rusiya olmamalıydı.

Hə, burda çox mühüm bir nüans da var. Bakı yalnız o 15 dənə erməni təhvil verməyə razılaşır ki, Qarabağda hərbi cinayət törətməyə macal tapmamışdı. Yəni bizimkilər onları, ərazimizdə hər hansı təxribat və ya terror hadisəsi törətməyə imkan vermədən götürmüşdülər. Və bu arada baş verən başqa bir hadisəyə də qayıdaq. Ermənistan Avropa İnsan Hüquqları Məhkəməsinə müraciətlə Azərbaycandan 11 vətəndaşının dərhal sərbəst buraxılmasını tələb etmişdi. İnsan Hüquqları Məhkəməsi isə bu tələbi rədd etmişdi. Azərbaycan Hökuməti isə Avropa İnsan Hüquqları Məhkəməsinin bu qərarını alqışlamışdı.

Deməli, Azərbaycanı, adətən ölkəmizə qarşı qərəzli qərarları ilə seçilən bu qurum belə müdafiə etməyə məcbur olmuşdu. Ermənistan isə qısaqapanmalarla, başı-ayağa naməlum sınıq xətlərlə zəngin kursu ilə sabitqədəm bir dövlət olmadığını hər dəfə nümayiş etdirməkdədir. Məsələn, son hadisəyə qədər də Ermənistanın bir gün NATO-ya, bir gün Fransa Prezidentinə əl açması nümayiş etdirmişdi ki, ermənilər öz tarixi xasiyyətinə, öz genetik təbiətinə-satqınlıqlarına sədaqətlidirlər!

Rusiyada bir sıra müşahidəçilər açıq şəkildə bəyan edirlər ki, Ermənistan Rusiyanı hər gün daha çox satır! Və onun bu yaxınlarda Ermənistan-Azərbaycan sərhədinə dəvət etdiyi dövlətlər, qütblər Ermənistanın əbədi hamilərinin-Rusların marağında deyil, Kremlin rəqibəri, hətta düşmənidir və buna görə də rusların xoşuna gəlmir. Lap elə tutaq ki, Amerika Birləşmiş Ştatlarını, Avropa İttifaqına üzv olan dövlətləri bölgəyə Paşinyan dəvət etmişdi: bəs nəticəsi nə oldu? Nəticə o oldu ki, mina xəritələrini Azərbaycana verməyə Paşinyan məhz Dövlət Departamenti, Avropa İttifaqı vasitəsilə məcbur oldu.

**Bu gün Ermənistan özünün ən ağır vaxtlarını yaşayır! Qarşıdan parlament seçkiləri gəlir. Erməni seçicinin öz gələcəyini seçmək şansı yoxdur: ona görə ki, bir tərəfdə məğlub Paşinyanın rəhbərlik etdiyi bugün var, bir tərəfdə terrorla, parlament güllləbaranıyla, korrupsiya ilə, bir sözlə, bütün dövlət və müharibə cinayətləri ilə zəngin keçmiş var ki, onun da təmsilçisi Köçəryandır. Gələcək isə yoxdur! Erməni xalqı isə bir neçə pisdən birini, daha doğrusu iki ən pisdən birini seçmək məcburiyyətində qalıb. Balalarının nəşini alanda sevinən sadə erməni üçün bu saat Qarabağ sadəcə gedərgəlməzdir! Ermənidən ötrü Qarabağ müqəddəslik yükü daşımır. Erməni insan Azərbaycan tərəfə bundan sonra yalnız kor bucaq altında baxmalı olacaq. Ağlamaqdan kor olmuş bucaq altında.**

*Aqil ABBAS*

# QARDAŞLIQ DARDA BİLİNƏR

*Ayın 15-də, özü də belə bir əziz gündə - Qurtuluş günündə hansı ki, həmin gün Ulu Öndər Heydər Əliyevin yenidən Bakıya gəldiyi və Azərbaycanı xilas etdiyi gündür. Sayın Rəcəb Tayyib Ərdoğanın Azərbaycana gəlməsi, özü də ailəsi ilə birlikdə, həm də Şuşaya getməsi çox rəmzi bir məna daşıyır. Düzdür, Türkiyə ilə Azərbaycanın ürəyi həmişə birgə döyünüb, lakin bu çox vaxt sözdə olub. Amma sayın Ərdoğanın hakimiyyətə gəlişindən bir qədər sonra biz gördük ki, bu sözdə deyil, həm də əməldədir.*

*44 günlük müharibədə bunun bir daha şahidi olduq. Mən sayın Ərdoğanın ad günü ilə bağlı bir köşə yazmışdım. Onu bu gün saytımızda və qəzetimizdə təkrar dərc edirəm. Bu yazıda başqa bir məsələyə toxunmaq istəyirəm.*

*30 ildir ürəyimiz partlaya-partlaya Qarabağ ətrafında baş verən hadisələrlə bağlı nə varsa hamısını diqqətlə izləyirik. Həmişə də məni ağrıdan bir məsələ vardı.*

*Fikirləşin, Ulu Öndər Qarabağ problemi ilə bağlı müzakirələrdə kimlərlə bir masa arxasında əyləşib: ABŞ-ın, Fransanın, Rusiyanın həmsədrləri və liderləri ilə. O şəxslərlə ki, onların hamısı Ermənistanın tərəfini saxlayır. Və Heydər Əliyev bütün bunlarla tək döyüşür və geri çəkilmir.*

*Mən bir dəfə yazmışdım və yenə də yazıram, biz cavan olanda tez-tez kimlərləsə davaya gedirdik. Təbii ki, gedəndə bir əmioğlumuzu, ya dayıoğlumuzu, ya da dostumuzu da özümüzlə götürürdük ki, hayan olsun.*

*Amma Heydər Əliyev bu "döyüşlərə" gedəndə tək gedirdi, ona hayan olan yox idi. "Dava"ya gələnlərin hamısı Ermənistanın tərəfini saxlayanlar, silahlandıranlar və sair və ilaxır idi. Heydər Əliyev tək vuruşurdu və onu məğlub edə bilmədilər.*

*Uzun illər İlham Əliyev də belə "döyüşlərə" tək gedirdi. Yəni ona hayan duran yox idi. Yenə Ermənistanın arxasında duranlar və tək Azərbaycan prezidenti İlham Əliyev. Çox çalışırdılar ki, İlham Əliyevə Azərbaycanın xeyirinə olmayan hansısa bir sənədə qol çəkdirsinlər, amma bacarmırdılar.*

*Yəni uzun illər İlham Əliyev dünya gücləri ilə tək vuruşub.*

*Və bir gün qardaş ölkənin cümhurbaşkanı sayın Rəcəb Tayyib Ərdoğan bütün dünyaya barmaq silkələyərək bildirdi ki, Azərbaycanla, İlham Əliyevlə bir yerdədir.*

*Yadınıza düşürsə, deyəsən Praqadaydı, Türkiyənin cümhurbaşkanı sayın Ərdoğan o tədbirdə yox idi. Ermənilər Türkiyənin əleyhinə böyük bir kampaniya apardılar. Onda cənab İlham Əliyev qalxdı və dedi ki, Türkiyə yoxdu, mən burdayam!*

*Və həmişə bizim dövlət başçısının təklənməyi məni ağrıdırdı. İndi qətiyyən ağrımıram, çünki hadisələr və Azərbaycanın Böyük Vətən Müharibəsi göstərdi ki, kimsə bizi təkləyə bilməz - nə xalqımızı, nə də Prezidentimizi. Və Rəcəb Tayyib Ərdoğan bir qardaş kimi, bir əmioğlu kimi, bir dost kimi bizi tək qoymadı. Və Ərdoğandan sonra da kim hakimiyyətə gələrsə artıq bizi meydanda tək qoymayacaq.*

*Heydər Əliyev deyirdi ki, biz bir millət iki dövlətik. Amma indi tarix göstərdi ki, biz artıq elə bir millətik, bir də dövlətik.*

*Sayın Ərdoğan ən ciddi və vacib müqavilələri Şuşada qardaşı İlham Əliyevlə birgə imzalayacağını söylədi.*

*Hansısa, təəssüf ki, adı yadımdan çıxdı, bir rus yazıçısı yazır ki, azərbaycanlılarda (türklərdə) sənəddən də daha qiymətli bir şey var, o da sözdür. Yəni türklər ağızlarından çıxan sözə ömürlərinin sonuna qədər varlar.*

*İndi Şuşada hansı sənəd imzalanacaq bilmirəm, amma Türkiyə türkləri demiş, söz sözdür.*

*28 mayda Azərbaycanın İstiqlal günündə prezident İlham Əliyev Yeni Ağdamın təməlini qoydu. 15 iyun Qurtuluş günündə də cənab İlham Əliyev sayın Ərdoğanla Şuşada bir daha həm qardaşlığın, həm də yeni Şuşanın təməlini qoyacaq.*

*Tanrı Türkü qorusun!*

*Tanrı İlham Əliyevi qorusun!*

*Tanrı Rəcəb Tayyib Ərdoğanı qorusun!*

# BNA və yol polisi AVRO-2020 ilə bağlı vətəndaşlara müraciət etdi

**Bakı Nəqliyyat Agentliyi (BNA) və Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi AVRO-2020 Futbol üzrə Avropa Çempionatının Bakıda keçiriləcək oyunları ilə bağlı vətəndaşlara müraciət edib.**




Adalet.az-a daxil olan birgə məlumatda qeyd edilir ki, artıq iki həftəyə yaxındır ki, Bakı şəhəri müxtəlif idman növləri üzrə mötəbər beynəlxalq yarışlara yüksək səviyyədə ev sahibliyi etməkdədir: "4-6 iyun tarixlərində Formula 1 üzrə Azərbaycan Qran Prisi mükəmməl evsahibliyi ilə reallaşdı. İyunun 12-si tarixində ilk dəfə Azərbaycanda futbol üzrə Avropa çempionatının final mərhələsinin ilk oyunu keçirildi.

Yüksək səviyyəli təşkilatçılıqla yanaşı mötəbər idman tədbirlərinin uğurla keçirilməsində hərəkət iştirakçılarının da nümayiş etdirdiyi anlayışın əhəmiyyətini vurğulayaraq bir daha onlara verdikləri dəstəyə görə təşəkkür edirik.

Vətəndaşlarımız müəyyən edilən qaydalara və tövsiyələrə riayət etməklə oyunların, xüsusilə də nəqliyyat tədbirlərinin yüksək səviyyədə reallaşmasına əvvəzsiz dəstək olublar". Məlumatda qeyd edilir ki, hərəkət iştirakçılarının AVRO-2020 Futbol üzrə Avropa çempionatının 16, 20 iyun və 3 iyul tarixlərində Bakıda keçiriləcək oyunları zamanı da eyni səmimiyyət və anlayış nümayiş etdirəcəklərinə inamımız sonsuzdur: "Xüsusilə, 16 iyun tarixində Türkiyə-Uels Milli Komandalarının oyunu ilə əlaqədar hərəkət iştirakçılarından müəyyən edilən qaydalara və tövsiyələrə əməl etmələrini xahiş edirik. Qardaş ölkə təmsilçilərinin oyununa marağın böyük olacağını və həmin gün şəhərdə yüksək səviyyəli tədbirlərin keçiriləcəyini nəzərə alaraq hərəkət iştirakçılarını yol hərəkəti qaydalarına ciddi riayət etməyə və yollarda həmrəy olmağa dəvət edirik. Xahiş edirik ki, ciddi zərurət olmadığı halda şəxsi nəqliyyat vasitəsindən istifadə etməyin. Bu, yollarda nəqliyyat vasitələrinin, xüsusən də müntəzəm və ekspres xətlər üzrə avtobusların maneəsiz hərəkəti, lüzumsuz sıxlıqların yaranmaması üçün vacibdir. Həmçinin, avtomobilləri dayanma-durmanın qadag?an edildiyi yerlərdə, o cümlədən avtobus dayanacaqlarının ərazisində və avtobus zolaqlarında park etməyin. Rahat və fasiləsiz hərəkətə maneə yaradan avtomobillər qanunla müəyyən edilən qaydada təxliyyə olunacaq.

Məlumat üçün bildiririk ki, biletli azarkeşlərin daşınması mövcud nəqliyyat planına əsasən ekspres marşturlarla icra ediləcək".

# "ABŞ Tiflis vasitəsilə Rusiyanı Qafqazdan çıxarır"

**Gürcüstanın iştirakıyla 15 erməni əsirin Ağdam rayonundakı minalı ərazilərin xəritələri ilə mübadiləsi şahidlik edir ki, Tiflis Qafqazdakı tarixi rolunu özünə qaytarır, Rusiya isə alternativsiz vasitəçilik statusunu itirir.**

Bu iddia ilə Gürcüstanın "Rezonansi" qəzeti çıxış edib.

"Misilsiz fakt baş verib. Bunun nəticəsində ABŞ-ın və Qərbin regionda rolu artır. Azərbaycanla Ermənistan arasında indiyə qədər yeganə vasitəçi Rusiya idi", - deyə məqalədə yer alıb. Qəzetə açıqlamasında Gürcüstanın konfliktlərin nizamlanması üzrə keçmiş dövlət naziri Paata Zakareişvili baş verən hadisəni fövqəladə vacib məqam adlandırıb: "Oyuna ABŞ daxil olur. Allaha şükür ki, Gürcüstan Rusiya ilə yox, onlarla yan-yanadır. Rusiya ölkədəki seçkidən sonra (Baydenin seçilməsi nəzərdə tutulur - red.) ABŞ-ın bizim regiona daxil olduğunu görür. Kombinasiya ABŞ tərəfindən parlaq şəkildə həyata keçirildi".



**MEHRİBAN**

# Yaralı bayraq



**44 günlük Vətən müharibəsinin qazisi Fikrət Əzimov Ağcabədi rayonunun Qaradolaq kəndindən olan, Birinci Qarabağ müharibəsi zamanı qəhrəmancasına şəhid olmuş Hamlet Məmmədovun anası Təranə Mamedovaya vaxtı ilə onun oğlunun vuruşduğu yerdə düşmən gülləsi ilə yaralanmış Azərbaycan bayrağını hədiyyə edib.**

Şəhid anası Təranə Mamedova öz növbəsində, bu üç rəngli bayrağı çalışdığı, şəhid Hamlet Məmmədovun adını daşıyan Qaradolaq kənd tam orta məktəbinə bağışlayıb...

**Adil Misirli**

## *Lukaşenko: Dünya dəli olub, savaşa hazır olun!*



**Belarus sakinləri atıcı silahlarla davranış bacarıqlarına sahib olmalıdırlar.**

**Bunu Belarus Prezidenti Aleksandr Lukaşenko hərbi-sənaye kompleksi müəssisələrini ziyarət edən zaman deyib.**

**"Kim bizim savaşmayacağımıza zəmanət verə bilər? Nə sən, nə mən - heç kim zəmanət verə bilməz. Dünya, ümumiyyətlə, dəli olub.**

**Müharibə istənilən an, istənilən nöqtədə ortaya çıxa bilər", - deyə o bildirib.**

**MEHRİBAN**

Aqil ABBAS

# UCA ADAM: RƏCƏB TAYYİB ƏRDOĞAN

*26 fevral qardaş ölkənin cümhurbaşkanı sayın Rəcəb Tayyib Ərdoğanın doğum günüdür. Söylədiyi bir şeirə görə həbs olunan gündən sayın Ərdoğanı izləyirəm. Həbs olunanda da bir ziyalı kimi qəzetimizdə etirazımı bildirmişdim. Tanrı bu insandan heç nə əsirgəməyib - qeyri-adi natiqlik qabiliyyəti var, müdrik siyasətçidi, ədəbiyyatı, tarixi gözəl bilir, özü də təkcə Türkiyənin tarixini və ədəbiyyatını deyil, bütün türk xalqlarının tarixini və ədəbiyyatını bilir. Və qarşısına bir məqsəd qoyubsa, sonadək mübarizə aparmağı bacarır və Tanrı da həmişə ona yardımçı olur. Təkcə Türkiyə türkləri arasında deyil və bütün türk xalqlarının arasında böyük nüfuz qazanıb. Cəsarətlidir. "Dünya beşdən böyükdür" - deyən bu qətiyyətli şəxs Türkiyəni sındırmaq istəyən, Türkiyəyə tələ qurmaq istəyən dünyanın özündən deyən böyük dövlətlərini və həmin dövlətlərin başçılarını hakimiyyətə gəldiyi gündən yerində oturtmağı bacarıb.*



*Möhtərəm prezidentimiz İlham Əliyevin dəmir yumruğu kimi, Onun da dəmir yumruğu var.*

*Türkiyə qüdrətli dövlətdir, amma açığını desək, sayın Ərdoğan hakimiyyətə gələnədək dünyada o qədər də söz sahibi deyildi. Və bu gün dünya Türkiyə ilə hesablaşmaq zorundadı. Orta Şərqdə, hətta Avropada Türkiyəsiz hansısa bir məsələni həll etmək mümkün deyil.*

*Bunu biz Suriyada da görürük, İraqda da, Liviyada da, Fələstində də, Kosovada da, əlacsız Afrika ölkələrinə dayaqda da.*

*Böyük ürək sahibidir və çox humanistdir. Hər dövlətin qüdrəti deyil ki, 4 milyondan çox Suriya qaçqınını bağrına bassın. Və görün neçə ildir ki, bu qaçqınlara Türkiyə təmənnasız yardım edir, heç də onları öz vətəndaşlarından ayırmır.*

*Atatürkün məşhur bir fikri: "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", sayın Ərdoğan hakimiyyətə gələndən bu vəsiyyəti özünün ən ümdə vəzifəsi hesab edib. Türkiyə həmişə Azərbaycanın yanında olub. İkinci Qarabağ müharibəsində bunu bir daha sübut etdi və deyək ki, Azərbaycanın yanında olmaqla dünyaya meydan oxudu.*

*Tale elə gətirib ki, sayın Ərdoğanla görüşmək, belə demək mümkünsə, dərdləşmək mənə də qismət olub. Hələ mənə bir gözəl qalstuk da bağışlayıb. Heyfim gəlir, taxmıram, başqa hədiyyələr kimi qoruyub saxlayıram.*

*Əskişəhərdə Türk dünyası yazarlarının qurultayı keçirilirdi. Həm keçmiş SSRİ-dəki türk respublikalarından, bügünki Rusiya Federasiyasındakı Tatarıstanın, Başqurdustanın, hətta Sibirdə yaşayan türk xalqlarının, İranın, Kiprin, İraqın və s. yazarları bu qurultayda iştirak edirdilər. Onu da deyim ki, qurultay iştirakçıları böyük bir sevgi ilə Anar müəllimi yenidən Türk Yazarlar Birliyinin sədri seçdilər. Qurultaya Avrasiya Yazarlar Birliyinin genel başkanı Yaqub Öməroğlu sədrlik edirdi.*

*Qurultayın sonunda Yaqub bəy bildirdi ki, Baş bakan Rəcəb Tayyib Ərdoğan (cümhur başkanlığı seçkiləri ərəfəsi idi) hər ölkədən gələn bir nəfər yazarı görüşə dəvət edib. Onu da qeyd edim ki, hər ölkədən 10-15 nəfər, bəzisindən hətta 20 nəfər qurultayda iştirak edirdi.*

*Biz də gərək ki 6 nəfərlə təmsil olunurduq. Təbii ki, görüşə Anar müəllim gedəcəkdi.*

*Amma axşamüstü Yaqub bəy bildirdi ki, Baş bakanlıq Anar müəllimdən başqa sizi də, xanımınızı da görüşə dəvət edir. Hər ölkədən bir nəfər getsə də, Azərbaycandan biz üç nəfər İstanbula görüşə getdik. Görüş boyu Yaqub bəy Tatarıstandan, Başqurdustandan, Özbəkistandan, Qazaxıstandan, Qırğızıstandan, Sibirdən gələn yazarları sayın Ərdoğan üçün tərcümə edirdi.*

*Anar müəllimə söz verildi. Onu da deyim ki, görüş boyu diqqəti Azərbaycandan gələn nümayəndələrdə idi. Anar müəllim Türkiyə və Azərbaycan, eləcə də türkdilli ölkələrin mədəni və hətta siyasi əlaqələrinin daha necə genişləndirilməsi, gücləndirilməsi ilə bağlı fikirlərini söylədi. Sonra söz mənə verildi. Mən də təbii ki, Türkiyə və Azərbaycanın mədəni əlaqələrinə toxundum və xahişim də o oldu ki, "Dünya ədəbiyyatı" seriyası olduğu kimi, türk xalqlarının da yazarlarının belə bir seriyası çap edilsə, özü də bütün xalqların öz türkcəsində, Türk dünyasına böyük bir hədiyyə olar.*

*Xanımı həmişə söhbətlərində sayın Ərdoğanı "Uca Adam" adlandırır.*

*Dedim:*

*- Sayın Ərdoğan, xanımınızın dediyi kimi, siz doğrudan da Uca Adamsınız.*

*Gülümsədi və dedi:*

*- Qardaşım İlham Əliyev də Uca Adamdı.*

*Daha sonra belə söylədim:*

*- Cümhur başkanlığı seçimidir. Mən təəssüf edirəm ki, seçkilərdə oy vermək imkanım yoxdur. Özüm Türkeşçi olsam da, oy vermək səlahiyyətim olsa məmnuniyyətlə oyumu sizə verərdim.*

*- Nədən?*

*- Çünki bu gün sizi Türkiyədə əvəz edə biləcək bir siyasətçi, bir lider görmürəm.*

*Və daha sonra türkcə çap olunmuş "Dolu" romanımı və "Dolu" filminin diskini sayın Ərdoğana təqdim elədim. O da mənə təşəkkür elədi, bir qalstuk bağışladı, xanımıma da bir kəlağayı.*

*Və təbii ki, biz tərcüməçisiz danışırdıq və bir-birimizi də çox gözəl anlayırdıq.*

*26 fevral sayın Rəcəb Tayyib Ərdoğanın doğum günüdür. Onu bu gözəl gün münasibətilə ürəkdən təbrik edirəm. Təkcə onu yox, həm də Türkiyə türklərini də - Tanrının onlara belə bir lider göndərdiyinə görə ürəkdən təbrik edirəm. Elə bizim xalqımızı da təbrik edirəm ki, belə bir QARDAŞIMIZ var.*

*Tanrı Möhtərəm Prezidentimiz İlham Əliyevlə Sayın Rəcəb Tayyib Ərdoğanın qardaşlığını yaman gözdən, nəzərdən qorusun.*

*Tanrı Türkü qorusun!*

*26 fevral 2021*

İradə TUNCAY

# SEÇİLMİŞ

**Əslində bizim hamımızın dəqiq bildiyimiz bir həqiqət var ki, nə qədər öyrənməyə çalışsaq da, elmi ixtiralardan bəhrələnsək də, Aya uçsaq da, okeanların dibinə enməyə cəhd eləsək də, biz həyatın yaranması, insan övladının bu günə qədər keçdiyi yol, dünyanın sirləri haqqında dəqiq heç nə bilmirik. Nə qədər oxusaq da, axtardığımız çox suallara cavab tapa bilmirik. Din kitabları bir söz deyir, elm kitabları başqa söz, nəyə inanacağımızı müəyyən eləmək çətindir. Elmi nəzəriyyələrəmi, dini ehkamlaramı? Öz adımdan danışım - yaşım artdıqca cavab tapa bilmədiyim sualların sayı artır. Amma din kitablarında inandığım bir fikir var - "Elə hikmətlər var ki, onların dalınca getməyin, çünki sirri Xudadır".**

***

Yəqin elə buna görə də izah eləmək olmur. Allah hamını bərabər yaradıbsa niyə irqlərə, millətlərə ayırıb? Niyə bu irqlərin bəziləri elə yarandığı ilk dövrlərin bəsitliyi ilə bu gün də mövcudluğunu davam etdirir? Niyə digərləri kosmosdakı evlərinin illüminatorundan Afrika cəngəlliklərindəki insan övladlarının tonqalətrafı rəqslərinə tamaşa edir? Onların insan olduğuna kimsə şübhə eləmir. Amma yuxarıda onlara baxanlar da insandır. Niyə belə fərqlənirlər?

***

Mən həmişə böyük hərb tarixi, böyük dövlətçilik tarixi olan millətlərə, xalqlara qibtə hissi ilə baxmışam. Yəqin bu da Tanrının sirlərindən biridir ki, dünyanı silkələyən türk boylarının bir qolu olsaq da, nə dövlətimiz olub, nə də ordumuz. Təbii ki, mən ayrı-ayrı qalaların içinə sığınıb bir-birini qıran balaca xanlarımızı da, onların dəstələrini də nə dövlət, nə də ordu təsnifatına aid eləyə bilmirəm. Bu balaca dəstələr və balaca xanlar qoşun-ləşkər çəkib ancaq bir-birini qırmaqla, bir-birinin qanını içməklə məşğul idilər. Etiraf eləmək lazımdır ki, bizim heç zaman böyük imperiya tariximiz olmayıb, Atilla, Çingiz xan, Əmir Teymur, Sultan Süleymanımız olmayıb.

***

20-ci əsr öz böyük təbəddülatları ilə bizi də yerimizdən tərpətdi. Biz də millət olaraq bu böyük dünyanın içində öz yerimiz haqqında düşünməyə başladıq. Ən azından düşünməyə başladıq. Düşüncə tarixinin yaranması başqa tarixlərin də yaranmasına təkan verdi. Və 1918-ci ildə cümhuriyyətin elan olunması azacıq da olsa bu millətin içində ruh oyanışının başlanğıcı idi. Daim əsarət altında yaşayan millət azadlığın, öz torpağının ağası olmaq duyğusunun dadına baxmaq istədi. O vaxt bu alınmadı. Səbəblər çox idi, sadalamaq istəmirəm. Dövlətin, bayrağın nə olduğunu bilməyənlər birdən-birə anlamadığı qavramlardan irəli gələcək qanunları da həzm eləyə bilməyəcəkdi. Vaxt o vaxt deyildi.

***

Sonra yenə sarısaç, göygöz hakimlər gəldi və onlarla bərabər yeni ədalar, yeni hökmlər gəldi. Yalnız və yalnız 30-cu ildən sonra Azərbaycan adlanan bu kiçicik məmləkətin başında bu xalqla öz dilində danışa bilən, xalqın nə ilə nəfəs aldığını anlaya bilən bir şəxs - Mircəfər Bağırov durmağa başladı. Ziddiyyətli, mürəkkəb, ancaq yenə də özümüzdən olan birisi. Hər bir şəxsə zamanın və məkanın rakursundan qiymət vermək lazımdır. Tarixin bütün rəngləri ilə. 20 il Azərbaycana hakimlik eləmiş bu şəxsə münasibət birmənalı deyil. Mən çox adamlar tanıyırdım ki, onu fanatikcəsinə sevirdilər. Ancaq ona nifrət edənlər də var idi. İnsanlar öz yaşadıqları dövrə bənzəyirlər. Kimisə dəyərləndirəndə bunları nəzərə almaq lazımdır. Ancaq bu bir həqiqətdir ki, uzun müddət hakimiyyətdə qalmaq üçün insanın böyük bacarıq və qabiliyyəti olmalıdır. Yeri gələndə zalımlıq da eləməlidi, hökmünü də yeritməlidi, rəhmdillik, adillik də etməlidi. Hakimiyyət budur.



***

Bizim yeni, yaxın tariximizin qısa fasilə ilə ən uzunmüddətli hakimiyyəti Onun əlində olmuşdu - Heydər Əliyevin. Təbii ki, haqqında bu qədər təriflər deyilmiş, - içində səmimisi və umacaqlısı olmaqla, bir şəxs haqqında nəsə bir söz demək çətindir. Cəhd eləyək.

***

Sadə, orta hallı bir ailənin övladı olub əyalət şəhərciyindən böyük Kremlə, siyasi olimpə yüksələn bir yol keçmişdi. Əslində O, bir az da sovet hakimiyyətinin övladı idi. Çünki o dövrdə fəhlə oğlunun müxtəlif vəzifə pillələri ilə qalxması mümkün sayılırdı. Sadəcə ZƏKA, BACARIQ və QABİLİYYƏT olmaq şərti ilə. Əsas məsələ də elə bu idi. ZƏKA! Onu hamıdan fərqləndirən. Düzdür, xarici görkəmi də hər kəsə bənzəmirdi. Hər zaman hər yerdə diqqəti öz üstünə çəkməyi bacaran bu hündürboy, alagöz yaraşıqlı oğlanın içindəki istedadlardan biri də bu idi. Və bu istedad Ona dövlətçiliyi olmayan bir xalqın bəlkə min ildir içində qalmış arzularını reallaşdırmaq imkanı yaratdı. İndi kənardan baxıb çox hadisələrə fərqli şərh vermək olar. Ancaq etiraf eləməyi də bacarmaq lazımdır ki, hər zaman zamanın gedişini dəyişməyi, hadisələri idarə etməyi, yönəltməyi yalnız və yalnız O bacarırdı. Ona görə də az vaxt ərzində 2 dəfə ölkənin birinci şəxsi olmağı bacarmışdı. Birinci olmaq hər oğulun hünəri deyil. Biz bunu yaxın tariximizdə yaşadıq. Balaca bir ailəni doğru-düzgün idarə eləmək çətin olur. O ki ola Azərbaycan kimi qarışıq, mürəkkəb və təzadlı məmləkəti idarə eləmək. Bura qəribə bir yerdi. Burada müxtəlif psixologiyalar toqquşur. Əsarətin yaratdığı hiylə, məkr, qul düşüncəsi türk etnosunun qan yaddaşı ilə gələn iddialarla üz-üzə gəlir. Çətinə düşəndə təzim eləyənlər, ikiqat olmağı bacaranlar bir az artıran kimi padşahlıq umusunda olurlar. Bütün bu adamların ipini yığıb hər kəsə yerini göstərmək bacarığını da Allah hər kəsə vermir. Zahiri parıltılarıyla bərabər hakimiyyət həm də ağır bir yükdür. Bu yükü daşımağı da hər kəs bacarmır. Milyonların həyatının məsuliyyəti, bu məsuliyyətdən irəli gələn vəzifələri də icra eləməyi hər kəs bacarmır.

***

Mən dedim ki, biz bir çox böyük xalqlardan fərqli olaraq dövlət, dövlət atributlarından məhrum olmuşuq. Hökmdarlar da dövlətin rəmzidir. Başqa xalqların 300-500 il əvvəl qışqırdıqları "Yaşasın kral!", "Padşahım, çox yaşa!" ifadələri bizə doğma olmayıb. Biz yadelli ağaların qarşısında əyilməyə məcbur olmuşuq. Ona görə də kimsəni qınamaq olmaz. Xalq içində qalan hissləri yönəldəcək şəxs axtarışındaydı və tapdı - HEYDƏR ƏLİYEV!

Mənə qalsa düşünürəm ki, Allahın tərifli yaratdığının heç bir əlavə mədhə ehtiyacı yoxdur. Və mən əminəm ki, Ona yaxınlaşıb şeir oxuyanların, fəxriyyə deyənlərin nə məqsəd daşıdığını O hər kəsdən yaxşı anlayırdı. O, adamların hər sifətini görmüşdü. Vəzifədən gedəndə bütün bunlar üçün şərait yaranmışdı. Hansı canlılar üçün, kimliyin yox, nəçiliyin önəmli olduğunu çox gözəl bilirdi, hər kəsin dilini də bilirdi, kimin nəylə sakitləşəcəyini də bilirdi. Bilirdi. Bilib susduğu hikmətlər də çox idi. Hakimlər də insan övladıdı - ətdən, qandan, sümükdən. Onların da öz dərdsəri, ağrıları olur - nə qədər gizlətməyə çalışsalar da. Hər kəs də öz şikayəti, harayı, fəryadı ilə onlara müraciət edir. Gör onların çəkəcəyi nə qədərdir. Hələ üstəlik bunları heç kimə demək mümkün deyilsə, ürəyini boşaltmağa adam tapmırsansa...

**Hakimiyyət çox ağır yükdür. Hər zaman şübhə içində dinlədiklərin haqqında düşünməlisən. Kim səmimi danışır, kimin söylədiklərinin arxasında nə durur. HÖKMDARLARIN ƏN BÖYÜK EHTİYACI SƏMİMİYYƏT VƏ SEVGİDİR, çünki yaltaqlar xorunun içində həqiqi sözü seçib ayırmaq da müşkül məsələdi. Mən bilmirəm O, gündəlik yazırdımı, xatirələrini kiməsə danışırdımı. Əgər yazıbsa, oxumaq istərdim. BİZDƏN QAT-QAT AĞILLI OLAN, NEÇƏ BAŞ YUXARIDA DURAN, UZUN VƏ KEŞMƏKEŞLİ YOL KEÇMİŞ BU AĞSAQQALIN ADİ İNSAN QAYĞILARINI, AĞRILARINI ÖYRƏNMƏK İSTƏRDİM. Sonuncu müsahibələrindən birində jurnalistə "siyasətdən yox, sevgidən, məhəbbətdən danışaq" deyən siyasətçinin içində apardıqları nə idi? Hamının gözünün içinə baxıb qəlbinin dərinliklərinə nüfuz edə bilən bu şəxsin öz qəlbindəki duyğular nə idi? Və hər zaman düşündüyüm bir sual da var - niyə bir xalqın, bir millətin, bir tayfanın, hətta bir ailənin içində də bir fərd digərlərindən tamamilə fərqlənir, seçilir? Və seçilmiş olmaq asandırmı? Və bu fərqlənmənin bədəli nədir?**

**Yazarın arxivindən**

# Davamlı sülh ümumibəşəri sosial-siyasi dəyərdi

## Birgə yaşayışın əsas üsulu əməkdaşlıqdır



**Kərim Novruzov**
**Ağdam rayon 95 saylı köçkün tam orta məktəbin tarix müəllimi**

**İkinci Qarabağ müharibəsi başa çatdı. Azərbaycan Ordusu Ermənistanın işğalçı qüvvələrini öz torpaqlarından çıxartdı. İndi başlıca suallardan biri budur ki, Azərbaycan və erməni icması Qarabağa qayıdıb birgə yaşaya biləcəkmi?Bunun üçün, ilk növbədə, ermənilərin yerli mülki azərbaycanlılara Birinci və İkinci Qarabağ müharibələri zamanı davranışına diqqət edək.**

Həmin şəraitdə ermənilər qonşuları olmuş yerli azərbaycanlılarla birgə yaşamaq üçün körpü saxlayıbmı?Ancaq I və II Qarabağ müharibələrində Azərbaycan hərbçiləri dinc erməni sakinlərə qəsdən xəsarət yetirməyib, mülki obyektləri və yaşayış yerlərini hədəfə almadığını dəfələrlə bəyan edib. Baxmayaraq ki, ermənilər hərbi texnikanı dinc erməni sakinlərinin yaşadığı yerlərdə yerləşdirməklə onları hədəfə çevirmişdilər.Azərbaycan döyüş bölgəsindəki dinc erməni sakinlərinin ərazini tərk etməsi üçün humanitar dəhlizi açıq saxladı. Ümumiyyətlə, Azərbaycan Ordusunun bölgədən qaçanlara hər an zərbə endirmək, onları PUA-larla vurmaq imkanı olsa da, bunu etməyib. Azərbaycanın bu cür humanist davranışı ermənilərin bölgəni rahat şəkildə tərk etməsinə yardım edib.Deməli, azərbaycanlılar ermənilərlə dinc yanaşı yaşamaq üçün körpüləri yandırmayıb. Bu baxımdan Azərbaycan tərəfi ermənilərin yerli azərbaycanlılarla dinc yanaşı yaşaması üçün hər cür şəraiti yaradıb.

Prezidentimiz İlham Əliyev çıxışlarında dəfələrlə bildirib ki, Azərbaycan vətəndaşı olan dinc ermənilərin Qarabağda azərbaycanlılarla birgə yaşaması üçün heç bir problem yoxdur. Onlar da Azərbaycanın bərabərhüquqlu vətəndaşları ola bilərlər.

Bu isə onların hüquqlarının və təhlükəsizliklərinin qorunmasına ən yüksək səviyyədə təminatdır.Azərbaycan tərəfi öz erməni vətəndaşlarına birgə yanaşı yaşamaq üçün ən yüksək səviyyədə təminat verdiyi halda Ermənistan rəsmiləri bununla bağlı qarşıdurma yaradırlar.Beləliklə, Azərbaycan vətəndaşı olan dinc ermənilərin geri qayıtması üçün şərait yaradır. Ancaq əsas məsələlərdən biri də dinc, silahlı və qonşusu olan ermənidən ziyan görən azərbaycanlı birgə yaşayışı qəbul edəcəkmi? Axı həmin ermənilər qonşusu olan azərbaycanlının evini dağıdıb, yurdunu talayıb. Çox çətin məsələdir. Ancaq mümkünsüz deyil. Fransız, alman və ingilis də bir-birinə qonşudurlar. Tarixən onlar arasında çoxillik müharibələr olub. Ancaq sonda onlar bir yerdə Avropa İttifaqı kimi möhtəşəm beynəlxalq birliyi yaradıblar, dinc şəkildə yaşayırlar. Hazırda onları daha çox iqtisadi maraqlar birləşdirir. Keçmiş düşmənlikləri isə yalnız tarixdə qalıb və unudulmur. Ona görə ehtimal etmək olar ki, ermənilər Qafqazda, o cümlədən Azərbaycanda yaşamaq istəsə, gərək başqa xalqlara düşmən mövqeyindən çəkinsinlər. Törətdiyi soyqırımı cinayətlərindən də göründüyü kimi, ermənilərin qonşuları ilə birgə, dinc yaşamaqdan savayı çıxış yolu yoxdur. Əks halda bir zaman onları qorumaq üçün başqa bir dövlətin ordusu Azərbaycana, yaxud Cənub Qafqaza gəlməyə bilər.Bu gün Azərbaycan dünyada tolerantlığın və multikulturalizmin mərkəzlərindən biri sayılır. Azərbaycanda yaşayan xalqlar və müxtəlif dinlərin nümayəndələri arasında hər zaman sülh və qarşılıqlı anlaşma olmuşdur.İşğaldan azad edilən torpaqlarda yaşayan ermənilər artıq yaxşı həyat sürəcəklər. Azərbaycan bunun üçün hər cür şərait yaradacaq. Ermənistanın guya erməni əhalisinin Azərbaycan tərəfindən soyqırımına məruz qalacağı barədə iddiaları əsassız və yalandır. Elə olsa idi, bu gün Azərbaycanda minlərlə erməni sülh və əmin-amanlıq şəraitində yaşamazdı. Ermənistan hər zaman öz yalanlarını bu kimi iddialarla əsaslandırmağa çalışır. Ermənistanın artıq həqiqi imici ifşa olunub, dünya birliyi tərəfindən cinayətkar, uşaq qatili kimi tanınır. Bu gün Ermənistan əhalisinin 99%-ni ermənilər təşkil edir. Burada yaşayan digər xalqların və dinlərin nümayəndələri daim təzyiq altında saxlanılır. Ermənistanda azərbaycanlılara məxsus bütün abidələr, məscidlər, ziyarətgahlar, məzarlıqlar tamamilə dağıdılıb. Bu erməni vəhşiliyinin bariz nümunəsidir. Təəssüflər olsun ki, bu günə kimi heç kim Ermənistanı bu cinayət əməllərinə görə qınamayıb.Dünya birliyi ikili standartlara son qoymağı Ermənistanın bu cinayət əməllərindən çəkindirməlidir. Ermənistanın bu cinayətləri törətməsinin əsas səbəbi bu günə kimi cəzasız qalmasıdır. Əgər zamanında Ermənistana sanksiyalar tətbiq edilsəydi, Ermənistan bu qədər cinayət törətməzdi və uzun illər Azərbaycan torpaqları işğal altında qalmazdı".Azərbaycanda bütün dinlərə də münasibət eynidir. Məscidlər də, kilsələr də, sinaqoqlar da eyni şərtlərlə fəaliyyət göstərirlər. Təsadüfi deyil ki, bir neçə gün öncə Gəncəyə raket atılanda erməni əsilli azərbaycanlı yaralandı. Bunu bilə-bilə azərbaycanlılar Azərbaycan vətəndaşı olan həmin ermənini xilas edib təcili yardıma aparıblar, ona qarşı hər hansı nifrət hissi də göstərməyiblər. Bu gün də Azərbaycanda ermənilər yaşayırlar. Azərbaycan prezidenti də, dövlətimiz də, xalqımız da belə düşünür ki, erməni əsilli azərbaycanlılar, burada doğulanlar, təbii ki, Azərbaycana qarşı silah qaldırmayanlar (bu faktor da araşdırılmalıdır), döyüşməyənlər qanunlarımıza və Konstitusiyamıza əməl etməklə normal vətəndaş kimi yaşaya bilərlər. Biz burada hər hansı problem görmürük".

Tarixən belə olub, türklər imperiya dövründə belə getdikləri torpaqlarda kilsələri də qoruyublar, insanlara da təhlükəsiz yaşamaq üçün hər cür şərait yaradıblar. Ona görə də, bizim bu savaşı bütün dünya normal qarşılamalıdır. Erməni vətəndaşların necə davranacağı artıq gələcəyin işidir. Millətindən asılı olmayaraq Azərbaycan dövlətinə qarşı kimsə separatçı hərəkət edərsə, qanunları pozarsa, qanun qarşısında cavab verəcək. Azərbaycan Daxili İşlər Nazirliyi , Dövlət Təhlükəsilik Xidməti və başqa orqanlar hər kəs üzərində olduğu kimi, erməni əsilli azərbaycanlılar üzərində də nəzarəti aparacaqlar. Gələcəkdə kimsə qanuna əməl etməzsə, buna cavab verəcək. Ancaq bizim indi bu məsələni başqa şəkildə qoymağımız doğru olmazdı".

Ermənilərin "böyük Ermənistan" xəyalları olmasaydı, bu gün həmin o birgə yaşayış davam edəcəkdi. Bütün olanlara baxmayaraq, Azərbaycan dəfələrlə bəyan edib ki, ərazi bütövlüyümüz çərçivəsində Dağlıq Qarabağda ermənilərin yaşamağı mümkündür. Əgər istəyirlərsə, digər etnik qruplar kimi onlar da heç bir referendum keçirmədən Azərbaycanın tərkibində yaşaya bilərlər. Bundan başqa, məlumdur ki, bu gün Azərbaycanın müxtəlif şəhərlərində də ermənilər yaşamağa davam edir. Azərbaycan hər zaman tolerant, çoxmillətli və multikultural ölkə olaraq digər etnik qruplara qarşı dözümlü yanaşıb , eyni zamanda bu yoldan əsla dönməyi düşünmür.

**Birmənalı şəkildə bilməliyik ki, hal-hazırki lokal və beynəlxalq hərbi siyasi reallıq Azərbaycanın suverənliyi təmin olunmaqla onun bayrağı, onun qanunları ilə birgəyaşayışı qaçılmaz edir. " Dəmir Yumruq " siyasətinin çoxilliklərə hesablanmış strateji planlarını həyata keçirmək üçün müvəqqəti taktiki addımlar bizi məqsədimizə aparan yeganə yoldur!**



Orxan Aslan

## Azərbaycan tarixinin zəfər salnaməsi: "Qurtuluş"dan "Qələbə"yə gedən yol

**Sovet İttifaqı dağıldıqdan sonra bu birliyə daxil olan ölkələrin hər biri öz ayaqları üzərində dayanmağa çalışırdı. 1991-ci ilin oktyabrında Azərbaycan öz müstəqilliyini elan etdi. Dövrün ən çətin zamanlarında bu, millət, vətəndaş olaraq, vahidlik və müstəqillik yolundan atılmış böyük addımlardan biri idi.**

**Amma müstəqil olmağımıza mane olan hadisələr də cərəyan edirdi. Mənfur düşmən Ermənistanın gizli xisləti və işğalçılıq niyyəti güdən təcavüz planları yenicə müstəqil olan ölkədə vəziyyəti gərginləşdirmişdi.**

**Ölkə daxilində olan xaotik vəziyyət, hakimiyyətə qarşı olan itaətsizlik müstəqilliyi uçuruma doğru yuvarlayırdı. 1993-cü ilin iyunun 4-də Gəncədə polkovnik Surət Hüseynovun nəzarəti altında olan hərbi birləşmələr hakimiyyətin tələblərinə uyğun hərəkət etmir, verilən tapşırıq və əmrləri icra etməkdən boyun qaçırırdılar.**

**Bununla yanaşı, həmin hərbi birləşmələr Baş nazirin və Prezidentin istefasını tələb etməyə başladılar. Qiyamçı hərbi birləşmələr tələblərini artıraraq tək Gəncə şəhərində deyil, istəkləri ilə bağlı məsələlərdə Bakının da adını hallandırırdılar. Demək olar ki, hakimiyyət onlarla mübarizə apara bilmirdi. Vəziyyət nəzarətdən çıxmışdı.**

**Bu cür çətin və çıxılmaz bir vəziyyətdə qalan ölkəni ancaq müdrik hakimiyyət rəhbəri çıxara bilərdi. Bütün ümidləri üzülən xalqın bu cür taleyüklü bir sınağında xalqın səsinə səs verən müdrik insan, böyük siyasətçi Ulu Öndər Heydər Əliyev oldu. Həmin vaxt ulu öndər paytaxt Bakıya gələrək, ölkədə yaranan vəziyyətlə bağlı anti-böhran fəaliyyəti istiqamətində işlər görməyə başladı. Böyük siyasətçi, müdrik lider məhz həmin zamanlarda heç nədən çəkinmədən bütün baş verə biləcək hadisələri göz önünə alaraq, bir qrup ziyalı ilə Gəncə şəhərinə yola düşüb. Qiyamçıların olduğu yerə gedərək onlarla danışıq aparmaq və ölkəni vətəndaş müharibəsindən xilas etmək əsl liderlik xarakteri idi.**

**Heydər Əliyev bununla da xalqın arxasında olduğunu bir daha sübut etdi. Həmin zaman xalqın çoxsaylı istəyi, eləcə də Milli Məclis üzvlərinin xahişi ilə Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri vəzifəsinə seçilməsinə razılıq verdi. Bundan sonra Azərbaycan sanki ikinci dəfə müstəqil bir ölkə oldu. 15 iyun tarixi Azərbaycan Respublikasında yeni bir mərhələnin başlanğıcı hesab edilir.**

**Güclü mübarizə, əzm, iradə və dözümlülük naminə əldə edilmiş bu gün Azərbaycan tarixinin qurtuluş salnaməsi sayılır. Milli Məclisdə millət vəkilləri 15 iyun tarixinin təqvimə Azərbaycanın Qurtuluş günü kimi salınması təklifi ilə çıxış etdilər və Məclis bu təklifi bəyəndi. O vaxtdan ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Milli Qurtuluş günü kimi qeyd edilir. Bu tarixi hadisədən sonra - 15 iyun Azərbaycanın Milli Qurtuluş Günü oldu. Azərbaycan Respublikasının əlamətdar günlərindən biri olan Qurtuluş Günü 1997-ci ilin 15 iyunundan rəsmi olaraq bayram elan edilib. 1997-ci ildən qeyd olunan bayrama 1998-ci ildən dövlət statusu verilib.**

**Müdrik və uzaqgörən siyasətçi olan ümumilli lider Heydər Əliyev Ali Sovetin Sədri seçildikdən sonra demək olar ki, parlament idarəçiliyinə yeni nəfəs gəldi.**

**Milli Məclisdəki diskussiyalar əvvəlki kimi deyil daha sivil formada keçirilməyə başladı. Məclisin iclasları və digər tədbirlər televiziya ekranlarından birbaşa yayımlanmağa başladı. Bir sözlə, demokratik dəyərlər və idarəçilik sistemi yüksək səviyyəyə qaldırıldı. Hər il ölkədə rəsmi bayram kimi qeyd olunan - 15 İyun Qurtuluş Günü vətəndaş olaraq hamı üçün xüsusi bir əhəmiyyətə malikdir.**

**Azərbaycan xalqının ümummili lideri Heydər Əliyevin vəfatından sonra İlham Əliyev Prezident seçildi. 2003-cü ildən başlanan bu yol 17 ildən sonra aparılan siyasi kursun nəticəsi olaraq, qələbə ilə yekunlaşdı.**

**Bu illər ərzində Azərbaycan tək Qafqazda deyil, eləcə də dünya ölkələri arasında güclü dövlətə çevrildi. Bununla yanaşı, artıq Azərbaycan da bir neçə nüfuzlu beynəlxalq yarışlara ev sahibliyi etdi. İqtisadiyyatın möhkəmlənməsinə, dayanıqlı olmasına önəm verildi. İdxal edən ölkədən, ixrac edən ölkəyə çevrildi.**

**Respublikada baş verən dəyişiklik Bakı şəhərinin xarici görünüşünə də təsir etdi. Bütün bunlarla yanaşı müdafiə sahəsinə də çox diqqət yetirilirdi. Hər il bu sahəyə ayrılan vəsait daha da artırıldı. Ancaq bütün bu sürətli inkişafa baxmayaraq, ölkənin ürəyində açıq bir yara var idi. Bu Ermənistanın uzun illərdi işğal altında saxladığı - Qarabağ torpaqları idi.**

**Dövlət başçısı hər dəfə çıxışında bildirirdi ki, "Azərbaycan heç vaxt işğal faktı ilə barışmayacaq". Məhz belə də oldu. Prezident İlham Əliyevin bu illər ərzində əzmkarlığı, qətiyyəti və dönməzliyi, həmçinin müdafiə sahəsinə xüsusi diqqət ayırması 2020-ci ildə həyata keçirilən "Dəmir yumruq" əməliyyatında peşəkar şəkildə özünü nümayiş etdirdi. Haqq öz yerini tapdı. Azərbaycan torpaqlarını işğaldan azad etdi.**

**Ötən illərlə müqayisədə bu il Qurtuluş Günü daha fərqli və qələbə ruhlu keçirilir. Çünki Müzəffər Ali Baş Komandan İlham Əliyevin yürütdüyü siyasət və "Dəmir yumruq" əməliyyatı nəticəsində 30 ilə yaxın erməni faşizmi tərəfindən işğal altında saxlanılan Qarabağ torpaqları azad edildi. Qurtuluşdan başlanan 30 illik yol zəfər salnaməsi ilə davam etdi.**

**1991-ci ilin oktyabrında müstəqillik əldə edən Azərbaycan, 1993-cü ilin 15 iyununda ikinci dəfə müstəqillik zirvəsinə ucaldı. Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqına Qurtuluş gününü nəsib etdi, onun yolunu, apardığı uğurlu siyasəti müdrikliklə davam etdirən Müzəffər Ali Baş Komandan İlham Əliyev isə Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi.**

# Füzulidə "Son zəng"

## Horadiz şəhər 1 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Sədaqət İsmayılzadənin çıxışı çoxlarını kövrəltdi

**Bu il ümumtəhsil məktəblərini 84 mindən çox məzun bitirir. Yəni, orta məktəblə, müəllimlərlə vidalaşan 11-cilər bu qədərdir. Onların hansı hisslər, hansı duyğular, hansı yaşantılar keçirdiyi mənim üçün çox doğmadır. Ən azından ona görə ki, biz də məzun olmuşuq və biz də indiki 11-cilərin sevincini, kədərini düz 50 il bundan əvvəl yaşamışıq və düz 50 il bundan əvvəl Bəhməndəki orta məktəbdə və direktorumuz rəhmətlik Əvəz Əliyevin nəzarəti altında "Son zəng" keçirmişik. Hələ də elə bilirəm ki, kimsə gəlib məni ayağa qaldıracaq, sorğu-suala tutacaq və yaxşı cavab vermədiyimə görə Əvəz müəllim əsəbləşəcək. Hərçənd ki, heç vaxt nə direktorumuz rəhmətlik Əvəz müəllim, nə də digər müəllimlərimiz məndən narazı qalmayıblar. Əksinə bütün fənlərdən yaxşı oxuduğuma görə "5" yazıblar.**




Görün hardan gəlib hara çıxdım. Məktəb illərinin xatirəsi düz məni 50 il bundan əvvələ apardı, gözümün önündən 50 il bundan əvvəl mənə dərs demiş bütün müəllimlər keçdi və sinif yoldaşlarım yadıma düşdü.

Çox kövrək, çox kədərli, çox nisgilli anlardı... Və hər dəfə "Son zəng"də mən bu hissləri yaşayıram. Yenə yadıma sözləri Kəmalə Abıyevaya məxsus olan Lalə Məmmədovanın ifa etdiyi "Məktəb illəri" şeirindən bir parça düşür:

*Məktəb illəri*
*Ömrümün ən şirin duyğulu qayğısız günləri*
*Hər anı bir ömrə bərabər sehirli günləri*
*Ən təmiz arzulu günləri...*

...Nə qədər kövrək, nə qədər həyəcanlı anlar. Bu anları Füzuli rayonunun Horadiz şəhərindəki 1 nömrəli tam orta məktəbin məzunları da yaşayırlar. Ona görə ki, bu gün onlar 11 il oxuduqları məktəblə, müəllimlərlə vidalaşırlar. Bir vaxtlar bu məktəbə əməkdar müəllim, gözəl pedaqoq və böyük ziyalı Hafiz Tahirov direktorluq edib. Və bu məktəbdə çox gözəl nizam-intizam və yüksək sağlam mühit yaradıb. Amma o, 5-6 aydır ki, Allahın dərgahına qovuşub. Buna baxmayaraq, həmin məktəbdə onun qoyduğu ənənə və işıqlı yol davam etdirilir. Bütün müəllimlər çox həyəcanlı və narahat idi. Təkcə onlar həyəcanlı deyildi, həm də 11-cilər narahat idilər.

...Bir azdan məktəbin həyətində 11-cilər əllərində gül dəstəsi görünməyə başlayır... Bir azdan onlar daha da çoxalır və əllərində gətirdikləri qızılgül dəstəsinin ətri ətrafı öz gözəlliyinə qərq edir... Bir azdan 11-cilər hamısı yavaş-yavaş bir yerə toplaşır... Gözlərdə sevinc və kədər... Bəzilərinin dodaqları səyriyir... Və bu da çox təbiidir. Onların qəlbini, ürəyini duymaq o qədər də çətin deyil. 11-cilər "Son zəng"də kövrək çıxışlarla bir daha sinif yoldaşlarını və tədbirdə iştirak edənləri kövrəldirlər.

Məktəbin 11 a sinif şagirdi Sədaqət İsmayılzadənin kövrək notlar üzərində köklənmiş çıxışı tədbirdə iştirak edənləri kövrəldir. Təbii ki, Sədaqət İsmayılzadə 11 il bu məktəbdə oxuyub. İbtidai sinif müəllimlərini, ayrı-ayrı fənn müəllimlərini, onların çəkdiyi əziyyəti dilinə gətirərək kövrələ-kövrələ deyir: "Müəllimlərim, mən sizi valideynlərim qədər çox istəyirəm, çünki siz bizim hər birimizin üstündə yarpaq kimi əsmisiniz, bütün dəcəlliyimizə, şıltaqlığımıza dözmüsünüz və axırda da bizi gətirib bu mərtəbəyə çatdırmısınız. Biz göydə Allaha, yerdə valideynlərimizə və müəllimlərimizə minnətdarıq ki, əziyyətimizi çəkiblər. Və biz də çalışacağıq ki, onların zəhmətini, əziyyətini həyatda dəyərləndirək. Yaxşı təhsilimizlə, seçdiyimiz peşə və sənətlə bu vətənə, bu xalqa, bu millətə xidmət edəcəyik və ən nəhayət, sonda bu gözəl anları - "Son zəng"i bizə bəxş etdiyinə görə Təhsil naziri, hörmətli Emin Əmrullayevə öz minnətdarlığımı bildirirəm. Mənim sinif yoldaşlarım da bu sevincli anlara görə bir daha Təhsil nazirinə və digər qurumlara öz təşəkkürlərini bildirirlər"...

...Bir-birinin ardınca digər məzunlar da çıxış eləyirlər. Onların da çıxışları müəllimlərə və əziyyət çəkən digər ziyalılara minnətdarlıqla bağlı idi. Çıxış edən hər bir məzun bu xoş anlara görə özlərini xoşbəxt sayırdılar.

Füzuli rayonundakı 46 nömrəli tam orta məktəbdə də "Son zəng"ə hazırlıq çox yüksək səviyyədə görülmüşdü. Tədbirdə məktəbin müəllimləri və 11-cilər iştirak edirdilər. Onu da bildirək ki, ötən il bu məktəbi bitirmiş neçə-neçə məzun müxtəlfi ali məktəbin tələbəsi adını qazanıb. Bu il 11-cilərin Dövlət Tələbə Qəbulu Komissiyası tərəfindən keçirilmiş buraxılış imtahanında bir neçə şagird yüksək bal toplayıb. Tədbiri məktəbin direktoru Gülnaz Məmmədova açır və 11-ciləri salamlayır. O deyir ki, siz bu 11 ildə çox çətinliklərlə üzləşmisiniz. Çünki bizim məktəb Bakı şəhərində fəaliyyət göstərir. Çətin, elə də şəraiti olmayan bir yerdə təlim və tədrisi yüksək səviyyədə təşkil etmək o qədər də asan deyil. Şükürlər olsun ki, ötən ilin sentyabrın 27-dən noyabrın 10-a qədər torpaqlarımızın azadlığı uğrunda gedən İkinci Qarabağ Savaşında Füzuli rayonu da erməni işğalından tam azad olunub. Yəqin ki, növbəti illərdə bu "Son zəng"i biz doğma elimizdə, obamızda keçirə biləcəyik. Ancaq məni sevindirən odur ki, bizim məzunlar çətin şəraitdə də olsa, bütün elmi biliklərə və texnologiyaya yaxşı yiyələnib, müəllimlərimizin zəhmətini itirməyiblər. Eyni zamanda elə şagirdimiz var ki, biz onlara qəbul imtahanında çox böyük ümidlə baxırıq. Çünki onlar savadlıdılar və seçdikləri ixtisasa uyğun olaraq yüksək bal toplaya bilərlər.



Gülnaz Məmmədova və digər müəllimlər 11-cilərin çıxışını eşitdikcə daha da kövrəldilər. Amma onlara təsəlli verən odur ki, 46 nömrəli məktəb cəmiyyət və vətən üçün savadlı, tərbiyəli və vətənpərvər gənclər yetişdiriblər. Üstəlik də məktəbin hər bir müəllimi və məzunu Təhsil Nazirliyi tərəfindən yaradılmış bu "Son zəng" tədbirinə görə nazir Emin Əmrullayevə öz minnatdarlıqlarını bildirdilər.

Rayonun Böyük Bəhmənli kəndindəki Allahyar Əliyev adına tam orta məktəbdə də "Son zəng" çox böyük coşğu və sevinclə keçirilib. Bir faktı qeyd edək ki, bu məktəb rayonun nümunəvi təhsil ocaqlarından sayılır.

Çünki hər il həmin məktəbi bitirən çoxlu sayda məzun ali və orta ixtisas məktəblərinə daxil olurlar. Elə məzun var ki, 600-ə yaxın bal toplayıb. Bu isə o deməkdir ki, məktəbdə təlimin, tədrisin keyfiyyəti çox yüksəkdir. Məktəbin direktoru Həsən Rzayev çox tələbkar, tədrisin və təlimin səviyyəsini yüksəltməyə çalışan təcrübəli bir pedaqoqdur. Onu da qeyd edək ki, hər il məzunlarla bağlı "Son zəng" olanda burda qeyri-adi bir aura yaranır. Ən azından ona görə ki, bu məktəbin zəngin və müasir bir tarixi var. Bu tarix də onunla bağlıdır ki, hər bir şagird vətən üçün, millət üçün, dövlət üçün canından belə keçməyə hazırdır. Məktəbin bir neçə məzunu Azərbaycanın azadlığı, müstəqilliyi yolunda, eləcə də 1-ci və 2-ci Qarabağ savaşında şəhid olub və onların da xatirəsi həmişə pedaqoji kollektiv tərəfindən xatırlanır. O, abidənin önünə tər gül dəstələri, çiçəklər düzülür.

Həsən Rzayev "Son zəng"də çıxış edərək bir daha müəllimləri və 11-ciləri təbrik edir. Düzdü, onun çöhrəsində bir kədər də var. Amma bir müddətdən sonra o kədəri, o nisgili, sevinc hissləri, xoş duyğular əvəz edir. Həsən müəllim çıxışında bir daha məzunlarına inandıqlarını və onların etimadlarını doğruldacaqları fikrini səsləndirir. Deyir ki, buraxılış imtahanlarında yüksək bal toplayan məzunlarımız çoxdur. Ancaq biz inanırıq ki, qəbul imtahanında məzunlarımız daha yüksək bal yığaraq ən nüfüzlü ali təhsil ocaqlarının tələbəsi olacaqlar. Üstəlik də mən bir bəhmənli oğlu kimi öz məzunlarımla, öz şagirdlərimlə həmişə qürur duymuşam. Çünki onlar bizim çəkdiyimiz zəhməti, əməyi heç vaxt itirməyiblər. Həyatın sınaqlarından, bərkindən, boşundan çıxaraq yeni bir dünyaya qədəm qoyublar. Və sevinirəm ki, bizim savadlı, tərbiyəli, vətənpərvər məzunlarımız çoxdur.

**Bu da "Son zəng"... Bu da kövrək anlar, kövrək dəqiqələr və bu kövrək anlar, kövrək dəqiqələr birazdan çöhrələrdə sevinclə əvəzlənəcək... Və bir azdan o kədərli notları 11-cilərin gülüşləri, sevincləri dəyişəcək... O gülüşləri, o sevincləri ki, onlar bundan sonra da yaşayacaqlar. Həyatın dilini tapanları, çətin andan çıxanları, müəllimlərini unutmayanları dünya da çox istəyir. Və 11-cilər bu dünyanın astanasından və pəncərəsindən boylanıb onları gözləyən işıqlı yola doğru addımlayacaqlar. Yolunuz işıqlı, nurlu olsun 11-cilər!**

**Faiq QİSMƏTOĞLU**



Elyar İslamoğlu

## Sözün bitdiyi yer

**Şəhid olan hərbiçilərin yas mərasimi və ehsanı üçün yardım (ərzaq, qida, pul) ayrılıbmış. Hər bir şəhidin xidmət etdiyi hərbi hissəsinin komandanlığı tərəfindən yas mərasimi keçirilən zaman ailəyə göndərilməliymiş.**

**Kağız üzərində təhvilə qol çəkilsə də, dəfndən 8-9 ay müddət keçməsinə baxmayaraq bir çox şəhid ailələrinə ehsan üçün ayrılan həmin yardımlar çatdırılmayıb.**

**Şəhid ailələriylə kiçik bir sorğu apardım.**

**Ümumiyyətlə şəhid ailələrinin əksəriyyəti belə bir yardımın verilməsindən xəbərsizdir. Ona görə də həmin yardımların mənimsənilməsinə şərait yaranıb.**

**Əvvəllər Toğanada, indisə Kəlbəcərdə olan, fermer Xəqani Cəbrayılovun komandiri olduğu korpusun hərbi hissələrinin şəhidləri üçün ayrılan yardımlar isə "maşın çatışmazlığı" bəhanəsilə indiyədək göndərilməyibmiş.**

**Hərbi hissənin komandiri Taleh Şamilovun başı qarışdığından, zampalit Orxanın isə vaxtı olmadığından həmin hərbi hissənin də yardımları gecikdirilib.**

**Ən geci martda çatdırılmalı olan yardımdan xəbər tutan körpə uşaqlı şəhid ailələrinə isə "gəlin hərbi hissədən özünüz aparın, çatdırmağa maşınımız yoxdur" deyilib.**

## Doğum günün mübarək, şəhidim!

**Müharibə qurbansız olmur. Müharibədə Vətəni, Torpağı həyatdakı bütün varlıqlardan çox sevən müqəddəs sanan oğullar şəhid oldular. Vətənin qeyrətli, vətənpərvər, igid gəncləri sinələrini düşmən gülləsinə sipər etdilər. Şəhid oldular, torpağa qarışdılar. Vətən torpağı kiçilməsin, daha böyük olsun deyə. Onlar Vətən torpağına yeni rəng qatdılar. Boyadılar al qanlarına Ana torpağı. Vətən azad nəfəs alıb, rahat yaşasın deyə. Şəhidlər bu müqəddəs, əvəzolunmaz torpağı bizə əmanət etdilər. Bilirik ki, əmanətə xəyanət olmaz. Biz şəhid qanı ilə boyanmış, bu qandan yoğrulmuş torpağı bütün varlığımızla, göz bəbəyi kimi qoruyacağıq. Şəhid oğullarının ruhu inciməsin deyə...**






Şəhidliyin ölməz zirvəsinə ucalan, şəhadətin əlini sıxan iki şəhidimizin iyun ayının 12-də doğum günü idi. Şəhidlərsiz, Elsevərsiz, Sahilsiz ilk dəfə idi ki, onların doğmaları, yaxınları bu igid azərbaycan oğullarının doğum gününü qeyd edirdilər. Arazbar kəndində şəhid Elsevərin, Xocavənd kəndində Sahilin. Elsevər daşıdığı adın əsl təcəssümü idi. O, Vətənimizi, torpağımızı, obanı, eli çox sevirdi. Bu sevgi onu ölməzliyə apardı. Şəhid olan Elsevəri aramızdan qopardı...

Sahilin Vətən sevgisi sahilsiz idi. Onun Ana dediyimiz torpağa oğul sevgisi sahil nədir bilməzdi. Ancaq yaşadığımız ömrün sonu, sahili var. Sahilin ömrünün sahili əbədiyyətə qovuşduğu, şəhid olduğu gün oldu. O, gənc həyatını Vətən yolunda qurban verdi.

...Şəhidlərin doğum günündə Ağcabədi rayon İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Şöhrət Orucov, kənd sakinləri, şəhidlərin yaxınları, müəllimlər, yerli icra və bələdiyyə nümayəndələri, media mənsubları iştirak ediblər. Mərasim iştirakçıları şəhidlərin xatirələrini bir dəqiqəlik sükutla yad etmiş, keçdikləri qısa və şərəfli döyüş yolundan danışmışlar. Sonra torpaq uğrunda canlarını fəda edən şəhidlərin məzarları ziyarət olunmuş, üzərinə tər gül dəstələri düzülmüşdür.

**Adil Misirli**

Səxavət Məmməd



## Bəzi məsələlərə dar çərçivədən baxırıq

**Saxlanılan 15 erməni təhvil verilib. Çox maraqlıdır ki, p*rosesdə Rusiya iştirak etməyib. Vasitəçi, üçtərəfli bəyanata qarant olan ölkə, ofsaytda qalıb. Rusiya saxlanılan erməniləri diqtə ilə almaq istəyirdi. Rüstəm Muradovun təyyarəsi geri boş qayıtmışdı. Hətta hava limanında erməni KİV-ləri və saxlanılanların yaxınları Rüstəm Muradovu əli dolu gözləyirdi.***

***Hətta bir neçə ay öncə, saxlanılan ermənilərin seçkiyə az müddət qalmış, geri veriləcəyini yazmışdım. Çünki Azərbaycan tərəfinin maraqlarına nə qədər məzələnsək də, lağ obyektinə çevirsək də, Paşinyan tam uyğundur. Minalanmış ərazilərin xəritəsini boş verin. Onsuzda xəritə olsa belə, hər yer axtarılmalıdır. Əsas məsələ Azərbaycanın kimə "stavka" etməsidir. Saxlanılanların bir hissəsinin geri qaytarılması sıradan bir şey deyil. Bir də ona, ermənilərin gözü ilə baxaq.***

***Bəzi məsələlərə dar çərçivədən baxırıq. Əslində baş verənlər, qlobal layihənin kiçik ancaq kilid parçasıdır. Bununla bağlı bir araşdırma yazıram, beynimdəkinin böyük hissəsini bitirmişəm. Yaxın günlərdə yayımlanacaq.***

***Ağdamdakı minaların sayına görə deyilər ki, ona görə ordan hücum olmayıb. Yalan və məntiqsizdir.***

***Hücuma sep şəklində keçmirlər. Öncə keçid açılır, ardınca hərəkət başlayır. Ən əsası Ağdamdan hücum edəcək şəxsdə ağıldan başqa hər şey axtarın.***

***Bir də, Ağdamın hər yerində mina var? Bir neçə min hektar əkilib, yüz hektarlarla bağlar var. Hamısı qarış-qarış gəzilib.***

***Bu hadisədə mənə görə ən önəmli məsələ Rusiyasız çözümdür. Rusiya ABŞ-ın bu gedişinə qarşı ən azı bir dəfə elə şərait yaradacaq ki, erməni silahlıları ya döyüləcək, ya da daha ağır bir zərbə alacaq.***

**...Bəs niyə Günəşi?..**

**...Düzü, çox fikirləşirdim ki, bu yazının adı necə olsun?..**

**Fikirləşirəm, qəlbim dolur...**

**ŞUŞANIN elə tək adıca bəsdir: hər yerdən uca, hər yerdən gözəl.**

**Və əzəmətli!..**

**Yolu-rizi, dərəsi-təpəsi, kolu-kosu, gülü-çiçəyi, havası, otu...**

**Bəs niyə təkcə Günəşi?..**

**Amma Günəşi bir başqa aləm idi...**

**Allah haqqı, Günəşi hər yerdən və hər şeydən uca, işıqlı və iliq idi.**

**Günəşə yaxın Şuşanın al şəfəqləri - isti, duru idi...**

**Sanki Tanrının və bu Yer üzünün Günəşi hamıdan, hər şeydən çox sevinirdi və bizə də bu sevinc nurundan, bax beləcə pay göndərirdi.**

**Salam, Günəşimin Şuşası!..**

**Salam, Şuşamın günəşi!..**






**İmamverdi İSMAYILOV,**
*Milli Məclisin deputatı, yazıçı-publisist*

# ŞUŞANIN GÜNƏŞİ

...Avtobus qafiləmiz yola düzəlir və pəncərədən görünən doğma Vətən mənzərələrini bağrıma basaraq, indiyə qədər getdiyim bütün yolları xatırlamağa çalışıram.

Həyatımın ən unudulmaz səfərlərini yaddaşımın saxlancından çıxarıb, mirvari dənələri kimi bir-bir gözlərimin önündən sıralayıram, amma hiss edirəm ki, indiyə qədər ömrümə yazılmış bütün yollardan, həyəcan, maraq və xoş təəssüratlar dolu güzarlardan heç biri bu qədər olmayacaq.

**Bu yol - müqəddəs ziyarətgaha aparan yoldur və ömrümün ən gözəl yoludur...**

*Kim bilir, bəlkə bu qədər ömrü elə bu yolu getməkdən ötrü yaşayırmışam...*

❖❖❖

**ŞUŞAya gedirik...**

*...Bir-birinin ardınca qarışqa səfi kimi düzülmüş mikroavtobuslar irəliləyir, özü ilə bərabər bizi də ulu dağların başına dolandırır.*

**Nə gözəl!..**

*Kimlər yoxdur? Tanınmış simalar: deputat həmkarlarım, ictimai-siyasi xadimlər... Yazıçılar, şairlər, bəstəkarlar... Televiziya kanallarının, qəzetlərin və saytların redaktorları... Böyük orkestrın ifaçıları... Xor, rəqs ansambılları, etnik milli ruhlu bədii-özfəaliyyət kollektivləri.*

**Şuşaya - mədəniyyətimizin paytaxtına gedirik!..**

**Söz və musiqi bayramına...**

**Qələbəlik və şadyanalıqla...**

*Bir anlıq özümü böyük arzu-niyyətlərlə müqəddəs məkanlara doğru yola çıxan və aylarla yol gedən zəvvarlardan biri kimi təsəvvür edirəm.*

**Əziz Şuşa!**

**Müqəddəs Şuşa!..**

**Xoş gördük!..**

İrəlilədiyimiz yolu narahat yuxularımın içindən keçib gəlirəm. Uzun illər yuxularımdakı ot basmış cığırların, kol-kosa bürünmüş yol-rizin düşüncələrimdən daş kimi asılmış qubarı da əriyib itir, yavaş-yavaş ruhumun necə dincəldiyini hiss edirəm.

Nisgilli yurdlarımızdan kənarda, bizi gözləyə-gözləyə həniri, qaraltısı itib-getmiş, görünməz olmuş ocaq yerlərimizdən uzaqlarda, gözlərindəki bulanıq həsrətlə birgə bəlkə bir gün o yerlərə aparmaq qismət olar ümidi ilə əmanət qəbirlərdə torpağa tapşırdığımız doğma insanları xatırlayıram.

**Şəhidlərimiz, qəhrəman övladlarımız...**

**Nakam getmiş yaşıdlarımız...**

**Bığ yeri tərləmədən canını tapşırmış, qanı ilə bu torpağı suvarmış nər oğullarımız...**

**Ruhunuz şad olsun!..**

Elə bilirəm ki, bu səfərdə onların ruhu da mənimlədir, o həsrətli baxışlar getdiyimiz bu yollara gözlərimlə baxır.

*Hər baxanda şadlanır, hər baxanda o həsrət azalır, nigaran ruhlar aram olub rahatlıq tapır, daxili dünyamdakı qarışıq düşüncələrin içindən şükranlıqlarını yetirir.*

**Bu an içimdəki ən böyük duyğu şükranlıq duyğusudur...**

Taleyimizə şükür edirəm.

**Ordumuza, torpaqlarımızı misilsiz qəhrəmanlıqla düşməndən təmizləmiş əsgər və zabitlərimizə şükranlıq hisslərimi çatdırıram, qanı ilə bu torpaqları daha da müqəddəsləşdirmiş şəhidlərimizin ruhu qarşısında baş əyirəm.**

*Bu müqəddəs savaşda canını fəda etmiş igidlərimizin ruhu şaddır.*

**Torpaqlarımızın azadlığı arzusu ilə Əbədiyyətə qovuşmuş Əbədiyaşar Heydər Əliyevin ruhu şaddır.**

*Bu düşüncələr, izahı mümkünsüz bu duyğular tariximizin dönüş nöqtəsidir, toplum olaraq həyatımızda yeni bir başlanğıcdır.*

**Bu tarixin canlı müəllifi Müzəffər Ali Baş Komandan İlham Əliyevdir!..**

**Əsrlərə sığmayan şanlı bir tarix yazmış Azərbaycan Prezidenti!**

***Qarabağın Xilaskarı!...***

*Bu yolun hər addımında duyduğumuz ruhun, sevginin, qürurun, şükranlıqların ünvanı - Böyük Dövlət Xadimi!..*

**“*Dəmir yumruğ*”un gücü ilə bizi bu günlərə yetirmiş *Sərkərdədir* bu tarixi yaradan, adını bu tarixə əbədi yazan - *İlham Əliyev!..***

*Onun əmrində düşməni bu torpaqlardan “iti qovan kimi qovmuş” qəhrəmanlarımızdır, Azərbaycan Prezidentinin illər boyu yetişdirdiyi vətənpərvər, qorxmaz, ürəyi bu torpaqlara sevgi dolu gənclikdir.*

❖❖❖

*Azad olunandan sonra bizim ilk dəfə gəldiyimiz Şuşaya Baş Sərkərdəmiz İlham Əliyev və Azərbaycan sevdalısı, dəyərli çiyindaşı Mehriban xanım artıq üçüncü səfərlərini edirdilər. Əvvəlki gəlişləri Şuşanın dirçəldilməsi, bərpası proseslərinin başlanmasına, uğurlu gedişinə və ilkin nəticələrinə rəvac vermişdi.*

**İlham Əliyev həm də ona görə xoşbəxtdir ki, tarixə öz mübarək ismini Şuşanın Xilaskarı olmaqla yanaşı, Şuşanın Qurucusu kimi həkk etdirdi!..**

Müzəffər Komandanın “Şuşaya doğru irəli!” əmrini yerinə yetirmək üçün bu ləyaqət qalasına, şərəf zirvəsinə doğru minlərlə ərənimiz dağlara dırmaşaraq, cığırlarında sürünərək, yüngül silahlarla yürümüşdü...

Özü də kimin qarşısına? Neçə ildir bu qocaman ucalıqların bəkarətini pozaraq, onun hər qarışını səngərə, lığıma, cəbhə məntəqəsinə çevirən və dünyanın ən böyük fövqəlgüclərinin müasir artilleriyası, ağır texnikası ilə silahlanan düşmənə qarşı...

Arxasında yaralı vətən, nakam arzular və Qeyrətli Komandan olduğunu bilən cəngavərlərimiz Şuşanı mənzil-mənzil, ev-ev, məhəllə-məhəllə azad etdi...

**Şuşanın hər qarışında Azərbaycan əsgərinin qanı var...**

**Uca Şuşamız bax bu qanlarla daha da müqəddəsləşdi!..**

*İlham Əliyev Şuşada qazandığı zəfərlə iki əsrlik münaqişəyə, 32 illik savaşa son qoydu.*

**İlham Əliyev indi də daha yeni Azərbaycanın abadlığına, daha işıqlı gələcəyimizin quruculuğuna məhz Şuşadan başlayır...**

*İlham Əliyevin Azərbaycanı daha böyük hədəflərə doğru Şuşadan istiqamət götürür...*

**Şuşa artıq Azərbaycanın yeni başlanğıc məqamıdır!..**

*Bax elə yolumuz da bu başlanğıca doru idi...*

❖❖❖

**Şuşaya gedirik...**

**“Xarıbülbül” festivalına!..**

*Nə gözəl...*

Dilimizin ən müqəddəs duası kimi, yaddaşımızda bir ömür boyu səslənən ömür nəğməmizin ən gözəl misrası kimi.

O anlarda Ana dilimizdə bu bir neçə kəlmədən gözəli varmı?!.

Bu sözlərin gözəlliyindən, sehrindən allısı-ballısı varmı?..

**Söz burdadır!..**

**Sevgi burdadır!..**

Bu sözlər və sevgilər Şuşa dağlarının başının üstündəcə - zərli günəşin şəfəqləri ilə nazlanır.

**Şuşaya gedirik...**

*Şuşaya - ruhumuzun şəhərinə, arzularımızın şəhərinə, mədəniyyət, ləyaqət paytaxtımıza!..*

*Böyük bir tikinti meydanı, quruculuq səngəri olan Şuşaya.*

Yol qırağında azad yurdlarımızın adları, məsafə göstəriciləri yazılmış böyük lövhələr indi adama bir başqa cür görünür. Adlar, rəqəmlər adamın üzünə gülümsünür, tilsimdən qurtulduğunu dil açıb çatdırmaq istəyir elə bil...

*Artıq bu lövhələr həsrətin, qubarın simvolu olmaqdan çıxıb, onların üzərindəki məsafələr illərin dalanına, çıxılmazlıqlarına dirənmir, insanları həqiqətən arzularının məkanına, mənzil başına çatdırır.*

**Daha bu rəqəmlərə həsrət, nisgil, kədərli nəzərlər zillənmir, Günəş dolusu bir sabaha doğru yola çıxmış insanların gülümsər baxışları görüşür, arzuları qovuşur...**

❖❖❖

*Böyük Tanrının qələm çaldığı tablolara baxırsanmı?!*

Avtobusumuz irəlilədikcə, təbiətin qüdrət qələmi ilə torpağın köksündə yaratdığı əsrarəngiz mənzərələr bir-birini əvəz edir.

**Dağların yamacında yayılıb gedən sapsarı taxıl zəmiləri bərəkətli çörəyin üstünə yaxılıb laylanmış və qatlanıb uzanmış bal loğmasına bənzəyirdi...**

*Qırmızı, al-qırmızı, kövrək və qopraq lalələrin canına daraşdığı sinətağ zəmilər təzəcə açılan kitab vərəqləri kimi yellənirdi...*

*Qəhrəman oğullarımızın şəhid qanı kimi ormanlığın canına hopmuş, laləzar çöllərin üz-gözünə sıçramışdı...*

**Tarixin əbədi və qırmızı sətirləri ilə!..**

Bu torpaqlara bahar çələng hörüb, xallanmış ağacların, yeddiçalar püstə güllərinin, iydə budaqlarının al rəngli çiçək açdığı vədələrdir...

Uşaqlığımdan bəri bahar büsbütün bu ətirdən ibarət olub. Qəribəsi budur ki, indiyə qədər yaşadığım ömrün bu ətri duymadığım heç bir baharını xatırlaya bilmirəm.

Hətta təbiətin öz səxavətini əsirgədiyi, ağacdan, yaşıllıqdan kasad məkanlarda da yenicə çiçəklənmiş iydə ağacı öz ətri ilə hər yaz həmişə məni bax beləcə sehrləmişdi...

*Üstünə həsrət tozu hopmuş bu illərdə - bir igidin ömrü qədər vaxtda hər dəfə iydə çiçəklərinin ətri ruhuma dolanda bu yerlərin baharını xatırlayırdım. Elə bilirdim ki, daha bu ellərə bahar gəlmir, ağaclar yarpaqlamır, otlar yaşıllaşmır, bulaqlar axmır, bal arıları uçuşmur, quşlar da o vaxtdan bəri susub.*

**Bu torpaqların təbiəti o vaxtdan bəri düşüncələrimdə kədərli bir filmin soyuq bir anı kimi donub dayanmışdı...**

***Yurd yeri*** *yaddaşımın divarlarından işğalçıların törətdikləri vəhşəti, insanlığa qarşı cinayəti bütün Yer üzünə, keçmişə, bu günə, gələcəyə duyurmaq istəyən qarlı torpağın, dilsiz-ağızsız daşın, dərənin hüznlü portreti kimi asılıb qalmışdı.*

Bu yerlərin mənzərəsinin düşüncələrimdəki buzu, soyuqluğu illərin ayrılığından sonra ilk dəfə buradan keçəndə isinib hərarətlənməyə başladı.

*Oyanıb hövürlənmiş torpaq, qırışığı açılmış, dinə-imana gəlmiş yurd yerləri...*

**Yurd yeri, ocaq yeri...**

**Dağ yeri, güman yeri...**

❖❖❖

**Nə gözəl sığal çəkmisən bu yerlərə, İlahi!**

Ağac hər yerdə ağacdır, meşə hər yerdə meşə, dağ-daş, ot-ələf...

Çiyin-çiyinə söykənmiş dağ-dərə, nərbiləkli oğulları gözləyən çəmənlik və biçənək yerləri...

***Amma bu yerlərin mənzərəsində təbiətin yaşıl füsunkarlığından başqa həm də qəribə bir bakirəlik vardı...***

*Yaşıl, yamyaşıl rənglər bu min cür büsata şahidlik edirmiş kimi, gözümüzü və ruhumuzu oxşayırdı...*

Erməni vandalları əsrlərlə xalqımızın bu torpaqlarda tikib-qurduqlarını bir neçə ayın, ilin içində dağıdıb-töküb, satıb-sovsalar da, milli yaddaşı torpağın köksündən qazımaq üçün hətta məzar daşlarına qədər söküb aparsalar da, torpağın bəkarətinə əl uzada bilməyiblər.

Hünərləri çatmayıb. Təbiətin özünüqoruma instinkti onların zorakı xislətindən, təcavüzkar mahiyyətindən daha güclü çıxıb.

*Ana təbiət sevgilisi döyüş meydanında, uzaq səfərlərdə olan əli hənalı, həyalı el qızlarımız kimi öz ismətinə sığınıb, namusuna tutunub, bir saçını ağ, bir saçını qara hörərək illərlə öz könül həmdəminin yolunu gözləyib.*

Doğmasının bir gün gələcəyini, isti əllərinin sığalı ilə onu yenidən dirçəldəcəyi, zəhərli tikan kimi bədəninə sancılmış minaları, mərmiləri çıxarıb atıb, yaralarını sağaldacağı, ana torpağı yenidən əkin-biçinli, axar-baxarlı, çal-çağırlı, toylu-büsatlı, gülüş səslərinin bir-birinə qarışdığı xoşbəxt həyatına qaytaracağı günlərin intizarı ilə yaşayıb.

*Bu yerlərin əsl sahiblərinin qayıtdıqlarını görüb sevinən Anam Torpaq baharın əsrarəngiz zinətləri ilə özünə minbir bəzək vurub bütün gözəlliklərini qarşımızda sərgiləmişdi.*

**Əziz Şuşa, Ana torpaq!..**

**Xoş gördük, doğma Cıdır düzü!..**

❖❖❖

*Böyük Zəfərimizdən sonra aylardır ki, Şuşada duyulan doğma səslərdən və hənirdən, doğma əllərin hərarətindən tikililər də cana gəlmişdi, salamat divarlar məzhunluq mənzərəsindən, kədərli görkəmindən çıxmışdı və onlar adama* ***ümidin, dirçəlişin, yeni bir gələcəyin*** *boy göstərən Abidəsi kimi gəlirdi...*

**Şuşada, Cıdır düzündə dilsiz-ağızsız otu-əncər də bizimlə dil açıb danışırdı, ağac da sevinirdi, daş-qaya da sevinirdi, çiçəkdən çiçəyə qonub şirə çəkən bal arıları da sevinirdi. Ancaq...**

***Ancaq ən çox Günəş sevinirdi!..***

***Şuşanın günəşi!...***

Şəhərdə yaşayanlar dedilər ki, “Xarıbülbül” festivalının keçirildiyi günlərə qədər Şuşada hava yağmurlu keçirmiş, yaz yağışı ara vermirmiş. Amma biz gələndə Günəş zərrin şəfəqlərini şəhərin üzərinə yaymışdı. Yağışda yuyunub müqəddəs şəhərimizin üzərindəki sonuncu şəbnəmləri də qurulamışdı.

**ŞUŞA insanlıqdan kənar vandalların törətdikləri günahlardan, natəmizliklərdən qüsl edib, arınıb-durulub özünü neçə illərdən sonra burada qılınacaq Ramazan bayramı namazına hazırlamışdı.**

***Şuşadakı Gövhər ağa məscidindən*** *səmalara bülənd olan bayram azanının ecazkarlığı ətrafa yayılan vaxt dağların qoynundan boylanan Günəşi seyr etdikcə, adama elə gəlirdi ki, bu Günəş sanki bir başqa Günəşdir.*

***Bu Günəş, elə bil ki, ancaq Qarabağa, Şuşaya qucaq açıb - onu öz müqəddəs nuruna boyamaq üçün...***

**Və bu Günəşin parlaq çöhrəsindən haqqın-ədalətin öz yerini tutmasından, dünyada dilindən, inancından, mədəniyyətindən asılı olmayaraq bütün insanların qarşılıqlı sevgi və hüzur içində yaşaya biləcəkləri belə bir şəhərin, belə bir ölkənin varlığından könlü xoş olmuş Tanrının özü gülümsünür.**

❖❖❖

**Şuşa ucadadır!..**

**Dualarımızla qoşadır!..**

**Şuşa ucadır və dualarımız eşidiləndir...**

*“Xarıbülbül” festivalını izlədikcə, Azərbaycanda yaşayan müxtəlif xalqlara aid musiqi nümunələrini, rəngarəng ifaları göz dolusu seyr etdikcə, bu Vətəndə yaşayan və eləcə də, dünyanın harasında yaşayır-yaşasın, qəlbi Azərbaycanla döyünən bütün həmvətənlərimizi tək-tək sinəmə sıxmaq istəyirdim. Onları nə qədər sevdiyimi çatdırmaq, yurda və cahana sülh, tolerantlıq, multikulturalizm, insana sevgi dəyəri üzərində bərqərar olan bu mənəvi böyüklük qarşında səcdəyə getmək istəyirdim.*

**İnsanı yaşadanlar, insanı sevənlər, insanlıq üçün qurub yaradanlar bir Günəş altında birləşmişdi.**

*Həmin gün Şuşa günəşinin şəfəqləri bütün dünya azərbaycanlılarına çatırdı, Azərbaycanı sevən hər kəsi isindirirdi.*

**AZƏRBAYCANI, QARABAĞI, ŞUŞANI sevənlərin hər birinə bu nurdan, hərarətdən pay düşürdü...**

**Qəlbim atlanır, Prezidentimə, Ali Baş Komandana minnətdarlıq hissi ilə ucadan səslənmək istəyirəm...**

**Şuşa! Səni yol-rizinlə, otunçiçəyinlə, dağ-dərənlə, havanla, suyunla və... bu odlu günəşinlə bir yerdə bizə geri qaytaran və bizə bəxş eləyən odur - Müzəffər Ali Baş Komandan İlham Əliyev!..**

**Sağ olun, Cənab Prezident!**

**Bizi Şuşaya qaytardığınıza görə...**

**Bizi Şuşaya gətirdiyinizə görə...**

**Vətənimizin incisi - Şuşanı bizə qaytardığınıza görə!..**

❖❖❖

*“Xarıbülbül” festivalı əlbəttə ki, mədəniyyət hadisəsidir, zəngin multikultural ənənələrimizin təntənəsidir...*

**Amma fikrimcə, “Xarıbülbül” daha çox siyasi olaydır, hücumçu diplomatiyanın növbəti mərhələsidir, hərbi gücün davamı və əyani nümayişidir...**

*Həm də Böyük Zəfərin rəsmiyyət ünvanı olan Şuşanın timsalında bu müqəddəs Vətən uğrunda şanlı Savaşın hər an davam edə biləcəyinin qətiyyətli bəyanıdır!..*

**“Xarıbülbül” İlham Əliyevin Dəmir Yumruğunun hələ də, - əslində sonsuzadək, - düşmənin başı üzərində “Domokl Qılıncı” kimi dayandığının ən sərt ifadəsidir!..**

*İlham Əliyev “Xarıbülbül”dəki müzəffər duruşu, əzmkarlığı və kəskin sözləri ilə göstərdi ki, Azərbaycan savaşdan quruculuğa, hərb məkanından mədəniyyət platformasına qısa müddətdə keçməyi bacardığı kimi, yenidən* ***Haqq, Ədalət, Zəfər*** *yürüşünə başlaya bilər!..*

İlham Əliyevin Şuşada - “Xarıbülbül”də - məmləkətin ən hündür ləyaqət zirvəsində dalğalandırdığı Azərbaycan bayrağının kölgəsi indi Xankəndidən Xocalıya, Laçın dəhlizindən Zəngəzur koridoruna qədər bütün ərazilərimizə düşür!..

*“Xarıbülbül”də Azərbaycan daha da gücləndi, xalq daha da birləşdi, Ordumuz daha da mətinləşdi...*

*“Xarıbülbül”də düşmən və onun havadarları daha da miskinləşdi, daha da parçalandı, daha da rəzilləşdi...*

**“Xarıbülbül” İlham Əliyevin Xilaskarlıq missiyasının şərəfli zirvəsi, möhtəşəm NİDAsı oldu!!!**

❖❖❖

Keçib-getdiyimiz adda-budda kəndlər və miskin erməni evləri və acı baxışlar...

Yolboyu qarşımıza çıxan üz-gözünü tük basmış, üst-başları nimdaş, qulaqları sallax, üzbaşları qara qırtıx tük basmış yaşlı ermənilər kinli nəzərlərlə bizə baxırdılar.

Çox miskin mənzərə idi...

Karıxmış insanlar, sozalmış üzlər, səmtini itirmiş döyükən gözlər...

Çöhrələrində işıqdan əsər-əlamət görünmür... Hiss olunurdu ki, illərlə ürəklərində böyütdükləri qəzəbin-küdurətin, saxtakarlığın içində çoxdan özlərini dəfn ediblər.

Axx!.. Necə də təzadlı mənzərələr idi...

Onların üzgün baxışlarına, əllərində girəvə olsa getdiyimiz avtobuslarla birgə bütün dünyanın altını üstünə çevirməyə, bəşəriyyəti didib parçalamağa meyilli görkəmlərinə baxınca, buna qarşılıq vermək, onlara nifrət etmək istəyirdim.

Amma nə qədər qəribə olsa da, onlara nifrət etməkdən çox, yazığım gəlirdi, acıyırdım...

Bu qədər boş-boş xülyaların, cəfəng hisslərin əsiri olmağa dəyərdimi?!

***Əzəmətli dəmir yumruq, başınızı əzən zərbələr ayıltmadımı sizi?!***

***Başınız batsın!..***

***Olmayan başınız...***

Dövlət rəhbərimizin festivaldakı çıxışını dinlədikcə, hər zamankı qətiyyətinə, ağlına, zəkasına, gələcəyə baxışına heyran olduqca, “Xarıbülbül” festivalında təqdim edilən mədəniyyət incilərinin gözəlliyində ruhum təzələndikcə, o yaşlı ermənilərin miskin, depressiv görkəmlərini xatırlayırdım.

**Düşünürdüm ki, keşkə bu zavallılar İlham Əliyev kimi güclü və qətiyyətli rəhbərin Liderliyi ilə bir Günəş altında isinə bilməyin, sevginin, sülhün, qurub-yaratmaq arzusunun, tolerantlığın, başqa mədəniyyətlərə hörmət ruhunun insana nə qədər böyük könül xoşluğu, heç zaman bitməyən xoşbəxtlik ruhu gətirdiyini bir bilsəydilər...**

*Mahiyyəti ancaq söküb-dağıtmaqdan, əlinə keçəni, gözünə görünəni məngirləyib içəri ötürməkdən, oğurlamaqdan, özünün saxta tarixini, milli varlığını üfürüb şişirtməyə çalışmaqdan ibarət olan bu vəhşi, vandal həyat tərzi kimə lazım?!*

**Yaman olur anlamaq dərdi...**

❖❖❖

**Qayıdırıq...**

Dağların belinə kəmər kimi dolaşan çarpaz yollar aşağılara, yaşıl ormanlığa, dərin ənginliklərə açılır.

Ağacları qalın, sıxma meşələrin içi ilə sallanıb, şellənib gedirik...

**Qürurla...**

**İftixar hissi ilə...**

...Cıdır düzündə, arzularımızın reallığa çevrildiyi bir məkanda xeyli gəzdik, qol-qola, əl-ələ verib rəqs etdik, yallı getdik...

Bu müqəddəs torpağın ruhu hopmuş yumurtalı, zəfəranlı və dişimizin dibinəcən ləzzəti qalmış, bir özgə təamlı kömbə çörək yedik...

**Bu müqəddəs yol, bu səfər hamımızı elə ovsunlamışdı ki...**

**Təbiətin füsunkarlığı, uzun illərin həsrətindən sonra qismət olan vüsalın həyəcanı və ən çox da, odlu istisi və isti odu ilə bizi salamlayan *Şuşa Günəşinin* sehri...**

**Fərqindəyəm ki, yaza biləcəklərim yazdıqlarımdan çoxdur, xeyli çox...**

**Nə etməli, qalanı da yeni səfərlərə...**

**Azadlığın, yeni cəlalın mübarək, Qarabağ!...**

**Salamat qal, sevimli “Cıdır düzü”!..**

**Yeni görüşlərədək, əzizim Şuşa!**

**Günəşli sevgilərlə, sevgili Günəşlə!..**

**Və xoş arzularla!..**

# FÜSUNKAR TƏBİƏTDƏ-DAĞLAR QOYNUNDA QALA QURMUŞ GƏDƏBƏYİN DÜNƏNİ VƏ BUGÜNÜ...




*İLQAR TÜRKOĞLU*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü, Türkiyə Yazarlar Birliyinin üzvü, Prezident təqaüdçüsü.*


**Bir neçə dəfə təxirə salınan, nəhayət ki, may ayında baş tutan Gədəbəy səfərimiz və bu səfərlə bağlı təəssüratlarımı yazmağı daha öncədən planlasam da, sonradan fikirimdən daşınıb başqa bir vaxt yazacağıma qərar vermişdim. Əslində isə, mən təəssüratlardan daha çox Gədəbəyin tarixi abidələri haqqında araşdırma yazılarımı təqdim etməyi planlaşdırırdım. Şübhəsiz, bu qonuda ayrıca yazım olacaq. Əvvəla, görkəmli nasir-dramaturq, Əməkdar incəsənət xadimi, AYB sədrinin müşaviri Elçin Hüseynbəylinin bu səfər barədə, qısaca da olsa, müxtəlif mətbu orqanlardakı yazısını, eləcə də AYB Mətbuat katibi Xəyal Rza və şair-yazar Elli Atayurdun qələmə aldıqları təəssüratlarını oxuduqdan sonra təkrarçılığa yol verməməyə çalışdım. Amma və lakin...**

Bir az gecikmiş də olsa, həm adıçəkilən səfər barədə, həm də ictimaiyyəti narahat edən bəzi məqamlar haqqında, qeydlərimi qısaca nəzərinizə çatdırmağı özümə borc bildim.

### *Son günlər*

gündəmi zəbt edən məmur özbaşnalıqları haqqında vətəndaşlarla yanaşı MM deputatlarının dilindən də şikayətlərin səslənməsi durumun ciddi olmasından xəbər verir. Hələ də belə məmurların dərisi soyulan, gözü çıxan qardaşlarından ibrət dərsi götürməmələri mənə təəccüblü gəlir. 200 il ərzində yağmalanan torpaqlarımızın bir qismini azad edən, 44 günlük ağır müharibədən alnıaçıq, şərəflə çıxan xalqımıza bu məmurlar niyə qənim kəsilib?

Çoxları Gədəbəyin təbiətini, gözəlliyini, coğrafi quruluşunu İsveçrə ilə eyniləşdirirlər. Bunun doğru, ya yalnış olması barədə dəqiq fikir söyləməkdən uzağam. Uzun illər, məsafəcə bir az paytaxtdan, bir az da gözdən-könüldən uzaq bir rayon kimi xatırlanıb Gədəbəy. Uzun illər dəyişdirilən, hətta bu bölgənin sapı özümüzdən olan məmur başçıları belə bu elə-obaya biganəlik göstərdi. Bu məmurlar füsunkar təbiəti olan Gədəbəyə qənim kəsilməklə onun sərvətlərini talamaqla məşğul oldu. Heç biri bu rayonun inkişafı, rifahı üçün çalışmadı, normal infrastrukturun yaradılması üçün təşəbbüs göstərmək qabiliyyətində olmadılar. Təsadüfi deyildir ki, Gədəbəy Prezident Administrasiyasına edilən şikayətlər üzrə "lider" rayonlardan biri idi.

***Diqqətli dostlarım istər həyatda, istərsə də mətbuat və sosial şəbəkə yazılarımdan az-çox xarakterimə bələddirlər. Onu da bilirlər ki, heç vaxt nəyinsə xatirinə gəlişigözəl tərifləri sevməmişəm. Ən əzizim olsa belə, yanlışdırsa, onun yanında yox, doğrunun yanında olmuşam.***

Deyirlər "gedənin dalınca danışmazlar". Bu aforizmi "ne prav" çıxarmaqdan uzaq olsam da, qısaca da olsa bəzi məqamları qeyd etməyi özümə borc bildim. Bugünədək Gədəbəyə təyin edilən icra başçıları içərisində ən yarıtmazı Gədəbəy doğumlu olan Kamran Rzazadə olub. Ondan geri qalmayan digərləri barəsində danışmağa heç dəyməz.

Yerigəlmişkən, qeyd edim ki, azqala 40 ildir ki, Bakı şəhərində yaşayıram və 30 illik müstəqilliyimiz dönəmindən başlayaraq, demək olar ki, bütün rayonlarımızda xidməti ezmiyyətdə olmuş, istər icra başçıları, istərsə də hüquq-mühafizə orqanlarının rəhbərləri ilə görüşmüşəm. Lakin mən bir dəfə də olsa doğulduğum rayona təyin edilmiş icra başçıları ilə nə görüşmüş, nə də bu görüşə cəhd etmişəm. Yenə də, amma və lakin...

### *Gədəbəy taleyinə yazılmış*

***yarıtmaz başçılardan 28 avqust 2018 ci ildə vidalaşdı, daha dəqiqini desəm, qurtuldu. Elə bu tarixdən etibarən İbrahim Ənvər oğlu Mustafayev Gədəbəy rayon İcra Hakimiyyətinin başçısı təyin edildi. Uzun illərdən miras qalmış problemlər və bu problemlərdən doğan şikayətlərlə üz-üzə qaldı yeni başçı. Geri çəkilmədi, qolunu çırmalayıb ilk öncə vətəndaşları dinləməyi bacaran kadr məsələlərini həll etməyə başladı, işini bilən, reputasiyası təmiz olan kadrları işə qəbul etdi. Tezliklə rayonun ictimai-siyasi həyatında müsbətə doğru ciddi addımlar atılmağa başlanıldı. Ruhən dağlara, təbiətə, elə-obaya bağlı olan İbrahim müəllim tezliklə rayon camaatının sevimlisinə çevrildi. Uzun illər şikayətlər sahəsində "liderlik" edən rayonda haqsızlıqlar səngiməyə başladı.***

### *Biz bu səfərimizdə*

ilk olaraq yolumuzu Gədəbəy İcra Hakimiyyətinin inzibati binasından saldıq.

Binaya daxil olarkən gözlərimizə inanmadıq. Bu nəhəng bina bizə eynən Bakıdakı əzəmətli ASAN XİDMƏTləri xatırlatdı. Bəli, bu, doğrudan da belə idi. Vətəndaşlar ərizə-şikayətlər, sənəd-arayışlar və s üzrə müvafiq bölmələrə növbəlilik talonlarını götürməklə 15-20 dəqiqə ərzində, bizim eynən ASAN XİDMƏTdə alışdığımız xidmətdən yararlandığımız kimi, işlərini həll edib evlərinə yollanırdılar. Daha, əvvəllərdə olduğu kimi, kabinetlər önündə yığılan şikayətçi növbələri yox idi. Qeyd edim ki, bu struktur hələ ki, bir ilk olaraq, Gədəbəy rayonunda başçı İbrahim Mustafayevin ciddi çalışmaları nəticəsində ərsəyə gəlib.

Digər rayonun mütəxəssisləri bu örnəkdən bəhrələnmək və onu öz rayonlarında tədbiq etmək üçün Gədəbəyə məsləhət almağa gəlirlər. Bunun nəticəsidir ki, uzun illər problemlər məngənəsində çabalayan rayon camaatı dərindən nəfəs alıb normal iş rejimində çalışmağa başlayıblar. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün mənbə və investisiyaların araşdırılması, turizmin inkişafı kimi yolların işlənib hazırlanması üzərində intensiv işlər gedir.

Bütün görülən işlərlə bərabər, biz bu neçə ildə İbrahim müəllimin ədəbiyyata, sənətə, mədəniyyətə nə qədər önəm verdiyinin şahidi olduq. Söhbət zamanı istər klassiklərimizdən, istərsə də müasir yazarlardan gətirdiyi nümunələrlə cənab başçı bizi xeyli təəccübləndirdi də. İcra başçısı təyinatından bir neçə ay sonra İbrahim müəllimin təşəbbüsü ilə 2 dekabr 2018-ci ildə müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi şair, tərcüməçi və redaktor İlyas Tapdığın 85 illik yubileyi doğulub boya-başa çatdığı Gədəbəy rayonunda ümumrayon səviyyəsində qeyd edildi. Dəvət aldığım həmin tədbirdə ilk dəfə İbrahim müəllimi yaxından görüb tanımışdım. Bu isə, bizim ikinci görüşümüz idi.

### *Məlumat üçün qeyd edim ki,*

Azərbaycanda yaylaq və elat ənənələrinin yaşadılması və təbliği məqsədilə 2019 cu ilin iyulun 26-da ilk dəfə olaraq Gədəbəy rayonunda Milli Yaylaq Fesivalına start verilmişdi. 3 gün davam edən festival Gədəbəy Rayon İcra Hakimiyyəti, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) "Cavadxan" Tarix və Mədəniyyət fondu, Mədəniyyət Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Atçılıq Federasiyası və Dünya Etnoidman Konfederasiyasının rəsmi təstəyi ilə keçirilmişdi. Amerikadan, Avropadan tutmuş dünyanın bir çox ölkəsindən bu festivala qatılanlar Azərbaycanın milli adət və ənənələrinin nə qədər qədim olduğunun bir daha şahidi olmuşdular. Təssüflər olsun ki, bəlli pandemiya səbəbindən ötən 2020 ci ildə Milli Yaylaq Festivalını keçirmək mümkün olmadı. Bununla belə, 2021-ci ilin ilk aylarından başlayaraq Gədəbəy Rayon İcra Hakimiyyətinin də dəstək verdiyi və həkim-oftalmoloq, tibb üzrə fəlsəfə doktoru, rayonumuzun ictimai-siyasi həyatında çox böyük rolu olan dəyərli Yazgül Abdıyevanın təşəbbüsü və maliyyə dəstəyi hesabına, eləcə də bu layihələrdə böyük zəhməti olan şair-publisist qardaşımız Vahid Aslanın çalışmalarında "Gədəbəydə doğulan şairlər" və "Gədəbəy şəhidləri" kitabları ərsəyə gəldi və bu kitablar təmənnasız olaraq bütün müəlliflərə paylanıldı. Bir ay fasilələrlə hər iki kitab online olaraq geniş ictimaiyyətə təqdim edildi.

Bugün Ulusu ayaqda tutan onun ədəbiyyatı, sənəti, mədəniyyətidir. Bugün özünəqayıdış, milli dəyərləri qoruyub saxlamaq, yad ideologiyalardan qurtulmaqdır.

### *Biz zaman-zaman*

itirdiklərimizin sonradan fərqinə varırıq. Gədəbəy və Xocalı mədəniyyəti təkcə Qafqazda yox, bütün Türk dünyasında, eləcə də dünyada ən qədim abidələr sırasına daxildir. Antik abidələr sırasına daxil edilən doğma alban-xristian abidələrinə qarşı olan ögey münasibətin nəticəsidir ki, bugün mənfur bir düşmənlə-şərə qulluq edən bir məxluqla üz-üzə qalmışıq. Biz, nədənsə, yad ideologiyalara tez aldanır, yad məzhəblərə tez üz tuturuq. Yuxarıda qeyd etdiyim kimi Gədəbəyin antik tarixi abidələri haqqında ayrıca araşdırma yazım olacaq.

Diqqətli oxucular yəqin ki, bu yazımda qeyd etdiyim "ilk dəfə" sözlərinə bir neçə dəfə rast gəldiklərinin fərqinə varacaqlar. Və mən inanıram ki, bu "ilk dəfə"lər Gədəbəy rayonunda böyük inkişafa, böyük rifaha səbəb olacaq.

**Türk özü olanda güclüdür. Biz bir yerdə olaq ki, ayaqda qalmağı, qalib olmağı hər zaman bacara bilək. Necə ki, bunu 44 günlük vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin misilsiz liderliyi sayəsində bacardıq. Azərbaycanımız-Ulusumuz var olsun!**

***Qonağınam bugünlüyə, a dağlar,***
***Ürəyimin məlhəmi sən ol, gedim!***
***Kəkotulu, göyçəmənli yaylaqlar,***
***Bala-bala məni yola sal, gedim!***

***Gədiklərin ağ dumana bələnə,***
***Yaz yağışı narın-narın ələnə,***
***Quzu kəsim o sallanıb gələnə,***
***Gözəllikdən dili-ağzı lal, gedim!***

***Bir meh əsə, gedə duman, gedə çən,***
***Hürkə-hürkə ovum keçə bərədən.***
***Moruq dərəm bir də enib dərədən,***
***Bulaqların dodağımda bal, gedim!***

***Bu yerlərin Kərəmi saz, Xanı saz,***
***"Misiri"tək "Cəngi" tutan hanı saz?***
***Əldə səhəng su dolduran, a naz-naz,***
***Bircə dəfə salamımı al, gedim!***

***Çadır-çadır qurulubdu binələr,***
***Qonaq oldum bal-qaymağa səhərlər,***
***Yalçın qaya zirvələrdən əl elər,***
***A yurd yeri, di salamat qal, gedim!***

# Adnan Menderesin eşq macəraları

**1929-cu ildə 30 yaşlı yaraşıqlı Menderes 24 yaşlı gözəl və zərif qadın olan Berin xanımla evlənir. Bu evlilikdən 3 uşaqları olur.**

Menderes 1956-ci ilin payızında opera sənətçisi Ayxan Aydan xanıma dəlicəsinə aşiq olur. Tanışlıqlarının ertəsi günü Ayxan Aydan qapısında son model bir amerikan avtomobilini görüb təəccüblənir. Bu, baş nazir Menderesin hədiyyəsi idi.

Həmin dövrdə Ankarada barmaqla sayılacaq qədər avtomobili olan adam var.

Ayxan Aydan da Menderesə aşiq olur. Amma o, evli idi. Əri musiqiçi Hasan Ferit bəy evdən uzaqlaşdırılır, 14 yaşlı oğlu İngiltərəyə göndərilir. Talehsiz uşaq Londonda avtomobil qəzasında dünyasını dəyişir.

Böyük eşq yaşayan Ayxan Aydan xanımın Menderesdən bir övladı dünyaya gəlsə də, 7-8 saat yaşadıqdan sonra tələf olur.

### *UŞAQ DAVASI*



Ölən uşaq hadisəsi Yassıada məhkəmələrinə qədər gedib çıxır və "uşaq davası" adını qazanır.

Ayxan Aydan xanım məhkəmədə məhkəmə heyətinin qarşısında dimdik duraraq Menderesi çox sevdiyini, onun uşağının anası olmaq istədiyini yaralı, amma qürurlu bir qadın kimi mərdi-mərdanə dilə gətirir.

Menderes bəraət alır, amma daha sonrakı məhkəmələrdə Konstitusiyanı pozmaq və Vətənə xəyanət etmək madələrilə edama məhkum edilir.

Ayxan Aydan, Menderesin birinci və sonuncu yasaq olunmuş eşqi deyildi. O, hər çiçəkdən bal almağı sevirdi. Bundan qabaq 1946-cı ildə Müqəddəs adlı gözəl bir gənc xanımla da eşq yaşamışdı.

Menderesin ən maraqlı eşq macərası isə 1953-cü ildə İstanbulda baş tutur. İstanbul Təhlükəsislik idarəsinin müdir müavini Fərid Avni Sözən başqa şəhərə təyin olunurş Həyat yoldaşı yazıçı Suzan Özən bu təyinin qarşısını almaq üçün Menderesi ziyarət edir və ondan bu barədə xahiş edir.

Menderes Suzan Özənə də aşiq olur. Gənc qadının ərinin təyinini dayandırır, rütbəsini qaldırıb onu Təhlükəsizlik İdarəsinin müdiri edir.

Suzan Sözən sevgi romanları yazan, güclü, qüvvətli kişiləri sevən, romantic və ehtiraslı bir qadın idi.

Qısa zaman içində baş nazir Menderes ilə Suzan xanımın arasında odlu-alovlu bir eşq macərası başlayır.

Taksimdəki məşhur Park Otelin ən lüks otağı Menderesin eşq yuvası idi. Burada Suzan Özən xanımla rakı içər, İstanbulun yenidən qurulması barədə söhbətləşər, Suzan xanımın əri polis müdiri Fərid Avni Sözən isə iş formasında aşağıda öz işinin başında durardı.

### *ARVADINI SEVİRƏM!*

Menderes daha sonra evil və uşaqlı bir qadına aşiq olur, onun da ərini təhdidlə uzaqlaşdırır.

Gözləri heç kimi görməyən şorgöz baş nazir bir müddət sonra yenə evil bir qadına vurulur, qadının ərinə "mən sənin arvadını sevirəm, aramızdan çəkil!" deyir. Menderesin eşq macəraları serial kimidir, hətta serialdan da maraqlıdı. Yassıadada mühakimə olunarkən şəxsi həyatı və sevgililərdə mövzuya çevrilir, bu qadınlara millətdən oğurladığı pulları xərclədiyi də soruşulur.

### *HƏZİN SON*

**Ancaq Menderes eşq Konstitusiyanı pozduğuna və Vətənə xəyanət etdiyinə görə edam cəzası alır.**

**Dilimizə uyğunlaşdıran:**
**Eminquey**

# "Həmin gün kitab imzalamaqdan əlim şişmişdi"

*Şair Aqşin Evrən Adalet.az saytına müsahibə verib.*

**- Aqşin, uzun illərdir yaradıcılıqla məşğul olmağına, tanındığına baxmayaraq kitab çıxartmırdın. Amma sonradan birini- "Mənfi sənsiz dərəcə" şeirlər kitabını çıxartdın. Necə idi, dəydimi? İstədiyin reaksiyanı aldın, yoxsa, sakit qarşılandı?**

- Əvvəlcə ilk kitabımdan qısaca danışım, sonra digər istiqamətdə fikrimi deyəcəm. İlk kitabıma maraqla bağlı onu deyə bilərəm ki, nəşrindən 3 ildən çox vaxt keçib, amma hələ də insanlar bu kitabı mağazalarda axtardıqlarını, tapa bilmədiklərini deyirlər. Hətta İnstaqramda bir oxucu yazmışdı ki, mənə o kitabın bir nüsxəsini gətirin, qiymətinin 100 qatını da verməyə hazıram. Kitab təqdimatımda isə əsl anşlaq oldu. Azərbaycanda heç maraqla gözlənilən filmlərin seansına o qədər adam gəlmir. Həmin gün kitab imzalamaqdan əlim şişmişdi - sən canın, bizim qürurlandığımız şeyə bax *(gülür).* Yəni demək istəyirəm ki, kitaba oxucu marağı gözlədiyimdən yaxşı oldu və tez bir zamanda satılıb bitdi.

O ki qaldı kitabın bədii çəkisindən razı qalmağıma - xeyr, razı deyiləm. Orda sanki kitabı doldurmaq üçün salınmış səthi şeirlərim var ki, bu gün heç özümün belə yadıma düşmür. Düşünürəm ki, "Mənfi sənsiz dərəcə" kitabımdakı şeirlərimin təxminən yarısından asanlıqla imtina edə bilərəm və əslində, de-fakto imtina etmişəm. Olsun, hamı birinci kitab periodunu keçməlidir. Müəllifin əsas gücü öz həqiqətini bilməsidir.

Kitab çıxarmaq məsələsinə isə həqiqətən həssas yanaşıram. Müəllif var ki, bir cüt ayaqqabı alanda 10 gün mağazaları, 5 gün saytları gəzir, dünyanı alt-üst edir, amma kitab çıxarmağa gələndə 10 günə bir kitabı hazırlayıb nəşr edir, 2 ay sonra da ikinci, ardınca üçüncünü çıxarır. Bu həm gərəksiz bolluq yaradır, həm də ümumilikdə kitaba olan oxucu aclığını aradan qaldırır. 100-150 min illik bir dövr ərzində insana cəmi 4 kitab göndərilib, biz isə ildə az qala 4 kitab çıxarırıq - özü də eyni janrda. Təbii, fərqi-fərqli janrlarda ardıcıl kitablar nəşr etdirməkdə anormal bir durum yoxdur, çünki hərəsinin öz oxucusu var.

**- Bəs, ikinci kitab? Onu nə vaxt çıxartmağı planlayırsan? Bəlkə birinci kitabın bədii çəkisindən narazı qaldığına görə ikinci kitabına həmin maraq olmayacaq? Nə düşünürsən bu barədə? Üstələyə biləcəksənmi? Həm də Aqşin Evrən deyəndə ağıla 2-3 şeir gəlir, digər yaxşı şeirlər olsa belə, sanki onların kölgəsində qalır. Bu, "pasport" şeirlə bağlıdır, yoxsa, onlardan yaxşılarını yaza bilmirsən deyə?**

- İkinci kitabım şeir kitabı olmayacaq. Elə danışmışkən, burda söhbəti açım. Təxminən, 1 ildir ki, Xəzər Süleymanlı ilə bir roman üzərində işləyirik, yaxın vaxtlarda onu nəşr etdirməyi düşünürük. Son illər ədəbiyyatımızda uğurlu hekayələr, romanlar yazılır, nəşr olunur. Amma bu əsərlərlə oxucular arasında bir uçurum var. Çünki o əsərlərin böyük əksəriyyəti hazırlıqlı oxucular üçün nəzərdə tutulub. Mütaliəyə yenicə başlayanların əksəriyyəti isə həmin əsərləri oxuyanda deyir ki, bu kitab çox qarışıq idi, heç nə başa düşmədim. Bax, biz yazdığımız bu romanla oxucuların o "heç nə başa düşmədim"ini aradan qaldırmağı hədəfləyirik. Yəni bu kitabı hazırlıqlı oxucular da, hazırlıqsız oxucular da duya biləcək. Ömrü boyu əlinə kitab almayan adam bu əsəri oxuyanda nəyin nə demək olduğunu başa düşəcək. Bundan başqa biz bu kitabda zaman-zaman bizə ünvanlanan bəzi suallara da cavab verməyə, şeirdə deyə bilmədiklərimizi burada deməyə çalışmışıq. Yəni bu kitab bizim həm də oxucularla dialoqumuz olacaq. O ki qaldı digər suala, Aqşin Evrən deyəndə ağıla 2-3 şeir gəlirsə, çox xoşbəxt adamam. Zatən, müəllifdən geriyə 2-3 şeir qalır, o da qalsa. 100 il sonra bizdən cəmi bircə şeir qalsa belə, bu, kifayətdir. Bu gün hamımızın sevimlisi Mikayıl Müşfiqin belə 1-2 şeiri dillərdədir, qalanları unudulub. Mənim çox bəyənilən, hətta özümdən də məşhur olan elə şeirim var ki, onu zəif mətn hesab edirəm. Yəni məsələn, Aqşin Evrən deyəndə insanların ağlına gələn, tutaq ki, "Balaca xanım" şeirimi "pasport"um hesab etmirəm. Həmçinin 5 il əvvəl "pasport" kimi baxdığım şeirə indi "metirka" kimi baxıram. Bayaq haqqında bəhs etdiyim romandan sonra ikinci şeirlər kitabımı - "Antik tənhalıq"ı nəşrə hazırlayacam. Burada əsasən maksimalist minimalizm üzərində yazdığım şeirlər yer alacaq.

**- Belə çıxır ki, şeirdən nəsrə keçirsən? Yəni, daha çox romana yönəlmisən. Amma romanı bir az da açaqmı? Niyə ikiniz, mövzusu nədir? Dediyinə baxsaq, bildiyimiz roman anlayışından fərqli səslənir...**

- Etiraf edim ki, mən həmişə nəsrə yaxın düşəndə, elə bilmişəm, əlimdə məşəllə bir çəllək barıta yaxınlaşıram. Yəni nəsr yazmağın çətinliyini, ciddiyyətini bilirəm. Amma şeirdən nəsrə keçdiyimi demək doğru olmaz. Mən şeirlə yanaşı hekayələr də yazmışam, baxmayaraq ki, heç vaxt çap etməmişəm. 4-5 il əvvəl yazdığım bir hekayəmi Azərbaycan ədəbiyyatında roman və hekayə janrının ustaları deyə biləcəyimiz adamlara göndərmişdim ki, məsləhət versinlər, səhvlərimi göstərsinlər. Açığı, elə reaksiyalar aldım ki, inanmağım gəlmədi. İsrar etdim ki, yalandan tərifləməyin, nə var deyin. Dedilər, a kişi, həqiqətən, yaxşı hekayədir, əl çək bizdən (gülür). Hətta ustad yazıçı Pərviz Cəbrayıl dedi ki, bu hekayəni müharibə haqda yazılmış ən yaxşı hekayələrdən biri saymaq olar. Başqa yarımçıq, redaktəyə ehtiyac duyulan hekayələr də var, vaxt olduqca onları tamamlayacam. Amma yəqin, yaxın illərdə hekayə kitabı nəşr etdirmərəm. Şeir kitabı üçün 5 il gözləyən adam, hekayə kitabı üçün 10 il gözləməlidir - deyə düşünürəm. Xəzər Süleymanlı ilə yazdığımız roman isə Nitsşenin "Əbədi təkrar" ideyası üzərində qurulub. Amma təbii, əsasən hazırlıqsız oxucunun rahatlıqla mənimsəyəcəyi, anlayacağı üslubda yazılıb.

Çalışmışıq ki, fərqli texnikalardan, priyomlardan istifadə edib oxucunu dolaşığa salmayaq. Yəni oxucu kitabı oxuyanda özünü su üzərində yeriyirmiş kimi hiss edəcək. Romanda bir neçə süjet xətti var - həyat, mif, sevgi, detektiv, tarix və s.

**- Aqşin, səni ədəbi mühitdə də bir qədər səssiz görürük. Deyirlər, şair bir az səsli-küylü olar. Amma sən reaksiya vermirsən heç nəyə. Nə ictimai, nə də ədəbi. Susqunluğun nə ilə əlaqədardır? Bəzən susqun ədəbi mühit adamına deyirlər ki, heç kimlə arasını pis etməyə çalışmır, istəyir ki, hamı onu sevsin, o özü də hamını sevir, hamı ilə razılaşır....**

- Mən uşaqlıqdan özümə qapanan olmuşam. Soruşsalar ki, bu, sənə xoşdurmu? Deyərəm, qətiyyən xoş deyil. Hər kəslə deyib gülməyi, zarafatlaşmağı, istiqanlı olmağı çox istəyərdim, amma nə edim ki, belə formalaşmışam - yalnız yaxınlarla, dostlaşa bildiyim adamlarla qaynayıb-qarışa bilirəm. Bəzən yeni dostlaşdığım hansısa şəxs bir müddət sonra deyir ki, mən səni belə zarafatcıl, deyib-gülən bilmirdim, kənardan çox özündənrazı, soyuq görünürsən. Deyirəm, zalım, Azərbaycan ədəbiyyatında nəyə görə özündən razı olasan axı? 5-10 sevilən şeirə görə? Yəni susqunluğum planlı deyil, yaxından tanıyanlar bilir ki, xarakterim belədir. O ki qaldı hamının məni sevməsinə, əminəm ki, bu gün mənə səmimi-qəlbdən nifrət edən elə gənc həmkarlarım var ki, heç bəlkə, ermənidə mənə qarşı o qədər nifrət olmayıb. Adam tanımadan, bilmədəm kor-koranə nifrət edir. Canları sağ olsun, bunlar boş şeylərdir, keçib gedər. Bilirəm ki, sabah o nifrətpərvərlərlə bir masa arxasında otursam, yanıldıqlarını görəcəklər. Amma mənim onların xoşuna gəlmək kimi bir dərdim yoxdur.

Ümumiyyətlə, hamının sevimlisi olmaq kimi mənasız bir arzu ilə yaşamıram. Əgər belə olsaydım, hamı ilə dostluq münasibəti qurar, hamının şeirlərinə, yazılarına ürək atar, yalandan təriflər düzərdim. Necə ki, bunu edənlər var. Hər halda öz işləridir. Məni nə yazdığım və nə yazacağım maraqlandırır. Mətndən kənar bütün söhbətlər mənim üçün çayxana qeybətindən ibarətdir.

**- Adətən, belə məsələlərdə ad çəkilmir. Sən necə, çəkə bilərsənmi? Sənə nifrət edənlər, yaxud da, hamını tərifləyənlərdən?**

- Ad çəksəm, gərək onların mənim və başqa həmkarları haqda nifrət dolu nitqlərini necə öyrəndiyimi də açıqlayım, bu isə doğru olmaz. Həm də düşünürəm ki, insan özünə olan sevgini itirmədiyi kimi, özünə olan nifrəti də itirməməlidir. Nifrətin qədrin bilmək lazımdır. Bəzən hətta ən mənasız adamın nifrəti də səni uğura doğru apara bilər. Amma əgər onlarla nə vaxtsa qarşılaşsam, bir böyük kimi deyəcəm ki, a kişi, bu nə mənasızlıqdır axı edirsən? Bəzilərinə demişəm də. Ki, istedadlı adamsan, belə bazar qeybətləri yaraşmır sənə. Tez-tez görürük ki, hansısa şair digər bir şairin



çox layk yığmasından kin və əsəb dolu bir status yazıb. Başqa vaxt yalandan sevgi dolu şeirlər, statuslar yazmaqla deyil e. Başqasının layk sayının çoxluğuna görə kin qusursansa, sənin yazdığın şeir də saxtadır və özün də natamamsan. Demək nə etmək lazımdır? Əvvəlcə içini bu mənasız kindən, nifrətdən təmizləməlisən. Primitiv şeylərə görə nifrət qusan adam böyük şeylər yarada bilməz. İnsanın sevgisi kimi nifrəti də ciddi, bəşəri olmalıdır.

**- Şair-yazıçıların əhatə dairəsi olduğuna görə hamıya verdiyim bir sual var; Azərbaycan yazıçılar birliyinin fəaliyyətindən razısanmı? AYB ədəbiyyatımızın harasındadır? Sənin özünə dəstək veriblər, yaxud nə kimi dəstək verməklərini istəyərdin? Ədəbiyyat adamları bu qurumun fəaliyyətini birmənalı qarşılamır dəstək məsələlərinə görə. Haqqı çatmayan adama dəstək verildiyi, çatan adamı isə müəyyən səbəblərə- məsələn, onları tənqid etdiklərinə görə görülmədiyini deyir..**

- Açığı, AYB-nin fəaliyyəti barədə heç bir məlumatım yoxdur. Yəni son illərdə bu qurum nə edib, nə etməyib - bilmirəm. Çünki qurumun üzvü deyiləm, ora ilə mütəmadi əlaqəm yoxdur, orqanlarında çap olunmuram. Bu vaxta qədər "Ulduz", "Azərbaycan" jurnalı, "Ədəbiyyat" qəzeti məndən mətn istəyiblər və ya özüm göndərmişəm, yayımlayıblar, qonorar yazıblar. Ancaq son illərdə 1-2 saytı çıxmaqla heç yerə mətn göndərmirəm. Ötən il Türkiyədə bir dərgiyə 2 şeirimi göndərmişdim. Təxminən 1 ay sonra bank hesabı istəyib, 110 avro qonorar göndərdilər. Həmin dərgini gənclər məhdud imkanlarla çıxarırdılar, ancaq qonorarları kifayət qədər yaxşı idi. Azərbaycan kimi neft ölkəsində 2 şeirə isə uzağı 17 manat qonorar verirlər, o da gedib bankın yerini tapana kimi taksilərə gedir. Ölkədə hər şeyin qiyməti qalxır, amma bu qonorarlar nə əcəbsə qalxmır. Yanlış anlaşılmasın, mən qonorar davası eləmirəm. Sadəcə, diqqət-qayğı deyəndə ağlıma başqa şey gəlmir. Nə diqqət-qayğı göstərər bilərlər ki? Uzağı, şeirlərimizin, hekayələrimizin tərcümə olunub xaricdə çap olunmasına dəstək ola bilərlər, onu da sağ olsunlar, heç vaxt eləmirlər. Ya da uyğun bildikləri adamları edirlər.

Belə deyim də, sabah hansımızınsa bəxti gətirsə, beynəlxalq aləmdə bir uğur qazansaq, adımızın yanına o saat "Azərbaycan şairi, yazıçısı" sözünü yapışdırıb fəxr edəcəklər. Ancaq bu gün şəxsən mən Azərbaycanı adımın yanında görə bilmirəm. Azərbaycan bizdən imtina eləyib. Mən ölkəmi və xalqımı sevirəm. Sadəcə, görünür, zamanında lüzumsuz gözləntilər içində olmuşuq. Hələ ki burdayıq, yaşayırıq. Ərdoğan abimizin sözünü yüngülcə təhrif edərək deyim ki, "bir gün anısızın gidebiliriz". Konkretləşdirib AYB məsələsindən danışsaq, onu deyə bilərəm ki, bu qurumun prezident təqaüdü sistemində dəyişiklik olmalıdır. Zamanında mənə AYB-dəki dostlarımız üzvlük və prezident təqaüdü təklif ediblər, amma buna getməmişəm. Səbəblərdən biri budur ki, o üzvlüyü və təqaüdü cümlə, misra yaza bilməyən adamlar da alıblar. Bəziləri yalvar-yaxarla, bəzilər tanışlıqla, xahiş-minnətlə. Təqaüdə gəldikdə, hər il 20 nəfərə ayda 200 manat təqaüd verməkdənsə, ildə 5 nəfərə hər ay tutaq ki, min manat verilsə, o müəllif bu pula kitabını da çıxarar, tərcüməsini də etdirər, hələ utanmasa, özünə iş də qurar. Etiraf edək ki, Azərbaycanda nəinki 1 ildə, heç 10 ildə 20 istedadlı şair-yazıçı yetişmir. O baxımdan ildə ortaya 20 şair-yazıçı çıxartmaq mümkünsüzdür.

Bəzi dostlar deyir ki, AYB dağılmalıdır. Mən isə düşünürəm ki, AYB sistemini dəyişsə, yaxın illərdə ən azından Türkiyə, Rusiya, İran, Gürcüstan, lap elə Ermənistan kitab bazarında, ədəbi cameəsində ədəbiyyatımızın ayaq səsləri aydın eşidilə bilər. Növbəti mərhələdə isə Avropada. Amma bunların heç vaxt olmayacağını da bilirəm və "bunda zərrəcə üzüntü duymuram".

**- Aqşin, deyirlər, şairlər bir az da paxıl olur. Bir-birini təriflməmək, skandal yaratmaq, xüsusi ilə də qadınlar arasında-yanında və.s. "Paxıllığını" bir kənara qoyub Azərbaycanda müasir beş ən yaxşı şair kimin adını çəkə bilərsən? Varmı elə bildiklərin? Yoxsa, sənin də paxıllığın var?!**

- Bu yaxınlarda Yafəs Türksəs son 70-80 ilin şairlərini 10 ballıq sistemlə sıralamışdı. Bir də gördüm, xeyli şair-yazar Üçüncü Dünya müharibəsi başladıb, ironiyanı biri 1 qəpikdən. Siyahını tapıb baxdım, gördüm mənə 8 bal yazıb. Yafəsin siyahısı etalon deyil, adam müstəqil olaraq özü üçün dəyərli olan müəlliflərin adını yazıb. Başqa biri də çıxıb başqa bir siyahı yaza bilər. Təbii, Yafəs bəyin siyahısını hamı tənqid edə bilər. Amma mən orda tənqiddən çox, bir neçə qələm adamının paxıllıqdan necə hiddətləndiyini gördüm. Heyrətləndim ki, xudaya, belə kiçik şeylərə görə saçyolduya çıxmağa hazır olan adamlar böyük ədəbiyyat yarada bilərlərmi? Bunlar elə bilirlər ki, hansısa siyahıda adları olmayanda bunların maaşlarından tutulur. Azərbaycan ədəbiyyatında bir ovuc insanıq və heç bir imtiyazımız yoxdur.

Bu nəyin paxıllığıdır axı? Sovet dövrü olsaydı, deyərdim, dərd yarı, bir kitabın puluna maşın, ev almaq olur. İndi o da yoxdur. Nəyin paxıllığını edirlər? Gör Azərbaycan ədəbiyyatı nə günə düşüb ki, o, yuxarıda sadaladığım imtiyazlara görə paxıllıq etmək səviyyəsindən hansısa statusda yer almaq çuxuruna qədər enib.

"Azərbaycan ədəbiyyatında 5 müasir şair" məsələsində gəldikdə isə onu deyim ki, mənim üçün "bəyəndiyim şair" anlayışı yoxdur, "bəyəndiyim şeir" anlayışı var. Məsələn, Salam Sarvanın, Həmid Herisçinin, Aqşin Yeniseyin, Əlisəmid Kürün və başqa şairlərimizin bəyəndiyim xeyli şeirləri var. Aralarında gənclər də var, zaman-zaman bəyəndiklərimə münasibətimi bildirirəm, bəzən özlərinə də deyirəm. Mən yaxşı şeir oxuyanda xoşbəxt olan adamam. Bu xoşbəxtliyi mənasız, məzmunsuz paxıllıq hissinə qurban verə bilmərəm.

**- Müasir gənclərdən kim var bəs? Adını çəkdiyim imzalar hər kəsə bəllidir. Gənc Aqşin Evrənin gənclərdən xüsusi olaraq seçdiyi şeir, şair varmı?**

- Elə şair var, onun 1 şeirini bəyənirəm, eləsi var 3-4 şeirini. Bəyənmək demişkən, Feysbukdakı bəyənmə düyməsi məndən ötrü "layk" funkasiyasını daşımır, o bir dəyər meyarıdır. Hansı şeiri "layk" edirəmsə, demək, orda duyduğum, heç olmasa, bircə misra var. Sadəcə, adlar çəksəm, deyəcəklər ənənəvi qaydada dostlarını tərifləyir.

Fərid Hüseynin, Elçin Aslangilin son vaxtlar yazdıqları bir neçə şeiri bəyənmişəm. İndi yadıma sala bilmirəm, amma bu adların yanına bir neçə nəfəri də yazmaq olar.

**- Müsahibə üçün təşəkkür edirik.**

- Xoş oldu. Təşəkkür və sevgilər!

**Söhbətləşdi;**
**Orxan Saffari**

# Şamaxının gözləməyən zamanı

**Azərbaycan bir ərazi vahidi kimi özünün regionları ilə göz oxşayan bir tablonu xatırlayır. Belə ki, bu tabloda hər bir bölgə özünün həm gözəlliyi, həm də özəlliyi ilə fərqlənir. Şimalla Cənubun, Qərblə Şərqin ümumi bağlılığını ilə yanaşı, onlara həm də kifayət qədər fərqli çalarları özünəməxsus xüsusiyyətləri var və bu mənada respublikamızın inkişafetməkdə olan bölgələrdən biri də Şamaxı rayonudur. Özünün qədim tarixi, hətta Azərbaycan dövlətçiliyində özəl yeri olan Şamaxı coğrafiyası ilə də rəngarəngdi. Həm Dağlıq, həm də dağətəyi ərazilərə malik olan Şamaxıda insanların yaşayıb-yaratması, aid olduqları bölgənin inkişaf etdirilməsi üçün kifayət qədər resursları var. Əgər biz Şamaxının qədim tarixindən üzü bu günə səyahət etsək, onda görərik ki, buə razi zaman-zaman diqqət mərkəzində olub. İstər yadellilər, istərsə də səyyahlar və həm də dünyanı görmək arzusunda olanlar bu bölgəyə üz tutublar. Ona görə də Cənubi Qafqazın tarixində Şamaxının yeri, onun önəmi həmişə vurğulanıbdı. Xüsusilə Azərbaycan tarixində Şamaxının bir şəhər, bir mərkəz kimi formalaşması, inkişaf etməsi, burada milli-mənəvi dəyərlərin ifadə olunması, aspektlərin rəngarəng bir şəkildə sərgilənibdir.**

Bəli, Şamaxı bu gün təkcə şəhər yox, həm də bəlli coğrafi ərazinin mərkəzidir. Bax, bu aspektdən yanaşanda, onda bir qədər keçmişə, xüsusən də Sovet dönəminə üz tutmalı oluruq. Vərəqləri çevirərkən, məlum olur ki, Sovet dönəmində Şamaxıda kənd təsərrüfatı sahəsinin inkişafına xüsusi diqqət yetirilibdi. Burada üzümçülüyün inkişaf etdirilməsi üçün planlı şəkildə böyük işlər görülüb. Ona görə də Şamaxı üzümçülərinin nailiyyətləri, həmçinin burada fəaliyyət göstərən üzüm emalı müəssisələrinin məhsulları həm respublikamızda, həm də onun hüdudlarından kənarda tanınıb və maraqla qarşılanıbdır. Xüsusilə şərab və konyan istehsalında Şamaxı emalı müəssisələrinin fəaliyyəti fərqli bir nüans təşkil edir. Təəssüf ki, Sovet dönəminin son illərində üzümçülüyə dəyişən münasibət Şamaxıdan da yan keçmədi. Və nəticədə bu sahədə ciddi tənəzzül yarandı. Bu gün isə artıq torpaqların özəlləşdirilməsi, fermer və kəndli təsərrüfatlarının fəaliyyət göstərməsi, sahibkarlığın inkişaf etdirilməsi məsələyə yeni münasibətin formalaşmasına imkan verib. Artıq həm fərdi qaydada, həm də sahibkarlıq imkanları hesabına üzümçülüyün bərpası, genişləndirilməsi istiqamətində işlər görülür. Təbii ki, bu da yeni iş yerlərinin açılması, həm ölkə, həm də xarici bazarlar üçün yüksək keyfiyyətli məhsul istehsalının genişləndirilməsi deməkdir. Şamaxı rayonunun Aran ərazisində də pambıqçılığın inkişafı da son illərdə yenidən diqqət mərkəzinə gəitirilibdi. Artıq ötən illərin statistikasına nəzər yetirəndə görürük ki, bu sahədə də ilbəil irəliləyişlərə imza atılır. Təbii ki, Şamaxıda bostan, tərəvəz məhsullarının bir kənd təsərrüfatı rayonu olaraq inkişaf etdirilməsi də önəmli sahələrdən sayılır. Bütövlükdə isə, Şamaxıda heyvandarlığın inkişafına münbit şərait də var. Yəni, Dağlıq ərazilər, dağətəyi sahələr, otlaqların olması, eləcə də yem istehsalı sahəsində müəyyən şəraitin mövcudluğu Şamaxıda maldavar saxlanılmasına geniş imkanlar verir. Bu da heyvandarlıq məhsullarının istehsalı üçün zəruri olan şərait və yaxud imkan deməkdir. Elə son illərdə Şamaxıda istehsal olunan heyvandarlıq məhsullarının artım çeşidi də göstərir ki, artıq Şamaxı sahibkarları, fermerləri bu sahəyə ciddi münasibət göstərir və yeni uğurlar əldə edirlər. Paytaxtın satış mərkəzlərində realizasiya olunan fərqli çeşidli Şamaxı ağartıları dediyimizə əyani sübutdur.




Bu gün təkcə kənd təsərrüfatı sahəsinin deyil, digər sahələrin də, xüsusilə, tikinti və sənaye sahəsinin də inkişaf etdirilməsi hər bir region üçün önəmlidir. Bu mənada Şamaxı həm turizm mərkəzi kimi, həm də sosial obyektlərin inkişaf tempi baxımından önəmli bir ünvandır. Əgər Azərbaycana üz tutan turistlərin səfər coğrafiyasına diqqət yetirsək görərik ki, onların gəzib-görmək istədikləri ərazilərin sırasında Şamaxı ön yerlərdən birini tutur. Əvvəldə də qeyd etdiyimiz kimi, bunun başlıca səbəblərindən biri Şamaxının qədim yaşayış məskəni olması, onun həm ədəbiyyat, həm də dövlətçilik tarixində özünü ifadə etməsidir. Yəni dünyanın tanınmış bir çox yazıçı və səyyahları öz əsərlərində Şamaxı barəsində xüsusi qeydlər ediblər. Təbii ki, bu da turistlərin diqqətini çəkən şərtlərdəndir. Ona görə də Şamaxıda müasir otellərin, koteclərin tikilməsi, burada infrastrukturun ən müasir formada yaradılması çox vacib şərtlərdəndir. Çünki Şamaxıya gələn hər bir turist, səyyah, elə sadə Azərbaycan vətəndaşı da həm xidmət, həm də ekskursiya baxımından sıxıntı çəkməməli, əksinə, yüksək keyfiyyətlərdən məmnun olmalıdırlar.



Doğrudur, bu gün Şamaxıda tikinti-quruculuq işləri planlı şəkildə, həm də yüksək templə aparılır. Artıq rayon icra başçısının yanında yaradılmış şuranın nəzarəti altında görülən işlər öz keyfiyyət və kəmiyyəti ilə diqqəti çəkir. Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədovun Şamaxıda həyat səviyyəsinin yüksəldilməsi üçün ölkə prezidenti tərəfindən qarşısına qoyulan vəzifələri vaxtında və tələb olunan səviyyədə yerinə yetirilməsinə nail olması Şamaxının ümumi mənzərəsini də xeyli dəyişibdir. Küçə və yolların, səkilərin abadlaşdırılması, qaz, su, rabitə, işıq məsələlərinin vaxtında öz həllini tapması sakinlər və rayon rəhbərliyi arasındakı qarşılıqlı əməkdaşlığın, anlaşmanın bəhrəsidir. Burada onu da qeyd etmək yerinə düşər ki, Şamaxıda baş verən zəlzələ və digər təbii hadisələr zamanı zərərçəkənlər həm dövlət, həm də rayon rəhbərliyi səviyyəsində göstərilən diqqət və qayğı bir daha Azərbaycan Prezidentinin və Birinci Vitse-Prezident Mehriban xanım Əliyevanın Şamaxıya olan böyük diqqətinin əyani sübutudur.

Şamaxıda aparılan tikinti işlərinin rayonun relyefinə, ekologiyasına, bütövlükdə coğrafiyasına uyğun şəkildə icra edilməsi həmişə problemli məsələlərdən olubdur. Sevindirici haldır ki, Şamaxı rayonun hazırki rəhbəri bu məsələdə göstərdiyi qətiyyətlə əlavə problemlərin yaranmasının qarşısını vaxtında alır. Həm də Şamaxıda təhsil, səhiyyə, mədəniyyət sahələrinin də inkişafına ayrılan diqqət də fikirlərimizin gerçəkləşməsində öz təsirini göstərir. Bütün bunlarla yanaşı, digər bölgələrimiz kimi Şamaxıda da müstəqil Azərbaycanın böyük inkişaf planın tərkib hissəsi olan müasir Şamaxı yaratmaq, onun sakini olmaq yolunda qətiyyətli, həm də yaradıcı addımların atılması çox zəruridir. Düşünürəm ki, bu gün Şamaxıda yeni istehsal sahələrinin yaradılması, kənd təsərüfatının daha da inkişaf etdirilməsi, sosial sahənin dünya tələbləri səviyyəsinə qaldırılması bu qədim məkanın şöhrətinə şöhrət qatacaq. Hər kəs Şamaxını görməyə, Şamaxıda istirahət etməyə, Şamaxını tanımağa can atacaqdır. Bu ən böyük mənəvi qazanc olacaq həmin istəklə yaşayan hər kəs üçün.

**Regionların İnkişafına Dair Dövlət Proqramına uyğun olaraq Şamaxı rayonunun rəhbərliyi, iş adamları, sahibkarlar, yaradıcı insanlar, bütövlükdə hər kəs əl-ələ verib Şamaxını, sözün həqiqi mənasında cənnətə çevrilməsində öz sözünü deməlidir. Bus öz zamanın sözüdür, zaman isə heç vaxt gözləmir.**

**Əbülfət MƏDƏTOĞLU**


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ


# "Nizami Gəncəvi yaradıcılığında iqtisadiyyata baxış"




*Ofelya Əhmədova,*
*İmişli rayonu Müşfiq Şirinov adına Qaradonlukənd tam orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi*


**Nizami Gəncəvi Azərbaycan, eləcə də dünya ədəbiyyatının görkəmli nümayəndələrindəndir. Nizami Gəncəvi dahi söz ustasıdır. Özünəqədərki ədəbiyyatın çatışmaz xüsusiyyətlərinə son qoyan, onu mütərəqqi ideyalarla zənginləşdirən şair ədəbiyyatımızda yeni, parlaq bir səhifə açdı. O, ədəbiyyatımıza gətirdiyi yeni ənənələrlə bu günümüzün də müasiridir. Bu isə şairin əsərlərinin hər dönəmdə aktual olduğunu göstərir.**

Məlum olduğu kimi, Nizami Gəncəvi yaradıcılığında mütərəqqi problemlərə toxunmuş, onların həllinə nail olmuş və yüksək bəşəri ideyaları tərənnüm etmişdir. Bu ideyalar şairin dünya ədəbiyyatının nadir incilərindən olan "Xəmsə"sində öz həllini tapmışdır. "Xəmsə"yə daxil olan əsərləri oxuduqca şairin sənətkarlığı qarşısında heyrətlənməyə bilmirsən. Sənətkar qələminin gücü ilə sətirlərdən insanın ruhunun qidasına çevrilən aforizmlər insanı tərbiyə edir, ona yaşamağın, mübarizə aparmağın və onlarla dəyərlərin sirrini açıqlayır. Bu əsərlər sanki istedadlı bir müəllim, qayğıkeş valideyn, ədalətli hökmdar olaraq bizləri tərbiyə edir. Təmiz, ülvi bir məhəbbətin qələbəsini öyrədir bizə bu əsərlər.

On ikinci yüzillikdən bu günümüzə qədər tərbiyə məktəbi olan N.Gəncəvi yaradıcılığının mövzu dairəsi çox genişdir. O, öz yaradıcılığında insanı düşündürən həyati məsələləri ön plana çəkmiş və onun bədii həllinə nail olmuşdur. Ədalətli hökmdar, saf, təmiz məhəbbət, əməyə, əməkçi insanlara münasibət, digər xalqlara, onların dilinə, dininə hörmətlə yanaşmaq və sairə onlarla humanist fikirlərdir Nizami Gəncəvini yaşadan. Nizami Gəncəvi yaradıcılığında insan həyatı üçün önəmli olan iqtisadi motivlər də vardır. Mən şair haqqında, onun şəxsiyyəti haqqında məlumat əldə etmək üçün bəzi mənbələrlə maraqlandım. Öyrəndim ki, "Xəmsə"yə daxil olan əsərlərində iqtisadi məsələlərə də geniş yer ayıran şairin özü qənaətlə yaşayırmış. Məhz elə buna görə də, əsərlərində qənaətlə bağlı hər cümləsi, hər sətri reallığa söykənmişdir. Mənim üçün Firudin bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" kitabında verilmiş "Şeyx Əbuməhəmməd İlyas ibn Yusif ibn Müəyyəd Nizami" adlı yazısı daha maraqlı oldu. Mən Şeyx Nizamini özüm üçün başqa bir yönümdən kəşf etdim. Firudin bəy Köçərli yazır: "Nizaminin vəsfində bir şey yazmaqda bizim qələmimiz acizdir. Həkim Xaqani onun mədhində demişdir: "Nizami dünyadan əl çəkib əhli-qənaət və saleh bir zat olduğu üçün ömrünü ibadət və riyazətdə keçirərmiş".

Firudin bəy Köçərli sonra yazır: "Atabəy Qızıl Arslanın imtahan qəsdi ilə Şeyx Nizaminin olduğu zabiyəyə gedib, onu qəribə bir halda görməyi "Atəşkədeyi-Azəri"də rəvayət olunubdur...Atabəy baxıb görür ki, bir piri-zəif bir parça keçənin üstündə əyləşib. Ətrafında başqa bir şey yoxdur, bəqeyr əz-qələm, dəvat və əcayi-piri. Əlində "Quran" və şeyx onun mütaliəsinə məşğul. Atabəy şeyxin bu halına diqqət yetirdikdə onun müqəddəs bir vücud olmağını təsdiq edir". Bəli, yalnız belə bir varlıq qənaətin nə olduğunu öz oxucularına aşılaya bilər. Və şair dünya şöhrətli "Xəmsə"sinə daxil olan hər bir əsərində insanları qənaətcil olmağa səsləyir.

Şair ilk poeması olan "Sirlər xəzinəsi"ndə yazır:

*Gizli bir hatif mənə dedi: -Möhtac olanda,*
*Borcu o qədər al ki, verməyə gücün çata.*

Bu gün yaşadığımız dönəmdə Nizami Gəncəvinin yuxarıda qeyd etdiyim misraları bizə ən doğru yolu göstərir. Bəzən elə insanlar olur ki, imkanına baxmadan, gücü çatmayan borca girir. Onu necə qaytaracağını düşünmür. Nəticədə çıxılmaz vəziyyətə düşür. Belə insanlar üçün Nizaminin kəlamları ibrətamiz deyilmi? İnsan yaşayışını təmin edərkən iqtisadi cəhətinə fikir versə, qənaətlə davransa, öz büdcəsinə görə hərəkət etsə borca düşərmi? Əlbəttə, yox. N.Gəncəvi zəhmət çəkən insanın sonda öz zəhmətinin bəhrəsini gördüyünü deyir. Şair yazır:

*Kimlər ki, çəkir zəhmət, məgər taparmı illət?*
*Məşəqqətin sonundan başlanır istirahət.*

Doğrudan da, insan halal zəhmət ilə çox şeyə nail olur. İlk növbədə əldə etdiyinin qədrini bilir, qənaətlə işlədir, israfçılığa yol vermir. İnsan əldə etdiyi qənaət hesabına həm özünü, həm də imkansız birini təmin edə bilər. Nizami bu barədə yazır:

*Ehtiyacından artıq bir az qızılı vardı,*
*Öz halal dinarını kisəsində saxlardı.*
*Bu niyyətlə Sofiya o baş çəkdi bir gecə,*
*Kisəsini əmanət verdi ona gizlicə.*

Bəli, imkansızlara kömək etmək, əl tutmaq xalqımıza məxsus ən ali hisdir. Bu gün bu hislərlə yaşayanlar çoxdur. Ulu Nizaminin yaradıcılığından bəhrələnən insanlar əl tutmaqla Nizami ideyalarının həmişəyaşar olduğunu bir daha təsdiq edirlər. N.Gəncəvi insanları nəfsin əsiri olmamağa çağırır. Nəfsin insanı fəlakətə sürüklədiyini yazır. Yaşadığımız dönəmdə öz nəfsinin əsiri olan insanların nələrə məruz qaldığının canlı şahidiyik. Həbsxana, ölüm-itimdir nəfsin sonu. Şair yazır:

*Nəfs vurub dağıdır hər cür qayda-qanunu,*
*Qoy qənaət qılıncı vursun nəfsin boynunu.*

İnsan yaşayışını təmin etmək üçün qənaəti ön plana çəkməlidir. Əgər belə olarsa, onda nəfs ona güc gəlməz.

Nizami Gəncəvinin qənaətlə bağlı kəlamlarına "Xosrov və Şirin" əsərində də rast gəlmək olur. Şair yazır:

*Su artıb həddini aşarsa əgər,*
*İçəni doydurmaz, mütləq qərq edər.*

Şair bir inci saflığı olan sudan da qənaətlə işlətməyi tövsiyə edir. Hazırkı dövrdə bəzi insanlar sudan kor-koranə istifadə etməklə israfçılığa yol verirlər. Nəticəsi isə ağır olur. Nizami Gəncəvi yaradıcılığında dəb əsiri olan insanlara da münasibətini bildirir. İnsanda həddindən artıq bər-bəzəyi, geyim-keçimi pisləyir. Həddindən artıq istifadə olunan hər bir şey harama gətirib çıxarır. Bunun isə xeyri olmur. Çünki haram olan yerdə bin-bərəkət olmaz.Mən Nizami Gəncəvinin əsərlərindən gətirdiyim nümunələrin iqtisadi həyatımızda nə qədər böyük əhəmiyyət kəsb etdiyini bir daha yəqin etdim. Dünyanı bürüyən iqtisadi böhrandan qorunmaq üçün ölkəmizdə aparılan iqtisadi siyasətin düzgün təşkilində Nizami Gəncəvinin yaradıcılığındakı iqtisadi motivlər bizim üçün önəmlidir. Hər birimiz qənaət etməklə iqtisadiyyatımızı daha da möhkəmləndirə bilərik. Nizami Gəncəvinin söz dünyası bizim üçün örnəkdir. Biz bu dünyadan - Nizami Gəncəvi dünyasından bəhrələnərək onun arzularını gerçəkləşdirib əsl insan kimi - qənaət etməyi bacaran insan kimi yaşayarıq. Bu isə N.Gəncəvi yaradıcılığının bir zaman aktual olacağından xəbər verir.

**Nizami Gəncəvi təkcə dünənin deyil, bu günün deyil, eyni zamanda gələcəyin söz xiridarıdır. O, sözlərə elə sığal çəkib ki, yaradıcılığında elə məsələlərə toxunub və onun həlli yolunu göstərib ki, onlar böyük şairi həmişəyaşar edəcək. Nə qədər ki, bəşər övladı yaşayır Nizami Gəncəvi də yaşayacaq. Dünya ədəbiyyatında özünəməxsus yeri olan əsərləri yaşadacaq Nizami Gəncəvini, qədirbilən xalqı yaşadacaq özündən sonra böyük bir ədəbi məktəb qoyan, sözə dəyər verən ustad sənətkarı.**

# Fərqli dəst-xətt şairi

## Əlizadə Nurinin "Su notu" kitabı ətrafında düşüncələr

**Hələ ötən əsrin 80-ci illərin sonlarında Cəlilabadda iki şairin imzası diqqətimi cəlb etmişdi. Salam (onda Sarvan deyildi) və Əlizadə Nuri. İki orijinal imza, iki ənənəvi, lakin fərqli dəst-xətt, özlərindən əvvəl imzalarını tanıdım, sonra hər iki şairi tapıb görüşdüm, sevdim...**

Əlizadə Nurinin isti-isti çıxmış "Su notu" kitabı (şeirlər və poema. Bakı, "Gənclik" nəşriyyatı. 176 səh) qarşımdadır. Toplunun adı sanki sirli-sehrli qapıdır, oxucunu hələm-hələm içəri buraxmır, gərək açmasına bələd olasan. Bu orijinallığa şair daha bir bənzərsizlik əlavə edib. Ön söz yerində hansısa görkəmli qələm adamının məqaləsindən vaz keçib, tanınmış imzaların rəylərindən parçalar verib. "Əlizadə Nuri çox yığcam danışır, böyük mətləbləri sıxıb şeir qəlibinə sığışdırmağı bacarır. Sənətdə bu, mühüm keyfiyyətdir".(Məmməd Araz). Və ya haçansa xalq yazıçısı Anarın yazmış olduğu səmimi sözlərinə diqqət yetirək. "Əlizadə Nuri özünün səmimi obrazlarla zəngin şeirləri ilə gənc şairlərin sırasında öz layiqli yerini tutur". Keçək, "Su notu"na. Musiqidə yeddi not, təbiətdə isə yeddi rəng mövcuddur. Amma istər musiqinin, istərsə də rənglərin onlarla çaları var. Su-təbiətin döyünən ürəyi, mövcudluğun təzahürüdür. Onun isə yüzlərlə notu var və Əlizadə Nuri mahir ifasıyla bu notların hər birinin fəlsəfəsinə varır, onlara qulaq asır, rayihələrini duyuruq. Sular not-not çevrilir sözlərə və ürəyimizə, ruhumuza, təfəkkürümüzə süzüldükcə, sirrini-sovunu, sehrini görür, qeyri-adi bir aləmdə özümüzü hiss eləməyə başlayırıq.

Onu da deyək ki, Əlizadənin şeirləri olduqca qısa, lakonik və konkretdir. Lap atalar sözləri kimi... Bu dəqiq, gözəl mətnlərin kökü xalq təfəkkürüdür və müəllifin isə ən böyük orijinallığı və kəşfi ondan ibarətdir ki, o, ulu mənbədən, əski qaynaqdan barlana bilib. Kitabdakı ilk şeirin son bəndinə diqqət edək:

*Göz yaşlarım ləldi deyib,*
*Kədər də gözəldi, deyib,*
*Bu dünya düzəldi, deyib,*
*Səni aldatmağım gəlir...*

"Səni aldatmağım gəlir" həqiqətən kimisə aldatmaq deyil, "Aldanma ki, şair sözü əlbəttə yalandır" - Füzuliyanə anlamıdır. Belə sehirli misralarla, bəndlərlə toplunun hər səhifəsində rastlaşırsan. "Ömür-yanmış zəmi kimi..." son dərəcə gözəl poetik qıfılbəndə malik şeirdə deyim tərzinin sərrastlığı, ustalığı dərhal nəzərə çarpır.

*Bizi sevgi fəsli çəkir...*
*Bir ilahi səsmi çəkir?*
*O kimdi, eşq rəsmi çəkir,*
*Sinəmin kətan yerinə?!*

İnandıra bilmək bacarığı... Məncə, Əlizadə nədən yapışırsa, hardan mövzu tapırsa, həmin mətni ürəyinin bütün nöqtələrindən keçirir. Onu xəmir




kimi yaxşıca yoğurur, acımağa qoymur, məqamında kündələyib təndirə yapır. Bu zaman çörəyin-məhsulun ətri dərhal hamını vurur, sehrinə salır. O zaman həssas oxucu şairin "bir kilsədə müsəlmanam" səmimiyyətinə də haqq qazandırır, "darıxmağın rəsmi"nə də inanır, "mənim pəncərəmdə ağlayan yağış"a da mərhəm-mərhəm tamaşa qılır.

*Bir az sehirbazsan, bir az sehirsən,*
*Bəlkə bu dünyanı "unut" deyirsən?*
*Bəsdi ağladığın, - uşaq deyilsən,*
*Mənim pəncərəmdə ağlayan yağış.*

Müəllifin "Dua", "Sevgi", "Sevinc axşam düşəcəkdi", "Tənha qadın", "Söz", "Günün də gününə gün ağlayırdım", "Bu yağışda yollar azar", "Bölə bilmədiyim tək hecayam mən", "Payız serenadası", "Yük", "Yollar -yerin üstündəki qırışdı", "Şəhər valisinə məktub", "Kül", "Dərdin dadı", "Sən evin neynirsən, evi yıxılmış", "Dünya boyda imarəti neynirəm", "Hər il bu ömürdən bir ağac sınır", "Mizrabı qırılan tara nə düşdü?", "Çaylaşrı çevirdim... qumu göründü", "Sənin adına şəhər", "Payız" şeirləri forma-məzmun etibarı ilə çox maraqlı detallarla, obraz və metaforalarla zəngindir. Əlizadənin şeirlərinin ən nəzərəçarpan, bariz xüsusiyyəti sözü necə deyərlər, "acı bağırsaq kimi uzatmamaqdır". O, uzunçuluq eləmir, harda nöqtə qoymaq lazımdır, dərhal qoyur. Bu zaman həm bədii mətn yığcam formaya düşür, həm də "gününə ağladığı oxucusu" nəfəs dərir.

Misalları isə kifayət qədər artırmaq olar:

*Hər sözün canında bir dünya yatır,*
*Sözün uyuduğu balaca dam var.*
*Mən tək deyiləm ki, mənim içimdə*
*Özümə oxşayan tənha adam var...*
***
*Odu atıb getmiş bu kül kimiyəm,*
*Yolda azıb qalan fikir kimiyəm...*
*Mən çoxdan çəkilmiş şəkil kimiyəm,*
*Hansı albomunda soluram sənin?..*
***
*Bir quşun qanadında*
*Bir azca dən göndərin.*
*Hər yanım qürbətdi ki,*
*Bir az Vətən göndərin.*

Əlizadə Nurinin şeirləri Azərbaycan türkcəsində işlənən sözlərin "qızıl külçələridi", oxuduqca, dilin nə qədər incəliyinin və imkanlarının böyük təzahürünü görürsən, heyrətlənirsən, mat-məəttəl qalırsan. Şairin istedadının ilahi qüdrətinə, tükənməzliyinə və bir də şübhəsiz, ana dilimizin potensialına. O, sanki dəryada üzən qəvvasdı, ən təlatümlü dalğalarla üz-üzə, ən dərin sularla göz-gözədi və meydan oxuya-oxuya öz qalib bayrağını şahanə surətdə başının üstündə tutub. Sevgilisinə "sənin ad gününə qəsdən gecikdim" deyir, "bəlkə qürubu var yer üzünün də?" şübhəsiylə Tanrıya fikrini bildirir, "o qadına məktub"unda sarsıldığının fərqinə varır və sonda "bu ömür islanmış kağızmış, Allah" qənaətinə bulunur. "Söz-söz doğmalaşan o bənd biz idik" adiliyinin zirvəsinə qalxır:

*Bu sirrin üstündə rübənd biz idik,*
*Bəxti gətirməyən o bənd biz idik.*
*Söz-söz doğmalaşan o bənd biz idik, -*
*İndi bu nəğməni biz nədən bölək?..*

Bəzən ilk baxışdan şairin "Allah" və ya "İlahi" sözlərinin həddən ziyadə çox işlənməsini kiçik xəta da adlandırmaq mümkündü. Lakin unutmayaq ki, yüksək səviyyəli bədii mətn həm də çıxılmazlıq sindromudu, bu labirint söz sahibini buna vadar edir.

Axı, şair özünə sual verəndə "üfüqləri kim çəkibdi tarıma?", təbii şəkildə Tanrı obrazı kəlməbaşı boy göstərir. Onda həqiqət çılpaqlığı ilə açılır, "ilahi, bir qadın sevirdi məni" məntiqinə şübhə yerin qalmır. Yaradan bütün qüdrəti ilə öz taxtından sənə göz qoyur.

*Gedib mənim qəbrimi qaz, -*
*Məni unutduğun yerdə.*
*Ürəyində bir şam yandır,*
*Adımı tutduğun yerdə.*

**Yeri gəlmişkən, Azərbaycan hecasında minlərlə irili-xırdalı yazar qələm sınayıb. Əlizadə Nurinin xoşbəxtliyi ondadır ki, fərqli dəst-xətt və düşüncə şairidi, heca şeirimizin tükənməzliyini nümayiş etdirmək üçün ciddi axtarışlar, improvizələr aparır və sonda zəhmətinin nəticəsi kimi yeni kəşflərə imza atır. Mən bunu başqa onlarla şeirində, beytlərində və lirik "Təbrizdə payız" poemasında gördüm!**

**Ağacəfər Həsənli**

# Belə məkan idi mənim Laçınım

**Deməli, Şuşanı keçib Laçına getmək istəyirsən, eləmi! Onda yam-yaşıl meşələr alacaq qoynuna səni. İlan kimi qıvrılrmiş yollarla şütüyən maşın silkələyəcək səni. Yazda getsən çiçəklərin ətri məst edəcək səni, yayda getsən ayna bulaqlar güləcək üzünə. Əyilib su içəcəksən, sərinlik hopacaq ürəyinə, "oxay" deyəcəksən öz-özünə. Dağ ucalığı görəcəksən, qaya sərtliyinə baxacaqsan. Bəzən də dağların döşündə salınmış yaşayış məntəqələrini görüb deyəcəksən, bu nə mənzərədir görürəm, yoxsa nağıllar dünyasına düşmüşəm. Gecələr sənə elə gələcək ki, medalyondu asılıb bu yerin boynundan.**

Bəli, əziz öxucu Laçının mənzərəsi əsil nağıldı. Ay, ulduzlar adama o qədər yaxın görünür ki, san ki, əlini uzatsan çatar. Meşələr təbiətin çiyninə atılmış yapıncını xatırladır. Bu yapıncının altında yaşıl köynəkdir çəmən elə bil. Dərələr Laçının belinə bağlanmış kəmərə oxşayır. Bu torpağın hörüyüdür elə bil. Arzusu quş kimi səkəndi bu yer. Bax belə, bax belə məkandı bu yer.

Belə bir məkanda yaşayırdı laçınlılar. Bir tərəfdən nağıllaşmış təbiət artırırdı insanların ruhunu, digər tərəfdən isə bu təbiətin üzərinə əbədi qonmuş xoş gün, səadət. Ona görə də insanlar burada yaşamağı çox sevirdilər və çox da yaşayırdılar. Əbəs yerə demirlər ki, dağda yaşayan adamlar sağlam və uzun ömürlü olurlar. Burada insanların yediyi bütün növ ərzaq məhsulları, meyvə-tərəvəz dərmansız və təmiz olurdu. Laçının özünə məxsus təbiəti olduğu kimi, özünə məxsus da relyefi var. Laçın dağları gözəlliyi qədər də zəhimlidir.

### *Laçınlılar qurub-yaratmağı çox sevirlər*

***Adamlar bağlı-bağatlı məhlələrdə tikdikləri yaraşıqlı, rahat evlərdə yaşayırdılar. Elə bir ailə olmazdı ki, yayda onun başqa bölgələrdən qonağı olmasın. İyul-avqust aylarında insanlar açıq havada oturanda da pencəklə əyləşirdilər. Rayonun bütün zonalarına avtobus marşrutu vardı. Kəndlərdə mədəni-maarif, səhiyyə, məişət, rabitə və s. xidmət sahələri fəaliyyət göstərirdi.***

Mingəçevirin işığı bütün kəndlərdə bərq vururdu. İnsanlar radio və televizorun qarşısında oturub istədikləri verilişlərə baxırdılar. Rayon mərkəzində xalq teatrı, musiği məktəbi, üç orta, bir orta texniki-peşə məktəb, mədəniyyət evi və s. fəaliyyət göstərirdi. Laçının görməli yerlərindən biri də tarix-diyarşünaslıq muzeyi idi. Muzeydə nümayiş etdirilən sənəd və əşyalar rayonun tarixini öyrənməyə kömək edirdi. Laçınlıların Sovet hakimiyyəti uğrunda mübarizəsindən başlayaraq, Böyük vətən müharibəsinədək göstərdikləri qəhrəmanlıq muzeyin eksponatlarında parlaq surətdə əks etdirilirdi. Ümumiyyətlə, rayonda adamların istirahəti üçün hər cür şərait yaradılmışdı. Bədbəxt Ermənistana gedən qaz xətti Laçının ərazisindən keçirdi. Rayonun kəndlərinə qaz xətti çəkildikdən sonra adamlar yaşayış evlərini istilik sistemi ilə qızdırırdılar. Buranın toyları da maraqlı keçirdi. Qarabağın adlı-sanlı, tanınmış xanəndələrini gətirirdilər toylara. Yas mərasimlərini islamı dəyərləri, dinimizi mükəmməl bilən adamlar aparırdılar. Rayonda və mahalda tanınan Molla Mehti, Molla Müseyib, Molla Əli məclislərdə İslam Dinini elmlə elə əlaqələndirirdilər ki, gənclər də onların söhbətindən bəhrələnirdilər.

Keçmişdə savadlıları barmaqla göstərilən Laçın başdan-başa savadlılar məkanına çevrilmişdi. Bu gün də Laçın rayonunun orta məktəblərini bitirən gənclər ölkəmizdə və Dünyanın ali məktəblərində təhsil alırlar. Laçının alimləri tək Azərbaycanda deyil, Dünyanın inkişaf etmiş ölkələrində də tanınır, elmi konfranslarda, simpoziumlarda tribunalardan səsi gəlir. Laçının təkçə Minkənd kəndindən 40 yaxın alim yetişib. Hələ 1890-cı ildə bu kənddə rus-tatar məktəbi fəaliyyət göstərmiş, məktəbi bitirənlər isə xarici ölkələrdə ali təhsil alıb, müxtəlif sahələr üzrə dünyada tanınmışlar. Yeri gəlmişkən deyim ki, bu kəndin adının yaranması ilə bağlı xalq etnologiyasında deyilir ki, əmir Teymur 999 kəndi işğal edib, mininci kəndi də alandan sonra bu kəndi min kənd adlandırır. Minkənd orta məktəbini bitirən gənclərin əksəriyyəti dəqiq elmlər üzrə təhsillərini davam etdirirlər. Hətta bu kənddə elə ailələr var ki, onlardan iki-üç nəfər elmlər namizədi və ya elmlər doktorudur. Misal üçün, Əli Cəfərovun oğlanlarından Maarif Cəfərov Azərbaycan Dövlət Universitetində çalışır, elmlər doktoru, professordur. Qardaşı Zəfər Cəfərov Azərbaycan Texniki Universitetinin dosentidir. Ailənin böyük oğlu Arif Cəfərov ali təhsilli inşaatçıdır, böyük tikinti təşkilatlarından birinə rəhbərlik edir. Dövlət başçısının fərmanı ilə "Tərəqqi" medalı ilə təltif olunub. Qızı Almas xanım əməkdar müəllim kimi valideyinlərin hörmətini qazanıbdı. Əli müəllimin özünün riyaziyyata aid iki kitabı nəşr olunubdur. On dörd nəvəsinin hamısı magistraturanı bitirib. Burada çalışan müəllimlərin əksəriyyətinin fəxri adları var. İndi də məktəbə vaxtı ilə buranın məzunu olmuş, ölkə başçısının fərmanı ilə "Tərəqqi" medalına layiq görülmüş İlqar Şahverdiyev rəhbərlik edir.



### *1924-cü ildə*

***Laçın təşkil olunanda, rayon mərkəzi seçmək üçün gəlmiş rəhbər işçilər deyirlər ki, İrana və Ermənistana gedən yol burdan keçdiyi üçün rayon mərkəzi bura olmalıdır. Gözəl havası, allı-güllü yaylaqları, soyuq bulaqları, gəzməli-görməli yerləri valeh edirdi insanı. Bu yerlərin gözəlliyini çəkməyə bir rəssam ömrü də çatmazdı. Əsərləri ilə insanı valeh edən xalq rəssamı M.Rəhmanzadənin yaradıcılığının bir hissəsi Laçına həsr olunmuşdur.***

Laçın qədim və müasir dövrün ənənnələrini yaşatmaqla, təkcə gözoxşayan füsünkar təbiəti ilə yox, həm də keçmişdə yaşamış və indiki ziyalıları, tarixi şəxsiyyətləri ilə məşhurdur. Xalq cümhuriyyəti yarananda ilk hərbi nazir, sonralar Qarabağın general qubernatoru olmuş Xosrov bəy Sultanov, qardaşı, Laçının qorxmaz, igid oğlanlarını başına yığıb Qarabağa gedən Andranikin qoşununu Zabux kəndi yaxınlığında darmadağın etmiş Soltan bəy, 1918-ci ildə Dağlılar Respublikasının Xalq Maarif naziri, Azərbaycan Demokratik Respublikası Maarif Nazirinin müavini, sonra maarif və dini etiqadlar naziri, 1943-cü ildə isə Azərbaycan Tibb İnstitutunda rus dili kafedrasının müdiri işləmiş Nurməmməd Şahsuvarov, Almaniyada təhsil alaraq, Hamburq institutunda işləmiş, orada elmlər doktoru, professor elmi dərəcəsi alan, Azərbaycanda tibbi kadrların hazırlanmasında xüsusi xidmətləri olan Mürsəlbəy Şahsuvarov, Zəngəzur qəza xalq maarif şöbəsinin müdiri olmuş, Laçın rayonunun bir çox kəndlərində gözəl, yaraşıqlı məktəblər tikdirmiş, xalqın maariflənməsində böyük işlər görmüş Müseyib İlyasov və bir çox başqalarının adını çəkmək olar.

***Xalq yazıçısı Süleyman Rəhimov hələ o dövrdə yazırdı: "Məşhur Qori seminariyasını bitirən, Şuşada açılan Darül müəlliminin ilk təşkilatçısı və müdirlərindən olan, sonralar Zəngəzur Qəza Maarif şöbəsinin müdiri vəzifəsində çalışan Müseyib İlyasov bir fədamücahid kimi hərəkət edir, dağ obalarının hamısında maarifin, mədəniyyətin yayılmasına çalışır, sözün əsl mənasında, cəhalətə qarşı çarpışır!***

Gələcək nəsillərə örnək olacaq igid ərənlər, tarixi şəxsiyyətlər yetişdirib bu torpaq, o, torpaq ki, orada bizim babalarımızın, atalarımızın, əzizlərimizin məzarları yerləşir. O, torpaq ki, otuz ilə yaxın bir dövrdə bizim üçün əlçatmaz olmuşdu. Laçının tarixi abidələrindən qədim alban kilsəsi, tağbənd körpülər, qəbirüstü daşlar və s. müxtəlif sivilizasiyaların izlərinin daş yaddaşı kimi qiymətləndirilir. Laçın hündür dağlar, geniş çəmənliklər, firuzə donlu yaşıllıqlarla əhatə olunmuşdur. Rayonun ərazisindəki çoxsaylı buz bulaqlar yay ayları qonaqlı-qaralı olurdu. Həmzə bulağı, Əli bulağı, Əzətin bulağı, Buz bulaq, Ağ bulaq, Qənbər bulağı, Qoşa bulaq, Dəhnə bulaq, Sarı bulaq, Qiblə bulağı, Gur bulaq və onlarla başqaları 30 ilə yaxın dövrdə nəmli gözlərini yollara dikərək laçınlıların yenidən onların yanına qayıdacaqları günün həsrətindədilər.

Dünyadan Laçın həsrətilə gedən, məlahətli səsilə hamının sevimlisi olmuş "Laçınım mənim" mahnısı ilə laçınlıların qəlbini ovunduran, ağlayan, çağlayan Həkərinin ah-naləsini sanki Dünyaya çatdırmaq istəyən Məhəbbət Kazımov oxuduğu həmin mahnının bir yerində deyir:

*"Ağlayan, çağlayan həkəri həsrəti,*
*Sevincim, kədərim Laçınım mənim."*

Bəli, otuz ilə yaxın bir dövrdə Həkəri çayı ağladı, çağladı, coşdu, kükrədi, sahili aşdı. Sanki, bununla demək istəyirdi ki, hazırkı Dünyada haqq-ədalət, qanun, insaniyyətlik, vicdani təmizlik və s. yoxdur. Mənbəyini Laçın dağlarından alan Həkəri bu gün füsunkar təbiəti ilə insanı valeh edən bu yerlərə yaraşıq verir. Qucağını illərdir həsrətində olduğu sakinlərinin üzünə açaraq gəl-gəl deyir onlara.

### *Rayon mərkəzinin*

***özündə bir neçə marşrut avtobusu vardı. Bütün kəndlərdə yaşayış üçün hər cür şərait yaradılmışdı. Açığını desək bəzi adamlar elə hesab edirdilər ki, böyük şəhərlərdə, çoxmərtəbəli binalarda yaşamaq, hər şeyi mağazadan almaq daha rahat, daha yaxşıdır. Hətta gileylənənlər də olurdu. Belə yerdə ataların bir sözü yada düşür: "Köhnə yurdun qədrini təzə yurdda bilərlər!***

Dövlət səviyyəsində Laçına qayıdanda hər şeyi yenidən başlayacaq laçınlılar. Rayonun Kəlbəcərlə sərhəddində Beynəlxalq aeroportun tikilməsi hər iki rayona turist axınına və bu sahədən milyonlarla gəlir götürülməsinə səbəb olacaq. Həm də bu zonada yaşayan adamlar bəhrələnəcəklər bundan.

Adam bu dünyada qismətinə düşəni yaşayır. Heç kim öz alın yazısının müəllifi deyil. Tanınmış filosoflardan biri deyir ki, talehdən qaçsan da, qismətdən qaça bilməzsən. Görünür laçınlıların qisməti beyləymiş. Tarix ən böyük hakimdir. O, hər şeyi zamanı çatanda öz yerinə qoya bilir, sahmanlaya bilir, necə deyərlər, yağı yağ, ayranı ayran edir. Burada məşhur bir tyürk şairinin fikri yada düşür: "Zülmün topu, topxanası varsa, haqqın da bükülməz qolları var. Herakl deyirdi ki, "xalq öz doğma divarları uğrunda döyüşdüyü kimi, ədalətli qanunlar uğrunda da döyüşməlidir."

### *Azərbaycanın igid oğulları*

***otuz ilə yaxın bir dövrdə düşmən tapdağı altında qalmış torpaqlarımızı canları, qanları bahasına azad edib tarix yazdılar. Hələ Dünya tarixində görünməyib ki, bir dövlət başqa bir dövlətin iyirmi faiz torpağını işğal etsin, otuz ilə yaxın bir dövrdən sonra həmin torpaqlar azad edilsin. Bəli, bu gün qürur hissi ilə deyə bilərik ki, bu ancaq türk oğlanlarının, Azəri türklərinin hesabına oldu. Tarix sübut etmişdir ki, türk oğlu ölümdən qorxmur, onun gözünə dik baxır. Dünya fatehlərindən biri, Fransanın hökmüdarı Napoleon Bonapart deyirdi ki, mənə türk əsgəri verin bütün dünyanı zəbt edim.***

Eşq olsun belə oğullara! Şəhidlərimizin adı hər bir azərbaycanlının qəlbində daim yaşayacaqdır. Onlar cəmiyyətimizin qürur mənbəyidir, sevincidir, qeyrət, zəfər zirvəsidir. Şəhid sözünün tərcüməsi yoxdur. Torpaqlarımızın azad olunmasında Laçının da igid oğulları şəhid olub. Birinci və ikinci Qarabağ müharibəsində yüzlərlə laçınlı gənc şəhidlik zirvəsinə yüksəldi. Beş milli qəhrəmanı bu gün də laçınlılar yad edirlər.

Laçın həm də yeraltı və yerüstü sərvətləri ilə məşhur idi. Burada civə, dəmir filizi yataqları, tikinti materialları, müalicə və mineral sular mövcud idi. Laçın rayonun ərazisində 15 çalardan çox mərmər yataqları, qırmızı palıd, dərman bitkiləri, meşələrdə müxtəlif meyvələr və s. vardı.

Yaylaqları yüz minlərlə qoyun sürüsünü gizlədirdi qoynunda. Minkənd zonasında olan "Qara" göl yaylağı, bu gölün adı ilə bağlıdır. "Qara" göl böyük bir ərazini tuturdu. Bu gölün suyu dibindən çıxıb, dibindən də axırdı. Ermənilərin isə yaylaqlarında suyu yox idi. Bir dəfə bu bədbəxtlər Laçın rayonunun yaylaq sakinlərinə deyirlər ki, icazə verin bizim heyvanlar da bir cığırla gəlib burdan su içsin. Bizim adamlar da etiraz etmirlər. Bu minvalla bədnam ermənilərin də mal və qoyun sürüləri göldən su içir.

***Göldə müxtəlif növ balıq olurdu. N.S.Xruşov SSRİ-nin rəhbəri olanda ermənilər həmin gölü xəritəyə salıb dedilər ki, gölə gələn cığırın tuşundan, gölün yarısı bizimdir. Beləliklə, ermənilər "Qara" gölün yarısına sahib çıxdılar.***

Yuxarıda deyildiyi kimi, keçmişdə və sonralar da Laçının qeyrətli, igid, qorxmaz, ölümün gözünə düz baxan, vicdanı təmiz, mənəvi paklığı, əqidəsi, mənəviyyatı, nəfsinə hakim olması ilə tanınan, bu gün də laçınlıların yaddaşında qalan kişilər olub və indi də var. Onların hamısının adını çəkmək mətbuatda mümkün olmadığını yəqin onların yaxınları başa düşüb məndən inciməzlər. Hüseyn Abdullayev, Həsənalı Baxışzadə, Məmməd Məlikov, Həzi Həsənov, Hüseyn Həsənov, Aydın Şahverdiyev, Həsənxan Həsənov, Qasım Dostuyev, Əliş Tanrıverdiyev, Bahadur Qarayev, Lətif Məhərrəmov, Rəhim Rüstəmov, İskəndər İskəndərov, Tofiq Nəcəfov, Məhərrəm Şahsuvarov, Umud Məmmədov və adları burada çəkilməyən adamların övladları, nəvələri də bu gün onların yolunu davam etdirirlər. Bu insanların üzbəüz tənqid etdiyi adamlar da onların qərəzsiz tənqidlərindən incimir, səhvlərini düzəldirdilər. Bu insanlar özü bütöv adamlar idi. Boğazdan yuxarı danışmaq onlara xas deyildi.

İndi də bir çox laçınlının yaddaşında qalan bir məsələni qısaca yada salmaq istəyirəm. Keçmişdə başqa yerdən Laçına göndərilmiş partiya komitəsinin birinci katibi rüşvət almaqla məşğul imiş, bunu da hamı bilirmiş. Bir gün rayon partiya komitəsinin bürosunda adını bilərəkdən çəkmədiyim bir nəfər oğru baçısı partiya sıralarına qəbul edilir. Büro üzvlərinin hamısı həmin adamı oğru başçısı kimi tanıyırmış. Həmin vaxt raykomun büro üzvü olan, indi də adına Azərbaycan Ensiklopediyasında rast gəldiyimiz Rza Mirzəyev partiya biletini qoyur birinci katibin stolunun üstünə. Katib soruşur ki, nə demək istəyirsən? Rza Mirzəyev deyir ki, mən filankəs olan partiyada olmaq istəmirəm.

Bax bu idi əsl kişilik, sözü üzə demək.

Əziz oxuyucu, səni yorduğuma görə bağışla məni. Mən uzunçu deyiləm, görünür, doğulub boya-başa çatdığım yerlərin həsrətidir ürəyimdən keçənləri ağ vərəqə yazıram. Gün o gün olsun ki, Laçın haqqında bildiklərimizi, yazılarda oxuduqlarımızı oraya yenidən qayıdıb gözlərimizlə görək.

Yollar təkcə getmək üçün deyil, insanlar bu yolla həm də geri dönürlər.

**Bax beləcə əziz oxucu! Ömrümüzün nə vaxt gəlib keçdiyini hiss etmirik. Bir də gözümüzü açırıq ki, ömrün yarıdan çoxu keçib. İlləri, qərinələri arxada qoymuşuq, üzümüzü göy üzündəki buludlara tutub Tanrıya şükür edə-edə ömür karvanımızı bu gündən sabaha sürükləyirik. Bizlərə qalan isə zaman olur, zamansa öz hökmünü zamanında verir.**

**Vaqif Şükürov**
**Laçın şəhər sakini, birinci Qarabağ müharibəsi veteranı**

## *Ramil Əhməddən yeni kitab*




**Ədəbiyyatşünas, şair Ramil Əhmədin "Orxan Pamukun Evində" kitabı Hədəf nəşriyyatında işıq üzü görüb.**

Kitabda Ramil Əhmədin Ədəbiyyat üzrə Nobel mükafatı laureatı, türk yazıçısı Orxan Pamukla tanışlığının, görüşünün detalları, eləcə də ədibin evində gerçəkləşən söhbətləri yer alıb. Bu kitabın bəzi hissələri mətbuatda işıqlandırılsa da kitabda daha öncə yayımlanmayan yazılar, fotolar və Pamukun yaradıcılığına aydınlıq gətirən detallar var. Orxan Pamuk ilk dəfə bu kitabda yarımçıq gənclik romanından, gələcəkdə Məsumiyyət Muzeyinin qapalı qutularında sərgilənəcək əşyalardan, romanlarında ailəsindən gələn detallardan, evdəki "zəka terrorundan" qaçıb ədəbiyyata sığınmasından bəhs edir.

Kitabda həm fiziki mənada Orxan Pamukun İstanbulda yaşadığı evindən, həm də məcazi mənada onun sözlərlə qurduğu ədəbiyyat evindən söhbət açılır.

**Emin Piri**

## *Meyxanaçı Aygünlə duet oxudu, virusa yoluxdu, xəstəxanaya yatırıldı: Moskvadan yeni xəbər...*



**Bildiyiniz kimi, xalq artisti Aygün Kazımova ilə meyxanaçı Namiq Qaraçuxurlu Moskvada keçirilən məclislərdən birində eyni səhnəni bölüşüblər və illər sonra yenidən bir araya gəliblər. Bir zamanların məşhur duet ortağı olan ikili, "Sevirəm" adlı hitlərini ifa ediblər.**

Onların məclisdən lentə alınan görüntüləri sosial şəbəkələrdə yayıldı. İfaçıların yenidən bir araya gəlməsi hər kəsin marağına səbəb oldu.

Adalet.az xəbər verir ki, sevilən meyxanaçı Namiq Qaraçuxurlu koronavirusa yoluxub.

Deməli, meyxanaçı Bakıya qayıdarkən virusa yoluxduğundan xəbərdar olub.

Belə ki, koronavirus testi nəticəsi pozitiv çıxdığı üçün Namiq Qaraçuxurlunu hava limanından geri qaytarıblar. Hazırda müğənni-meyxanaçı Rusiyada xəstəxanada müalicə alır.

Bu gün aldığımız məlumatlara görə, Namiq Qaraçuxurlunun səhhətində baş verən problemin aradan qalxması üçün peşəkar həkimlər əllərindən gələn köməyi göstərirlər.

**Xatırladaq ki, illər öncə meyxanaçının keçmiş həyat yoldaşı Solmaz Şükürova "Bizi Aygün ayırdı..." - deyə bir açıqlama vermişdi. Qeyd edək ki, 30 avqust 2001-ci ildə rəsmi nikaha girən keçmiş cütlük 2 dekabr 2005-ci ildə boşanıb. Bu evlilikdən onların iki övladı Ümid və Ülvi adlı oğlulları doğulub. Namiq Qaraçuxurlunun rəsmən ikinci evliliyi 2015-ci ildə baş tutub. O şou aləmində Gaga ləqəbiylə tanınan xanımla ailə qurub. Bu xanım bir neçə il öncə tanınmış müğənni Rüfət Axundovun "Qəlb evimdən çıxdı getdi" mahnısında rol alıb. Hazırda cütlüyün Sara adlı bir qız övladı var.**

**Nəisə, Allah saxlasın...**

**Əntiqə**

## *Dünyaca məşhur azərbaycanlı xoreoqraf BXA-nın qonağı olub*



**Dünyaca tanınmış xoreoqraf, Rusiyanın Əməkdar incəsənət xadimi, Mariinski Teatrı Primorsk səhnəsinin baş baletmeysteri Eldar Əliyevlə Bakı Xoreoqrafiya Akademiyasının (BXA) qonağı olub.**

**BXA-nın Tədris işləri üzrə prorektoru, rektor vəzifəsini müvəqqəti icra edən Əziz Qarayusifli qonağı pedaqoji heyətlə tanış edib.**

**Sonra Eldar Əliyevə akademiyada həyata keçirilən islahatlar, BXA-nın gələcək planları və tədris prosesi barədə məlumat verilib. Görüş əsasında xoreoqrafiya təhsili sahəsində yeniliklər, tələbə-müəllim heyətinin mübadiləsi, tədris metodikası haqqında müzakirələr aparılıb.**

**Eldar Əliyev də öz növbəsində səmimi qarşılanmayan görə akademiya rəhbərliyinə təşəkkür edərək BXA-nın Rusiyanın ali təhsil müəssisələri ilə əməkdaşlığının inkişafı üçün dəstək verəcəyini vurğulayıb. Xoreoqraf onu da qeyd edib ki, ali təhsil müəssisələri ilə əməkdaşlıq zamanı pedaqoqların seçiminə xüsusi yanaşılmalıdır.**

**Görüş zamanı gələcəkdə həyata keçirilə biləcək birgə tədbirlər barədə də fikir mübadiləsi aparılıb. Gələcəkdə E. Əliyevlə BXA arasında əməkdaşlıq barədə razılıq əldə edilib. Eldar Əliyev Bakı Xoreoqrafiya Akademiyasının rəhbərliyinə xatirə hədiyyələrini təqdim edib.**

**Görüşün sonunda BXA şagird və tələbələri qonağın şərəfinə konsert proqramı ilə çıxış ediblər. "Zəriflik", "Qu gölü", "Tənhalıq", "Müqavimət" və digər rəqs parçaları ifa olunub.**

**Konsertin sonunda isə Əziz Qarayusifli qonağa təşəkkürnamə təqdim edib.**

# Saçlarımız niyə ağarır? - "Quran"ın və elmin gəldiyi nəticə...

**Dünyanın heç bir yerində heç kəs keçəl olmaq istəməz. İstər qadında, istərsə də kişidə saçlar gözəlliyin əsas hissələrindən biridir. Həm Azərbaycan, həm də şərq ədəbiyyatında ta qədimdən günümüzə qədər bu gözəlliyə həsr edilmiş minlərlə nəzm əsərlərinə rast gəlmək olar." Mişk zülfün nə gözəl, aləmə ənbər dağıdır,**
**Gör nə xoşdur, gözəlim bir belə ənbər istərəm! " (Nizami Gəncəvi), "Könlüm açılır zülfi-pərişanını görcək, nitqim tutulur qönçeyi-xəndanını görcək"(Məhəmməd Füzuli) "İstər Ələsgərdən yar ala canı,tökəndə zülflərin, a yana, yana (Aşıq Ələsgər) və sair...**

### *Bu gözəllik - saçlar niyə ağarır?*

Saçların ağarması insanların qanını qaraldır. Bəs görəsən bu niyə baş verir?

Alimlərin araşdırmasına görə, saçın kökündə olan rəng hüceyrələri - melaninin istehsalı hansısa səbəbdən dayanır. Melanin olmadıqda tük gümüşü çalar alır. Əgər ağ tükə mikroskop altında baxsaq, şəffaf boruya bənzər bir şey görərik. Deməli, melaninin əmələ gəlməsini normallaşdıran və artıran üsullar tapılmalıdır.

*Genetik səbəblər-nəsildən gələn, stres, əsəb, fikir, qorxu, həyəcan, uğursuzluq, qeyri-normal qidalanma, alkoqol, siqaret, yuxunun pozulması, qalxanabənzər vəzi və mədə-bağırsaq sisteminin pozulması, günəşin altında çox qalmaq...

### *"Tfu şarlatan" - Ağ saçları qopartmaq doğrudurmu?*

***Məşhur "O olmasın, bu olsun" filmində hənadan sonra saqqalında qalmış ağ tükü qopardan Məşədi İbadın məlum frazasından məlumdur ki, qara tüklərin arasında ağ tük görmək elədə xoşagələn hal deyil! Hətta el arasında deyirlər ki,ağ tükü qopartmaq onun daha da yayılmasına səbəb olur.Bu həqiqətən də belədir.Hələ ki, bunun elmi səbəbini araşdırmayıblar, amma gerçəkdən ağ tükləri qopartdığınız yerdən yenə də ağ tük çıxacaq.***

Əgər saçlarınızda 4-5 dənə ağ tük varsa,onlara görə tez-tez boyamayın. Boyanı saçlar 30% ağaranda qoyun.Əgər başda 25 yaşında artıq 3-4 ağ tük varsa, deməli, gələn il onların sayı 6-7 olacaq. Çünki ağ saçlar ilbəil iki dəfə artır.

Saçların ağarmasını vaxtından əvvəl qocalmağa yozan qadınlar bəzən sözün həqiqi mənasında bir gərginlik yaşayırlar. Onlar hesab edir ki, kişilərdə ağ saçlar onu yaraşıqlı göstərir. Kişilər isə əksinə, qadının saçında ağ tükləri görən kimi "Yəqin yaşlanır" deyə düşünür. Əlbəttə ki, onlar səhv düşünür. Saçların ağarması dünyanın sonu deyil. O,sizin səhhətiniz üçün də problem deyil. Ən pisi saçların tökülməsi və keçəlləşmədir. Ağarmış saç elə saçdır, sadəcə rəngi yoxdur.

Yeri gəlmişkən, ani qorxu və şok yaşayan insanlarda saç bəzən bir gün və ya bir neçə gün ərzində ağara bilir. Saçın bu şəkildə ağarmasının səbəbi





isə kimya sahəsində Nobel mükafatı alan Robert Lefkovitsin (Robert Lefkowitz) rəhbərliyibdəki qrupun keçən il apardığı araşdırma ilə öyrənilmişdi. Siçanlar üzərində aparılan araşdırmada xroniki stresin DNT-də ziyana səbəb olan mexanizm yaratdığı və bunun saç ağarmasına gətirib çıxardığını müəyyən etmişlər. Stress nə qədər ağırdırsa, DNT-dəki zərər də o dərəcə ağır olur və insanların saçı buna müvafiq olaraq ağarır.

### *Saçların ağarmasının qarşısını almaq olarmı?- Çarələr...*

**Sarımsaqlı maska - 2 diş sarmısağı əzin, kütləni saçın yalnız diblərinə sürtün.Əgər saçınız qurudursa, bu kütləyə bir az ayıpəncəsi yağı damızdırın.Başınızı dəsmalla sarıyın,2 saat sonra yuyun.Ancaq isti su ilə yuyub,axırda alma sirkəsi qatılmış su ilə yaxalayın ki,kəskin qoxu hiss olunmasın.**

Kök və limon maskası-Bir xörək qaşığı kök şirəsinə eyni miqdarda limon suyu qatın.

Kütləni saçın diblərinə çəkin.40 dəqiqə sonra ılıq su ilə yuyun.

İtburnu losyonu - İtburnunu termosda 12 saat dəmləyin.Sonra şüşə qaba süzün.Bu losyonla baş dərisini həftədə 2-3 dəfə silin.Yumağa ehtiyac yoxdur.

Losyon saçların sürətlə ağarmasının, dibdən ağ saçların çıxmasının qarşısını alır.

Əslində bu losyon, yağ və maskalara gənc yaşlardan başlamaq lazımdır ki, saçlar qidalansın, qüvvətlənsin.

### *Müqəddəs "Quran" nə deyir?*

Saçların ağarması kimi bir çox fiziki və ruhi sıxıntılara səbəb olan stress Allahın Quranda dindən uzaq yaşayan insanlarla bağlı bildirdiyi vəziyyətdir: "Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq " (Ta ha surəsi, 124) ayəsi ilə Rəbbimiz təvəkkülsüz qullarının çətin və stresli həyat yaşayacaqlarına diqqət çəkir. Başqa ayədə isə "...yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri kədərdən sıxılmış və yəqin bilmişdilər ki, Allahdan (Onun əzabından), ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur..." (Tövbə surəsi, 118) şəklində buyurulur.

Bu sıxıntılı və stresli həyat iman gətirməyənlərin gözəl əxlaqdan uzaq yaşamalarının nəticəsidir. Bu gün həkimlər stressin təsirlərindən qorunmaq üçün dinc və sakit ruha, dinc, hüzurlü və narahatlıqlardan uzaq psixologiyaya sahib olmağın vacibliyini ifadə edirlər. Dinc və rahat psixologiya ancaq Quran əxlaqını gündəlik həyata keçirmək, qədərə təslim olmaq və Uca Allaha təvəkkül etməklə mümkündür.

Belə ki, Allah Quranda bir çox ayədə iman gətirənlərin qəlbinə "güvən və rahatlıq" verdiyini bildirir. Rəbbimizin iman gətirən qullarına vədi isə bir ayədə belə xəbər verilir:

"Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq". (Nəh surəsi, 97)

**Son olaraq: saçlarınızın ağarmasını özünüzə dərd etməyin! Ən əsası odurki, yaxşı işlər görün! Əzizlərinizin və sevdiklərinizin yanında olun, onları sevin, onlara qayğı göstərin! Gözəl həyat yaşamağa çalışın!**

**Əntiqə Rəşid**

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 105
Çapa imzalanmışdır: 14.06.2021